**Telman Orucov**

# Böyük coğrafi kəşflər.

# Təbiət insanı yaşadır.





*Telman Orucov*

# Böyük coğrafi kəşflər və yerli xalqlara onların gətirdiyi bədbəxtliklər

Dünyadakı yeni ərazilərin, hətta insan yaşayan dörd qitənin kəşf edilməsində avropalıların müstəsna rol oynadıqlarını layiqincə qiymətləndirmək çətin olduğu kimi, bu inqilabi fəaliyyəti inkar etmək heç cür mümkün deyildir. Naməlum ölkələrə və xalqlara onların marağı Orta əsrlərdən böyüməyə başlamış və həmin ərazilərə ayaq basmaq, onlarla yaxından tanış olmaq həvəsi daha da güclənmişdir. Bu heç də o demək deyildir ki, onlar kor-koranə hərəkət edir, qaranlığa işıq salmaq üçün məqsədi bəlli olmayan fədakarlıq göstərirdilər. Ən azı, onlar təxəyyüllərində bu ölkələri və xalqları yaradır və onlara xüsusi cazibədarlıq xüsusiyyətləri verirdilər.

## Naməlum olanlar barədə yaranan təsəvvürlər

İnsana ona görə də bəzən fantastik mənzərələrin bolluğu ilə seçilən bu torpaqları kəşf etmək üçün həmin çağırış tipli düşüncələr hakim kəsilir, qığılcım rolunu oynamaqla, sonrakı gurlayan alovun yaranmasına səbəb olur. Onlar haqqında azacıq eşitdiklərini sonra, bu ölkələri və xalqlar barədə uydurulmuş müxtəlif keyfiyyətlərlə silahlandırmaqla böyüdürlər. Guya həmin ərazilərdə boyu 28-30 fut hündürlüyündə olan nəhəng insanlar yaşayır. Uzaq şimaldakı qadınları isə onlar qəddar məxluqlar kimi təsəvvür edirdilər. Bunları heç də təkcə özləri uydurmamışdılar, onlara məlum olan qədim yunan mifləri də qeyri-adi əhvalatlarla və varlıqlar barədəki biliklərlə onların şüurunu doldurmuşdu.

Qədim yunan mifologiyası, antik dünyaya tanışlıq başlandıqdan sonra, öz qeyri-adiliyi ilə onlar avropalıların marağını daha da qızışdırmışdı. Krit adasındakı labirintdə saxlanan yarıöküz, yarıinsan olan Minotavrın hər il çox sayda afinalı oğlan və qızları yeməsi maraq kəsb etməklə yanaşı, həm də onları qorxudurdu. Heraklın igidliyi barədə rəvayətlər məlum olmayan hadisələrlə və heyvanlarla dolu idi. Bu qəhrəman, dimdiyi, qanadı və caynaqları misdən olan quşlarla da mübarizə aparmış, Atlantı aldada bilmiş, çoxbaşlı gidranı və Nemey şirini, kentavrları, ikibaşlı kerber itini məğlub edə bilmişdi. Qədim yunanlar xüsusən təəccüb doğuran, döyüşkən və həm də qəddarlıqları ilə seçilən qadın cəmiyyəti olan

amazonkalar barədə əfsanələr də uydurmuşlar. Dəniz səfərlərinin təhlükəli olduğu, Odisseyin əhvalatlarında sirenaların xoş səslə oxumasına heyran olan səyahətçilərin məhv olmaqla üzləşdikləri şəklində təsvir edilmişdi.

Avropalılar qədim yunanları elmin, fəlsəfənin, incəsənətin, demokratiyanı da özündə əks etdirən hüququn, arxitekturanın, ümumilikdə Avropa sivilizasiyasının beşiyi saydıqları Afinada, yunan torpaqlarında yaşayanların miflərinə də şübhə ilə yanaşmaq istəmirdilər. Mifologiyadakılar fantastikliyi ilə seçilsə də, qitə sakinləri olan xalqların nağıl tipli, primitiv miflərindən reallığa daha yaxın, həm də dramatik səhnələrlə daha bol olduğuna görə fərqlənirdi və avropalılar asanlıqla onun təsiri altına düşürdülər.

Bunlara təəccüblənmək də düzgün deyildir. Axı bir qayda olaraq insan həyatın naməlum cəhətlərinə daha çox maraq göstərir, onun real olaraq necə mümkün olduğunu bilməyə, öyrənməyə, anlamağa can atır. Konqitiv inqilabın başlanması ilə insan, öz təfəkkürünü inkişaf etdirməyə, idrakını gücləndirməyə çalışırdı. Bu isə bəşər cəmiyyətində ardıcıl inkişafın bir generatoru rolunu oynayırdı.

## Məhəbbət: fədakarlıq və faciəli sonluq

Hətta ibtidai insan da öz maraq dairəsinin genişlənməsi, həyat tərzinin dəyişilməsi ilə təkamülün bünövrəsini qoymuşdu. İnsanın təbii hissi olan məhəbbət, onun hakim kəsilməsindən xəbər verən ehtiras təkcə şirinliyi ilə deyil, həm də onun daşıyıcılarına əzab verməsi ilə, ağla sığmayan hiss kataklizmlərinə cəlb etməsi ilə seçilir. Təsadüfi deyildir ki, b.e.ə. VI əsrdə Lesbos adasında yaşamış yunan şairəsi Sapfo insan üçün çox təsirli və ali hiss olan məhəbbəti, ondan müdafiəsi mümkün olmayan şirin-acı əjdaha adlandırmışdı. İnsanın məhəbbət dünyasında yaşaması üçün hər cür fədakarlığa hazır olması, onu həyatdakı digər qorxulu hadisələrdən də çəkinməməyə, çaşmağa səsləyir. İstər Şərqin, istərsə də Avropa xalqlarının nağıllarında təsvir olunan məhəbbət əhvalatları, cismani hissiyyat, bir qayda olaraq, faciələr məkanına çevrilir, sevənləri ağır bədbəxtliklər öz ağuşunda boğmağa başlayır.

Lakin belə çox təkrar olunan sonluq, sonralar məhəbbət dünyasının sakinləri olanları heç də qorxutmur, onlar bu təhlükə dənizinə, hisslərinin iradələrinə qalib gəlməsi nəticəsində, məhəbbət naminə heç nəyi nəzərə almadan baş vururlar.

Məhəbbətin qurbanları, onu müxtəlif cür qiymətləndirilməsinə görə geniş çeşiddə, ali hiss naminə ağla gəlməyən faciəli sonluqlara sahib olurlar. Qadın, əslində dünyanı gözəl etdiyinə görə, onun yolunda qurban gedənlər daha çox olur. Qıza vurulan, onu ürəkdən sevən oğlan və ya kişi coşqun sevgisinə görə həyatını da qurban verməyə hazırdır, çünki sevdiyinin də cavab hisslərinə qətiyyən şübhə etmir, qızın da onun yolunda hər cür fədakarlığa gedəcəyinə inanır. Lakin təəssüf ki, məhəbbəti, ustalıqla qurulan tələ hesab edən bəzi qızlar, adətən onları sevənləri öz sədaqətinə nəinki inandırmağı və hətta ondan istədiyi kimi, öz məkrli niyyətləri üçün istifadə etməyi də bacarırlar.

Bibliyadakı yəhudi qəhrəmanı, filistinlilərin çox qorxduğu Samson, düşmən tayfanın qızı Dəlilə tərəfindən tələyə salındığını ağlına da gətirmir. Axı onların görüşləri Samsona olduqca böyük həzz verir, Axı Dəlilə ona özünün eşq təyinatlı xəzinəsini bağışlamışdır. Filistinlilər Samsonun əfsanəvi gücünü yaradan səbəbi bilməyə çalışır və bunu öyrənməyi Dəliləyə tapşırırlar. Dəlilə hər cür nəvaziş göstərərək, Samsondan bu sirri ona acmağı xahiş edir. Bir neçə dəfə bu xahiş təkrar olunduqdan sonra, Samson sevdiyi qızın ovsununa dözməyi bacarmır və ona etiraf edir ki, onun gücü saçlarındadır. Bir dəfə gur eşq səhnəsindən sonra Samson yuxuya gedib yatanda, Dəlilə onun başını qırxır və malik olduğu nəhəng güc Samsonu tərk edir. Filistinlilər tam zəifləmiş Samsonu əsir götürürlər və onu bir sütunlu binada saxlayırlar. Samson başındakı saçın uzandığını görüb, əvvəlki gücünün bərpa olunmasına əmin olur. O, zəncirlə bağlandığı daş sütunu dartıb yerə salır, binanın tavanı dağılır və onun altında çox sayda filistinli və Samsonun özü həlak olur.

Dəlilə yüngül əxlaqlı qız olduğuna görə, Samsona saxta məhəbbət bəsləməklə, casusluq etmişdi. Sevginin adamı kor etməsi Samsonun nümunəsində bir daha aydın görünür.

Avropada isə Orta əsrlərdəki Françeska da Riminin məhəbbət macərası və sevgililərin acı taleyi, onu qitə mədəniyyətinin ən məşhur obrazlarından biri etmişdir. Onun cavan yaşında məhəbbətinə görə həlak olması sonralar ədəbi, təsviri sənət, musiqi əsərlərində, kinoda geniş istifadə edilmişdir. Dante Aligyeri özünün "İlahi komediyası"nda ilk dəfə bu məşhur və gözəl qıza xeyli yüksək sətirlər həsr etmişdi.

Françeska da Rimini (1258–1284-cü illər) 15 aşında olanda, Ravennanın hökmdarı olan atası onu Canqotto (Covanni) Malatestaya ərə vermişdi. Nikah siyasi məqsəd naminə bağlanmışdı, belə füsunkar qız axsaq oğlana ərə getmişdi. Lakin Françeska az sonra ərinin kiçik qardaşı Paolo ilə sevişmiş, əri onları cinayətlərində tutanda, hər ikisini qılınc zərbəsi ilə öldürmüşdü. Covanni anlamalı

idi ki, şəhərdə gözəlliyi ilə seçilən və mələyə bənzər bu qız ona sədaqətli arvad olmayacaqdır və ona görə də gənc xanımı onun daha yaraşıqlı kiçik qardaşlına vurulmuşdu. Françeska yeniyetmə ikən sevmədiyi adama ərə getdiyindən, sonra onu cəlb edən əsl məhəbbət həyatını yaşamış və birgə yaşadıqları şirinliyin zəhər kimi acı dadı hər iki sevgilinin həyatına son qoymuşdu. Bu hadisədən səkkiz əsrə yaxın vaxt keçir, lakin məhəbbət fədaisi olan Françeska da Rimini təkcə müxtəlif növlü əsərlərdə deyil, həm də məhəbbətin aliliyinə qiymət verən və həyatını buna həsr etməklə fərqlənən adamların xatirələrində yaşamaqda davam edir.

Məhəbbət dənizi ona baş vuranları, hətta onun dərinliklərində boğulanları şərəf zirvəsinə yüksəldib, onlara əlavə, əsrlərlə ölçülən ömür verməyi ilə seçilir. Françeska da Rimini və Paolo Malatesta başlarında bu çələngi daşımağa layiq olmuşlar. Onlar məhəbbətin qurbanı olsalar da, ölməz şöhrətlərinə rəğmən, hələ də sevən məxluqlara nümunəvi təsir göstərməyi bacarırlar.

Françeska da Rimini ilə Dəlilə arasında məhəbbətə münasibətdə qütbvari fərq vardır. Françeska Paoloya sevgisinə görə öz həyatını qurban verməklə yanaşı, həm də məhəbbət bəslədiyi oğlanın da həyatını itirməsinə səbəb olması ilə cəzalansa da, az müddətdə də olsa, onlar bu ali hissin əbədi baharını da yaşamış, Venera bağının bəxş etdiyi imkandan bol istifadə etməklə, əsl insan həyatının ən yüksək dəyərindən həzz almışdılar.

Dəlilə isə Samsonu, əslində, sevmirdi, lakin onu tələyə salmaq, ağlasığmaz qüvvətinin sirrinə bələd olmaq üçün onunla fiziki yaxınlıq edirdi. Onların ruhları isə tam müxtəlif paralellərdə yaşayırdı. Samson öz dərin hissi ilə bu qızı sevirdi və həmin onu qarsan bu alovun da qurbanı oldu. Dəlilə isə məhəbbətin nə olduğunu bilmirdi, öz saxta hisslərini işə salmaqla, casusluq qabiliyyəti ilə öyünürdü.

Lakin sevən qadınların çoxu, onları yüksəldən hissə, məhəbbət duyğusuna daimi sədaqətli qalırlar. Elonza və Abelyar tarixçəsində Elonza ölənə qədər özündən yaşca iki dəfə böyük və müəllimi olan kişidə məhəbbət alovunun daha gur yanmasına nail olmuşdu. İzolda Tristana olan sevgisini ölənə qədər hifz etmişdi.

Yaxud başqa bir misal. Əfqanıstanda Payinda xanın qızı olan Vəfa Bəyim Şah Şucaya ərə getmişdi. Az sonra, 1803-cü ildə öz düşməni olani digər sülalə ilə qanlı döyüşə girən Şuca dustaq edilmişdi və arvadı onu Kaşmirdəki məhbəsdən 1813-cü ildə azad etmək üçün ərinin düşməni Rancit Sinqhə çox qiymətli olan məşhur Köhi-Nur almağını təklifı etmişdi və Şucanın ikinci dəfə də 1815-ci ildə Lahor dustaqxanasından azad olmasına kömək etmişdi. Axırda britaniyalıları, ona sığınacaq verməyə inandıra bilmişdi. 1838-ci ildə əri Şucanın siyasəti xanımının

məsləhətindən məhrum olduğuna görə uğursuzluğa uğramışdı. Vəfa  Bəyim bu vaxt artıq ölmüşdü.

Kohi- Nur almazı isə tarixdə öz növündən olan daş-qaşların içərisində hadir nüsxə olması ilə seçilir, onun sahibləri buna görə iftixar hissləri yaşayırdılar.Xeyli əvvəl, XVII əsrin son rübündə hakimiyyətdə olan Teymur Şah öz Timurid əcdadlarına bənzəmək istəyirdi. Bu cəhdi bir fayda verməsə də,lakin o, daş-qaş aludəçisi idi. Köhi-nur almazını sinəsinin döş tərəfində, dirsəkdən yuxarı sancılmış şəkildə gəzdirirdi, atının da qaşqasına qiymətli bəzəkli sancaq vururdu.

Rancit Sinqhə verilən almaz hələ XIII əsrdən mövcud idi. 1839-cu ildə isə almaz britaniyalı Con Lourenə məxsus olmuşdu, 1850-ci ildə  İngiltərəyə gətirilmişdi. Loqq onu kraliça Viktoriyaya hədiyyə vermişdi. 1853-cü ildə almaz kraliçanın tacına bərkidildi. O vaxtdan indiyədək almaz Böyük Britaniya monarxlarının tacını bəzəyir.

Misal gətirilən nümunələrə  görə sevənləri qınamaq da olmur, çünki bu fədakarlıq insan təbiətindən doğur, onun əksər canlılardan fərqli olduğunun əyani bir təzahürüdür. Qədim Romanın böyük şairi Ovidinin yazdığı  kimi, məhəbbəti yaşamaqla, ibtidai insan bu ülvi hissin daşıyıcısına çevrilməklə, heyvanlara xas olan həyat tərzindən uzaqlaşmış, özünü yeni, tam fərqli xüsusiyyətlərə malik olan bir varlıq kimi göstərmişdir.

Məhəbbət cəmiyyətlərin yaratdığı qadağalara, qınaqlara da məhəl qoymur, hər cür təhlükə vəd edən hisslərin coşmasını nəinki söndürmür, hətta onların alovlanması ilə öz təbiətindən irəli gələn igidliyə əl atdıqlarına görə də sevinir. Heç bir əzab onu qorxutmur, çünki onlara dözməyə, bu həyatı yaşamağa artıq hazırdır, hətta qarşıdakı ölüm şəklindəki ağır cəza da onları bu cəbhədən uzaqlaşdıra bilmir. Məhəbbət döyüşü axırda ölüm vəd etsə də, buna girişənlər həyatlarını itirməyə görə də ondan heç vaxt çəkinmirlər.

Yeniliyə maraq göstərməsi insanı igidliyə səsləyir

Özünü və dünyanı dərk etməyə çalışan insan təkcə məhəbbət əhvalatlarında sınanmır, onun igidlik göstərməsi, çətinlikləri hər cür əzablar hesabına dəf etməsi üçün digər motivlər də mövcuddur. Bu qarşısı alınmaz istəklərdən biri onun yeniliyə, naməlum olanlara möhkəm maraq göstərməsidir. Bu niyyətinə görə insan qorxulu təhlükələrə atılmağa hazırdır, əvvəl baş verən əhvalatlar onu qorxutmaq əvəzinə, daha qızğın hisslə və iradə ilə silahlandırır. O, qarşısına olduqca böyük məqsəd qoyduqda, hər cür əzaba, məhrumiyyətlərə də dözməyə, ölümlə üzləşməyə

də hazırdır. Bunlar isə onu əvvəllər məlum olmayan igidliklər göstərməyə səsləyir və onlara müsbət cavab alır. Məhz bu hisslər avropalıları ətraf dünyanı öyrənmək həvəsinə cəlb etməklə, həsəd aparılacaq igidliklər göstərməyə həvəsləndirdi. Onlar, Ferdinand Magellanın nümunəsində olduğu kimi, uzun çəkən və çox saydakı əzablara dözəndən sonra, ağılsız bir təşəbbüs hesabına həyalarını itirə də bilərlər. Dünyanı öyrənmək, fəth etmək rahat həyatdan heç də həzz almaqla, ləzzətlə əhatə olunmuş bir şəraitində baş vermir, bu vəzifəni yerinə yetirmək üçün möhkəm iradə və sarsılmaz cəsarət göstərmək tələb olunur. Bir qayda olaraq, insan ona mənsub olanlarla heç vaxt kifayətlənmək istəmir, daha böyük imkanlar vəd edən həyat şəraitinə nail olmaqdan ötəri onları öyrənmək istəyir və bu qərarı ilə ətalətdən xəbər verən əvvəlki yaşayışına son qoyur. O, uzaq ölkələrə səfər etməkdən də çəkinmir, qaranlıq olanları işığa qərq etmək üçün onda əvvəllər məlum olmayan bir istək və tükənməz enerji yaranır.

Əlbəttə, bu həvəsin yaranması heç də təsadüfi deyildir, bir çox hadisələr onu buna hazırlamışdır. Bu igidlik, qəhrəmanlıq nümunələri heç də boş yerdə yaranmamışdır, onların həyata keçirilməsi üçün istəyin və yaranan şəraitlərin üst-üstə düşməsi də az rol oynamır.

Bu heç də sirr deyildir ki, insan yaranışdan sərvətə sahib olmaq, varlanmağa nail olmaq onun üçün hərəkətverici qüvvə  rolunu oynamışdır. Əlbəttə, bu istək ibtidai insanda primitiv xarakter daşıyırdı, iri heyvanı ovlamaq onun böyük sevinc mənbəyinə çevrilirdi, çünki doğma icması aclıqdan xilas olacaqdı, bir müddət qida ehtiyatı ilə təmin ediləcəkdi. Ərzaq cəhətdən çətinlik çəkən qəbilələr başqasına hücum edib, onun ixtiyarındakı o dövrün ən mühüm sərvətini – qida maddələrini ələ keçirməsi ilə öyünürdü.

Lakin sərvət naminə insanın göydəki ulduzları qoparmağa cəhd etməsini də düşünmək sadəlövhlükdür. İnsan kosmosa yalnız məchulluq və qorxu mənbəyi kimi baxırdı, onun cisimlərini, az qala, müqəddəslik haləsi ilə əhatə edirdi. İnsanı Yer üzünün nemətləri maraqlandırırdı və onlara sahib olmaq istəyi daim onu axtarışlara, yeni olan bir şeyi tapmağa cəzb edirdi. İnsan öz həyatındakı və ərzaq istehsalındakı bir sıra dəyişikliklərlə ovçuluqdan və bitkilərin meyvəsini və kökünü yığmaqdan, kənd təsərrüfatı istehsalına keçməklə, Aqrar inqilaba imza atmışdı. İndi o, təkcə ovun nəticəsindən və yığmaq fəaliyyətindən asılı deyildi, əkinçilik və heyvandarlığın mənimsənilməsi, azacıq da olsa, istehsala başlaması ilə, öz həyatında ağla sığmayan müsbət dəyişikliklərə nail olmuşdu. Belə şəraitdə varlanmaq həvəsi də böyüyürdü, bu motiv insana yol göstərən ulduz rolunu oynayırdı.

Yaşadığı təbii şərait də insanın ağıl və əmək qabiliyyətinin inkişafına öz müsbət və mənfi təsirini göstərirdi. Hər şeyin hazır şəkildə təbiət tərəfindən təchiz edildiyi şəraitlərdə insan inkişafdan geri qalırdı. Onu yeniliyə, digər vasitələrə sahib olmaq maraqlandırmırdı, çünki təbiət onun üçün ana rolunu oynayırdı. Ana körpəsini döş südü ilə əmizdirdiyi kimi, təbiət də insan icmalarını hazır qida məhsulları ilə, məsələn, Şimali Amerika hindularını su hövzələrində bitən, yabanı düyü və bizonları ovlamaqla və balıq tutmaqla bol ət ehtiyatı ilə təmin edirdi. Qida barədə ehtiyac hiss etməyən, çətinlik çəkməyən icmalar ixtiyarlarında olan mənbələrlə kifayətlənməklə, yeni həyat tərzi, daha böyük bolluğa yiyələnmək hissi onları heç maraqlandırmırdı da.

Avropada isə təbiət insanları belə bol qida ehtiyatı ilə təmin etmirdi, ona nail olmaq üçün böyük əziyyət çəkmək tələb olunurhdu. Ona görə də qitə sakinlərini təxəyyüllərində əfsanəvi bolluq məskəni kimi canlandırdıqları torpaqlar onları daha çox maraqlandırmağa başlayırdı. Onların yeni əraziləri fəth etmək istəyi və həvəsi, bəlkə də, müasir insana təəccüblü görünə bilər. Lakin ehtiyac və ondan xilas olmaq daim insanı hərəkət etməyə məcbur edən mühüm motiv rolunu oynamışdır.

## Ədviyyat axtarışları böyük kəşflərə yol açır

Təəccüblü görünsə də, insanı təkcə qida maddələrinin bolluğu deyil, həm də istehlak etdiyi qidanın keyfiyyəti, dadı, onun getdikcə artan zövqünə uyğun olması da maraqlandırırdı. Bu sahədə avropalıların ədviyyatla tanışlığı, onların mətbəxində, məişətində mühüm dəyişikliyin əmələ gəlməsinə səbəb olmuşdu, odda əti qızartmaqdan, dadlı, ləzzətli xörəklər hazırlamasına keçilmişdi. Bunlar isə öz torpaqlarında bitməyən, Uzaq Şərqdən gətirilən ədviyyat növlərinin köməyi ilə meydana gəlmişdi. Ərəb tacirlərinin vasitəçiliyi ilə Şərqdən gətirilən ədviyyat avropalıların xörəyinə xüsusi dad verirdi, ona öyrənən adamlar primitiv qaydada hazırlanan qidaya artıq o qədər də maraq göstərmirdi. Bu həm də avropalıların zövqündə dəyişikliyin baş verməsinə səbəb olmuşdu. Ədviyyata yiyələnmək, ondan daha çox istifadə etmək istəyi müəyyən vaxt ərzində artmağa, alovlanmağa başladı. Daha dadlı xörəyə öyrənən adam artıq dadsız hazırlanan qidaya maraq göstərmir, hətta bəzən ona ikrah hissi ilə baxmağa başlayır.

Lakin ədviyyat mənbəyini tapmaq və ona sahib olmaq istəyini məhəbbət labirintində dolaşmaqla müqayisə etmək düzgün olmazdı. Ədviyyat yeyilən xörəyə dad vermək üçündür, dad təbii olaraq qida boğazdan keçdikdən sonra öz

mahiyyətini itirir. Məhəbbət isə ürəyin səlahiyyətinə aid olduğundan, insanı bütünlüklə öz təsiri altına salır, uzun müddət yaşamaqda davam etməklə, insanın ali hədəfinə çevrilir. Məhəbbət arzulandığı romantikanı gözlədiyindən, poeziya xarakteri daşıyır. Ədviyyat isə yalnız xörəyə dad vermək üçün olduğundan, özünü ancaq məişət problemi kimi biruzə verir, ona görə də məhəbbətdən fərqli olaraq sırf prozaik xarakter daşıyır.

Bu heç də o demək deyildir ki, biz ədviyyat axtarışlarına çıxan səyyah-tədqiqatçıların gərgin əməyini, göstərdikləri əsl igidlikləri qiymətləndirməməliyik. Belə münasibət onlara qarşı yolverilməz ədalətsizlik olardı. Onlar maddi varlıqları axtarsalar da, onların məchulluğa bürünmüş ağır səfərləri hər cür təhlükələrlə dolu idi. Onların başına gələn macəralar ölümün ağuşuna atılmaq təsiri bağışlasa da, özünə məxsus romantikanı yada salırdı. Ona görə də biz bu insanların qəhrəmanlıqdan xəbər verən ağır zəhmətini nəinki aşağılamamalı, onların böyük kəşflərlə nəticələnən səyahətlərini yüksək qiymətləndirməliyik.

Ədviyyat axtarışlarına həsr olunmuş səfərlər heç də hansısa ölkəni görmək kimi sadə maraqdan yaranmamışdı. Avropalıları bu məsələdə müəyyən ölçüdə narazı salan mühüm cəhət də mövcud idi.. Bu da ədviyyatın baha qiymətə ərəb tacirlərindən alınması idi. Onlar da bu ləzzət mənbəyi olan bitki məhsulu növlərini uzaq məsafələrdən gətirdiklərindən, ağır yol xərci çəkməyə məcbur olurdular. Onlar bibəri Hindistanın qərb ərazilərindən, darçını və muskus qozunu isə uzaq Şərqdə yerləşən adalardan alıb gətirirdilər. Bu məhsullar heç də ərəb tacirlərinə məxsus deyildi, bu bitkiləri yerli ada sakinləri becərirdi. Ərəblər isə yalnız ticarət xidməti göstərirdilər. Avropada da ədviyyata tələb getdikcə böyüyürdü, ona görə də tacirlərin təklif etdikləri baha qiymətlərlə də razılaşmaq lazım gəlirdi.

Lakin XV əsrin ortalarında vəziyyət daha da pisləşdi, ərəblərin qitəyə ədviyyat gətirməsi, ümumiyyətlə, ticarət əməliyyatları dayandırıldı. Buna isə səbəb 1453-cü ildə Konstantinopolun türk sultanı Mehmet Fateh tərəfindən tutulması oldu. Axı Avropaya dəniz yolu Konstantinopoldan keçirdi, bu yolun hesabına Venetsiya Respublikası ticarətdən olduqca varlanmışdı. Türklərin Bizans imperiyası üzərində qələbəsi və onu yox etməsi, Avropanı təmin edən ticarət üçün keçilməz sədd rolunu oynadı. Bazarda ədviyyatın qiyməti otuz dəfə yüksəldi. Beləliklə, şəraitin təzyiq göstərməsi ilə Orta əsrlərin sonu böyük coğrafi kəşflər erasına çevrildi.

Avropalılar, əlbəttə, xüsusən varlı təbəqə, mətbəxlərində ədviyyata çox öyrəndiklərindən, hətta adət etdiklərindən, onu əldə etməyin digər yollarını axtarmağa başladılar. Bu sahədə Venetsiyalı səyyah Marko Polonun “Səyahətnamə” kitabı onlar üçün bu həvəsi daha da artıran bir rol oynadı. Marko

atası Nikkolaya qoşularaq quru yolla, əzablı və uzun vaxt tələb edən səfərə çıxmışdı. Böyük çətinliklərin müşayiət etdiyi bu ağır səfər nəticəsində o, 1271-ci ildə uzaq Çinə, o vaxtlar işğal edilmiş ölkəni idarə edən Monqol hökmdarı Xubilay xanın sarayına gəlib çıxmışdı. Səfərdən isə, əvvəlki çətinliyi nəzərə alaraq, dəniz yolu ilə qayıtmış, bir sıra ölkələri və onlarda yaşayan xalqların həyatını və məişət qaydalarını müşahidə etmişdi.

Avropalılar italiyalı Markonun bu məşhur səfərindən iki əsr sonra ədviyyat ticarətini ələ keçirmək məqsədilə Şərqə dəniz yolu ilə getmək həvəsinə düşdülər. Portuqaliyalılar bu sahədə qitədə yaşayan digər xalqlardan fərqli olaraq, daha doğrusu, qabağa gedərək, ilk dəfə dəniz səyahətində xeyli irəli çıxmışdılar. XV əsrdə prints Henri Naviqator Afrikanın qərb sahillərini kəşf etməyə, öyrənməyə başlamışdı. Qədim romalılara isə yalnız Afrikanın şimalındakı Misir, Karfagen və Numidiya məlum idi. Qitənin qalan hissəsi onlar üçün *terra inkognita* olaraq qalmışdı. Onlar Karfagenlə b.e.ə. III əsrdən başlayaraq, II əsrin ortalarına qədər üç Puniya müharibəsində vuruşmuş, son qələbə ilə b.e.ə. 146-cı ildə Karfageni yandırmış və yerlə yeksan etmişdilər. B.e.ə. I əsrin 30-cu ilində isə Misirin son çariçası VII Kleopatranın romalı sərkərdə Avqusta məğlub olması, bu fərasətli qadının özünü intihar etməsi və ölkəsinin Romanın tabeliyinə düşməsi ilə nəticələnmişdi. Bu hadisələrdən sonra avropalılar 1,5 min ilə yaxın müddətdə Afrika ərazilərinə bir daha müdaxilə etməmişdilər.

Hindistan və ondan şərqdə olan ölkələr isə avropalılar üçün bağlı olaraq qalırdı, onların ədviyyat malları ilə ticarəti ərəblər həyata keçirirdilər və az sonra onların da Qərbə ticarət səfərləri Konstantinopolun türk işğalı hesabına bütünlüklə dayandırıldı. Bu vəziyyət ona aparıb çıxardı ki, avropalılar həmin regionlara dəniz yolu axtarmağa başladılar. Afrikanın qərb sahilinin tədqiqi heç də hələ bu yolu açmaq səviyyəsinə çatmaq deyildi.

Əslində, Qərb sivilizasiyası hələ Orta əsrlərin sonunda dünyanın qalan hissələrinə yayılmağa cəhd göstərmişdi. Səlib yürüşləri ciddi fayda verməməsi ilə yanaşı, bu vəzifənin həllinə azacıq da olsa, kömək göstərə bilməmişdi. Avropalılar bu məqsədi həll etmək üçün, həm də artıq bir dinamik enerjiyə malik idi. Atlantik okeanın şərq sahillərinə XV əsrin sonundan baş verən səfərlər sırf kommersiya məqsədini güdürdü. Çünki bu vaxt Orta əsrlərin aqrar iqtisadiyyatından kommersiya və sənaye kapitalizmi sisteminə keçmək zərurəti meydana gəlmişdi. Avropalılar tanımadıqları xalqlarla yeni və davam edən əlaqələrə girməyə hazırlaşırdı. Bunu isə yalnız XV əsrin sonunda vəXVI əsrin başlanğıcında meydana gələn yeni era həll edə bilərdi.

Min il ərzində katolik Avropası vahid coğrafi ərazidə yerləşməyə məhkum idi. Onun başlıca cəhdlərindən biri həmin sərhədlərdən uzağa genişlənmək olduğu halda, Səlib yürüşləri şəklindəki Şərqə istiqamət götürən ilk hərbi axtarış səfərləri gözlənilən səmərəni vermədi, onlara bəslənilən ümidləri bütünlüklə doğrultmadı. Avropanın özü hərəkət edib, ətaləti hələ tərk etməsə də, Asiyanın və Afrikanın .şərqindən olan mallar Orta əsrlərdə onun qəsrlərinə yol aça bilmişdi. Müsəlman filosoflarının əsərləri bu dövrdə (XII–XIII əsrlərdə) yaranan ilk universitetlərdə öyrənilirdi. Şərqdə isə ilk universitet 15 min il əvvəl, b.e.ə. III əsrdə Hindistan çarı Aşoka tərəfindən təsis edilmişdi və orada çoxlu əcnəbi ölkələrdən gələn tələbələr də təhsil alırdı. Avropada qədim Roma xeyli inkişaf edib, üç qitəyə ekspansiya həyata keçirsə də, onu universitet kimi təhsil mərkəzləri maraqlandırmamışdı.

Lakin bütün hallarda Şərqin Avropa sivilizasiyaları ilə əlaqəsi məhdud ölçüdə idi. Bu iş yalnız Hindistana, Asiyaya inqilab xarakteri daşıyan səyahətlərlə həyata keçirilə bilərdi. Avropalılar  bəzi ədəbi əsərlərdə qızılla dolu olan səltənətlər barədəki söhbətlərə ciddi maraq göstərməmiş qalmırdılar. Belə torpaqlara sahib olmaq həvəsi avropalıların böyük cəsarət tələb etməsinə cavab verən az sayda nümayəndələrinin şüuruna hakim kəsilməklə, onlarda bu igidlikləri reallaşdırmaq həvəsi yaratmışdı. Əlbəttə, belə səyahətlərə, naməlum torpaqlara səfər etmək heç də adət edilmiş adi bir iş deyildi, möhkəm iradə və çətinliklərdən, qaranlığı ilə seçilən məchulluğa qalib gəlmək fərasəti tələb edirdi. Bu adamlar özlərində tədqiqat ehtirası yaratmalı idilər.

Lakin Osmanlı türklərinin işğalı təkcə ərəb tacirlərinin deyil, qərblilərin də Şərqə oğru gedən virtual yolunu kəsmişdi. Çünki avropalıları Asiyaya getmək üçün dəniz yolu daha çox maraqlandırırdı. Qədim insanlar üçün olduğu kimi, Orta əsr avropalısına da quru yolu əlverişli deyildi. Səhralardan keçən bu çətin yolla ancaq Şərq tacirləri dəvə karvanları ilə uzun məsafələri qət edə bilirdilər. Qitə sakinlərinin məqsədi isə birinci növbədə həmin regionlardan ədviyyat ticarətini ələ keçirmək, həm də digər qiymətli mallara sahib olmaqdan ibarət idi.

Bəzi tarixçilər antik dünya ilə Yeni Tarix arasında körpü rolunu oynayan və azı min il davam edən Orta əsrləri guya nisbətən hər cür tərəqqiyə mane olduğunu, elmin inkişafını ləngitdiyini əsas götürərək, “Qaranlıq dövr” kimi xarakterizə edirlər. Belə mülahizə, əslində, o dövrdə yaşamış insanların fəallığına, axtarışlarına obyektiv olmayan qiymətdən irəli gəlir. Orta əsrlər, sonrakı elmi kəşflərin meydana gəlməsi üçün bünövrə rolunu oynamışdır. Əlbəttə, feodalizm bir istehsal üsulu kimi dövlətin zəifləməsinə şərait yaratmışdı, bu isə onun inkişafa yönəlmiş siyasətinə və fəaliyyətinə ağır zərbə vurmuşdu. Axı Orta əsrlərdə əhalinin əksəriyyətini kəndlilər təşkil edirdi, kənd isə elmi inkişaf etdirmək gücündə

deyildi. Həmin dövrü heç də bütünlüklə ətalət yüzillikləri adlandırmaq da ədalətsizlikdir. Əlbəttə, elmi ixtiralar az meydana gəlmişdi, lakin bu o demək deyildir ki, dövr bütünlüklə onlardan xali olmuşdu. Orta əsrlərə qərəzsiz münasibət bəslənsə, bu dövrdə qitədə böyük şəhərlərin əsası qoyulmasına, yaranmasına göz yummaq mümkün deyildir. Bu şəhərlər uca qotik üslubundakı kilsələrlə, qəsrlərlə və saraylarla bəzədilmişdi. Poeziyada cismani hissiyyatı vəsf edən trubadurlar meydana gəlmişdi. Əlkimyaçılar əbəs yerə kimyəvi maddələri qızıla çevirməyə cəhd etmələri ilə yanaşı, kimya elminin inkişafına böyük köməklik göstərmişdilər. Astroloqlar səma cisimlərinin yerləşməsinin tarixi hadisələrlə və insan taleyi ilə əlaqəsini öyrənmək və izah etmək istəsələr də, Göy cisimlərinin öyrənilməsində elmi astronomiyanın inkişafına əsaslı töhfə vermişlər. Tibb elmində Şərqdə İbn Sina kimi böyük filosof və həkim elmi axtarışları və əsərləri ilə öz dövrünü xeyli qabaqlamışdı. Onun "Həkim elminin qanunu" kitabındakı tövsiyyələr Orta Asiya alimi tərəfindən yaradılsa da, Avropaya yayılmış tibb praktikasında geniş tətbiq olunmuşdu. Əgər Orta əsrlər yalnız cəhalətə, ətalətə xidmət etsəydi, onda yalnız şam timsalında olan universitetləri də yaratmazdı. Bu təhsil ocaqları isə elmin inkişafında sonralar böyük xidmət göstərdilər.

Dənizçilər okeanda və dənizlərdə üzmək üçün məlum olan nəzəri biliklərə əsaslanırdılar. Bizim eranın II əsrdəki qədim yunan astronomu Ptolomeyin əsərindən yerin kürə şəklində, yumru olması barədə mülahizə avropalılara da məlum idi. Onlara belə gəlirdi ki, dünya yalnız üç qitədən – Avropa, Asiya və Afrikadan ibarətdir. Həm də güman edilirdi ki, okeanlar Yer üzünün quru hissəsinə nisbətən kiçik ölçüyə malikdir. Bu isə gələcək dəniz tədqiqatçılarında belə düşüncənin yaranmasına səbəb oldu ki, dar ölçülü Atlantik okeanını üzüb keçməklə Avropadan Asiyaya girmək olar və bu yeni Asiya qitəsinin bol ehtiyatlarına sahib olmaq imkanını yaradacaqdır.

## Kolumbun dahiyanə kəşfi. Yeni qitələrin "Amerika" adlanması

Əslən genuyalı olan Xristofor Kolumb (1446–1506-cı illər) Atlantik okeanı ilə qərbə doğru üzməklə Hindistana gedib çatacağını düşünürdü. O, bu səfər barədəki təklif ilə İspaniya kraliçası İzabellaya müraciət etdikdə, müdrik qadın bu səyahətə maraq göstərdi və onu maliyyələşdirməyi öz üzərinə götürdü. 1492-ci ilin avqustunun ilk günündə Kolumb "Santa Mariya", "Ninya" və "Pinta" adlı üç gəmi ilə Sevilyadan üzüb Aralıq dənizinə, sonra isə Atlantik okeanına çıxdı. Oktyabrın 12-də o, ilk dəfə Bahamalarda quru torpağa ayaq basdı. Sonra o, Kubanın

sahillərini, həmçinin indiki Haiti və Dominikanın sahil torpaqlarını, o, buranı İspaniyola adlandırmışdı, öyrəndi. Kolumb güman edirdi ki, bura Asiyadır və o, Hindistana gəlib çıxmışdır. Axı nəzəri əsaslarda, okeanı üzüb keçməklə Asiyaya ayaq basmaq imkanının mövcud olduğu göstərilirdi. Hətta vətənə qayıtdıqdan sonra da o, kraliça İzabellanı və onun əri, kral Ferdinandı inandırdı ki, məhz Hindistanda olmaqla, orada nəinki qızıl tapmışdır, həm də ən başlıcası, oradakı yerli əhalini xristianlığa çevirmək üçün bir qızıl imkana nail olunmuşdur. Axı ispan kralını Roma papası sarsılmaz katolik kimi qiymətləndirirdivə bu ər-arvad qızğın dindar olmaqları ilə, müsəlmanları və yəhudiləri İspaniyadan qovmaq hərəkatını gücləndirmiş,, ölkəni müsəlmansız bir diyara çevirmək vəzifəsini həmin 1492-ci ildə artıq həll etmişdilər. Həmin ili yəhudilərə də İspaniyanı 4 ay müddətində tərk etməyi elan etmişdilər.

Kolumb səfərinin son məntəqəsinin Hindistan olmasına heç vaxt şübhə etməmiş, 1506-cı ildə ölənə kimi bu fikirdə də qalmışdı. O, ömrü boyu Şimali Amerikaya dörd səfər etmiş, Mərkəzi Amerika torpaqlarına da qədəm basmışdı. Lakin Hindistanda olması, oranı kəşf etməsi barədəki öz inamını heç vaxt dəyişməmişdi.

Özünün yeni torpaqları kəşf etməsini anlamayıb, səhvə yol versə də, Kolumbun yeni qitələri tapması və tədqiq etməsi dünyanın bütövləşməsinə səbəb olduğuna görə olduqca böyük qəhrəmanlıq idi. Kolumb sonralar özünün bu nəhəng kəşfinə görə müqayisə olunmayan bir şöhrət qazandı, onun şərəfinə Cənubi Amerikada olan bir dövlət Kolumbiya adlandı. ABŞ-ın paytaxtı Vaşinqton şəhəri də həmin adı daşıyan bir mahalda yerləşir. Nyu Yorku və digər amerikan şəhərlərini böyük səyyahın heykəlləri bəzəyir.

1992-ci ildə Kolumbun dahiyanə kəşfinin 500 illiyini bayram etməyə böyük hazırlıq gedirdi, bu məsələdə ABŞ və Avropa dövlətləri xüsusi fəallıq göstərirdi. Lakin Mərkəzi və Cənubi Amerika xalqları Kolumbun kəşfi hesabına özlərinin inkişaf etmiş sivilizasiyalarının məhvinə yol açan bu səfərin yubileyinin bayram edilməsinə ciddi etirazlarını bildirdilər. Ona görə də yubiley düşünülən təntənə səviyyəsini almadı və dəbdəbə ilə keçirilmədi. Buna etiraz edənlər, əsasən, haqlı idilər, çünki ispan konkistadorları Meksikadakı və Cənub qitəsindəki Amerika ərazilərini işğal etməklə, həmin xalqların böyük mədəniyyətlərini təkcə məhv etməklə kifayətlənməmiş, əsl terror, bəlkə də, genosid həyata keçirərək, çox sayda insan həyatına qəsd etmişdilər. Şimali Amerikada isə yeni sakinlər oxşar tədbirləri həyata keçirmiş, aborigen xalq olan çox sayda hindu tayfalarının genosidinə girişmişdilər. Avropalıların gətirdikləri xəstəliklər də hər iki qitədəki hinduların həyatının məhvi prosesini intensivləşdirmişdi.

Kolumbdan sonrakı tədqiqatçılar isə yeni kəşf edilən torpaqların Hindistan olmaması qənaətinə gəlməklə, ilk dəfə onu tapmış səyyahın həmin iddiası ilə razılaşmamışdılar. Venetsiyadan olan Con Kabot İngiltərə kralı VII Henrinin göstərişi ilə XVI əsrin əvvəllərində Şimali Amerikanın Massaçusets körfəzində olmuş, lakin Hindistanda olduğu xəbərini verməmişdi. Kolumbdan əvvəl də avropalıların Şimali Amerikada olması barədə mülahizələr mövcuddur. Vikinq Layf  Eriksonun Kolumbdan yarım min il əvvəl, X əsrdə orada olması barədə tədqiqat xarakterli məlumatlar da bütünlüklə inkar edilməmişdir. Buna şübhə etmək də çətindir, çünki vikinqlər həmin dövrün ən məharətli dənizçiləri kimi məşhurlaşmışdılar, hətta onların Afrikanın şimal hissəsində olması barədə ideyalar vardır. Mərakeşdən cənubdakı səhra zonasında, Mavritaniyada yaşayan tuareqlərin, onlar ağ sifətli və göygöz olmaları ilə seçilirlər, əcdadının guya vikinqlər olduğu güman edilir.

Florensiyalı Ameriqo Vespuççi də Kolumbun ilk səyahətlərindən sonra, həm də iki dəfə, 1504-cü ildə də Şimali Amerikada olmuşdu. Onun ölümündən sonra dərc edilən məktublarında, səyyah bu qitəni Kolumbdan fərqli olaraq "Yeni Dünya" adlandırmışdı.

1507-ci ildə alman kartoqrafı M.Valdzemüllerə, onun qitəni belə adlandırması məlum olduğundan, ilk mükəmməl xəritəni tərtib edəndə bu ərazini Ameriqo Vespuççinin şərəfinə "Amerika" adlandırmışdı. Sonralar bu ad təkrar olunmaqla, həyat vəsiqəsi qazanmış və hər iki qitə Amerikalar adını daşımışdır. 1776-cı ildə Şimali Amerikadakı 13 koloniya Böyük Britaniya ağalığından azad olmaq naminə, yaratdıqları yeni dövləti "Amerika Birləşmiş Ştatları" adlandırmışdılar. Kolumb fəxr edə bilərdi ki, onun kəşf etdiyi yeni qitə, onun adını daşıması da, XX əsrdə dünyanın ilk fövqəldövlətinin yerləşdiyi bir məkana çevrilmişdir.

Tarixin ən böyük şəxsiyyətlərindən biri kimi məşhurlaşan Xristofor Kolumb arzuladığı Hindistana gəlib çıxmasa da, öz ağlı, iradəsi və hünəri hesabına Şimali Amerika qitəsini kəşf etmişdi. Yeni sakinlər burada aberigen əhali olan hinduları, onları qırmızıdərillilər adandırırdılar, qırmağa başlamış, XIX əsridə onların təqib edilməsi dalğası daha geniş miqyas almışdı. Cənubi və Mərkəzi Amerikada isə, orada yaşayan xalqların inkişafından xəbər verən sivilizasiyaları ilə yanaşı, yerli əhalinin də konkistadorlar tərəfindən, az qala, məhv edilməsinə şərait yaradılmışdı.

## Hindistanın avropalılar tərəfindən kəşfi

Kolumbun ilk məşhur səfərindən hələ dörd il əvvəl, 1488-ci ildə portuqaliyalı Bartolomeo Diaş Afrikanın qərb sahilləri yaxınlığında üzərkən, onun ən cənub nöqtəsi olan Xoş Ümid Burnuna gəlib çıxmışdı. O, buranı dolanıb keçsə, Hind okeanına çıxa bilərdi və dəniz yolu onu Hindistana aparırdı. Lakin komandasının qiyam qaldırması təhlükəsindən qorxub, o, geri qayıtmalı oldu. Bu mühüm vəzifəni on il sonra, 1498-ci ildə onun həmvətəni Vaslo da Qama həyata keçirdi. O, Xoş Ümid Burnundan hərlənib keçdikdən sonra Hind okeanına girdi. Hindistana gedən dəniz yoluna yaxşı bələd olan ərəb dənizçilərinin köməyi ilə Hindistana, bu ölkənin qərbindəki Kalikut limanına gəlib çıxdı, bura Malabarın yaxınlığında idi. Portəgizlilər həm də strateji təfəkkürə malik idilər, Qoada fort tikdilər. Portəgizlilərin həyat tərzi, yerli əhaliyə möhkəm təsir göstərdiyindən, onun elementləri Hindistanın bu hind diliində “İnək” adını daşıyan ştatında yaşamaqda, qalmaqda davam edir. Digər hindlilərdən fərqli olaraq qoalılar təkcə inək ətini yeməklə kifayətlənməyib, saxladıqları donuz ətini də öz mətbəxlərinə daxil etməkdən çəkinməmişlər.

Portuqaliyalılar Hindistana yol açmaqla kifayətlənməyib, orada özlərinə möhkəm dayaq nöqtəsi yaratdılar. Axı subkontinentin qərbindəki Malabarda, Avropada çox qiymətli ədviyyat hesab edilən bibər yetişdirilirdi. Qitə ölkələrində ədviyyata böyük tələbat olduğundan, fərasətli portəgizlilər bu əmtəənin ticarətini əllərinə keçirdilər. Sonralar onlar darçının və muskus qozunun bol olduğu Malakkaya gəlib çıxdılar və oradakı ərəb tacirlərini sıxışdırıb, ticarəti bütünlüklə öz fəaliyyət sahəsinə çevirdilər. Onlar burada Malakka şəhərini tutduqda, əhalinin bir hissəsini qırıb,  digər hissəsini əsir götürdülər. Portuqaliyalılar çalışırdılar ki, özlərinin ticarət imperiyasını yaratsınlar və həm də buna, əsasən, nail olurdular. Onların tacirləri Avropanı fasiləsiz olaraq ədviyyatla təmin etməyə başladılar. Bu ticarət, ona investisiya qoyanlara da nəhəng gəlir gətirirdi.

Əlbəttə, dəniz səyahətləri və onların köməyi ilə əldə edilən böyük coğrafi kəşflər heç də yalın əllə əldə edilməmişdi, bunun üçün zəruri texniki inkişaf və texnologiya nümunələri tələb olunurdu. Orta əsrlərin sonunda avropalılar artıq bunlara yiyələnmişdilər. Bu dövrdə Avropada sənətkarlıq, manufaktura istehsalı da inkişaf etmişdi. Avropa daxili ticarətə də böyük diqqət verirdi. İngiltərə yun parça istehsalının genişləndirdiyindən bu mala olan və paltar ticarəti üzrə inhisara  malik idi, müəyyən dərəcədə o dövrdə indiki Çinin rolunu oynayırdı.

Yeni torpaqlardakı rəhmsizcəsinə istismar burada da bir qədər fərqli olan öz xüsusiyyətlərinə malik idi. Yun parça istehsalı üçün xammala böyük ehtiyac yarandığından, İngiltərədə qoyunçuluq sürətlə inkişaf edirdi və bu ev heyvanlarına əlavə otlaq sahəsi tapmaq zərurəti yaranırdı. Ona görə də varlı torpaq sahibləri

yoxsul kəndliləri öz yaşayış yerlərindən qovub, o sahəni otlağa çevirirdilər. Bu qəddar proses "çəpərləmə" adlanırdı.

XVI əsrdə yaşamış böyük filosof Tomas Mor obrazlı qaydada "qoyunların insanı yediyini" bildirirdi. Qoyunçuluğun inkişafı ona görə bu dinc heyvanı, az qala, yırtıcı vəhşiyə çevirmişdi. Tomas Mor onu da əlavə edirdi ki, yun istehsalı sahəsi o qədər böyük əhəmiyyət daşıyırdı ki, "qoyunun dırnağının toxunduğu qum dənəsi qızıla çevrilirdi".

Orta əsrlərdə yaşayanlar həm də ticarəti genişləndirdilər, bunun nəticəsində avropalılar hələ yaxşı tanımadıqları xalqlarla bir növ əməkdaşlığa girmişdilər. Bu heç də yenilik sayılmamalı idi. Qədim dövrlərdə də, hətta b.e.ə. X əsrdən başlayaraq finikiyalılar ticarət aparmaq üçün Aralıq dənizi ilə üzdükdə bir sıra xırda koloniyaları, həmçinin b.e.ə. 814-cü ildə Afrikanın şimalındakı Karfagen dövlətini yaratmışdılar. Karfagenlilər də öz müəllimlərindən aldıqları dərsə əməl edərək, inkişaf etmiş dənizçilik dövlətinə çevrilmişdi, onlar b.e.ə. VI əsrdə özləri də İspaniyaya keçib, orada şəhərlər salmışdılar, onlar Ebro çayının sahillərində böyük əraziyə sahib olmuşdular. Karfagen dəniz ticarətindən elə varlanmışdı ki, həmin dövrdə dünya dövləti olmağa can atırdı və bu sahədə Romanı öz rəqibi kimi görürdü. B.e.ə. III-II əsrlərdə bu iki dövlət arasında aparılan Puniya müharibələri qüvvətlənmiş Romanın qələbələri ilə nəticələnmişdi. B.e.ə. 146-cı ildə isə romalılar tutduqları Karfagen şəhərini məhv etmişdilər. Bu, Romaya o dövrdə vahid fövqəldövlət olmağa imkan vermişdi, artıq onunla rəqabət aparan heç bir dövlət yox idi.

Əvvəllər isə hələ Roma güclü olmayanda, yunanlar Apennin yarımadasının cənubunda və Qara dənizin şimalında şəhərlər salmışdılar, indiki Neapolun da əsasını onlar qoymuşdular. Krımdakı Feodosiya, Kerç qədim yunanlardan qalmış irsi yadigarlardır.

Avropalılar qitə xalqlarının qədim tarixindən çox şey öyrənmişdilər və ona görə də dənizlərlə səyahətə çıxmaqdan qorxmurdular. Çünki quru yollar şəbəkəsi mövcud olmadığından, adamlar dəniz sularında və çaylarda üzməyə üstünlük verirdilər. İlk dəfə qədim romalılar b.e.ə. III əsrdə Appi yolunu, sonra isə şimal sərhədinə gedən quru yolunu çəkdilər. Avropanın işğal edəndə imperiya yol şəbəkəsinin inkişafına da diqqət verməyə başladı. Müasir Avropanın yol şəbəkəsi vaxtilə qədim romalıların tikdikləri yollara əsaslanır.

Lakin okeanda üzmək dənizdə üzməkdən fərqli idi, orada dalğalar tufan nəticəsində daha hündürə qalxır, gəmilər üçün məhv olmaq təhlükəsi yaradırdı. Ona görə də okeandakı dənizçilik daha möhkəm gəmilərə və yaxşı naviqasiya

vasitələrinə malik olmağı tələb edirdi. Əgər əvvəllər dənizçilər üzmək üçün istiqaməti müəyyən etməkdən ötəri Qütb ulduzunu müşahidə edirdilərsə, Çində icad olunmuş kompas bu sahədə onların köməyinə gəldi.

Okeanda üzmək üçün külək növlərini dəqiq bilmək də tələb olunurdu. Çünki küləyin sürəti böyük olduqda təhlükə yaratdığı kimi, onun olmaması yelkənin köməyi ilə hərəkət edən gəmilər üçün fəlakət idi. Yunan mifologiyasına görə, Mikena çarı Aqamemnon yunan ittifaqının Troyanı zəbt etmək üçün dənizdə üzməyə başlayanda, küləyin olmamasına görə, allahlara qızı İfigeniyanı öldürməklə qurban vermiş və onların mərhəməti ilə səfərlərinin uğuruna nail olmuşdu. Afrikanın Qvineya sahillərinə yaxın zonalarda küləyin olmaması, ştil bir neçə gün davam etdikdə, bu, qızmar günəşdən və susuzluqdan komanda heyətinin və nəticə etibarilə gəminin məhvi ilə nəticələnirdi. Ona görə də dənizçilər bu zonada üzməkdən qaçmağa çalışırdılar. Portuqaliya gəmi kapitanı Pedro Kabral bu təhlükəni nəzərə alaraq, oradan uzaqlaşdıqdan sonra, dəniz cərəyanına və küləyin qərbə tərəf əsməsinə düşdüyündən, 1500-cü ildə Cənubi Amerikadakı Braziliyanın şərq sahilinə gəlib çıxmışdı. O, bu torpağa qədəm basdıqdan sonra, onun Portuqaliyaya məxsus olduğunu elan etmişdi. Beləliklə, Kabral təsadüf nəticəsində Cənubi Amerika qitəsini kəşf edənə çevrilmişdi. Şimali Amerikanı kəşf edən Kolumbdan fərqli olaraq, onun elə bir məqsədi də olmamışdı.

Tordesiliya müqaviləsi adlanan, Roma papasının edikti Atlantik okeanının qərbində kəşf olunan yeni torpaqlar İspaniyaya, şərqindəkilər isə Portuqaliyaya məxsus olacağını bildirsə də, Cənubi Amerikadakı Braziliya Portuqaliyaya məxsus olaraq, qaldı. Yalnız 1822-ci ildə Braziliya Portuqaliyanın müstəmləkəçiliyindən azad olub, müstəqil dövlətə çevrildi. İndi də Braziliyanın dövlət dili portəgizlərin dilidir və yerli əhali də bu dildə danışır.

Okeanda üzən gəmilər uzaq məsafələri qət etməyə və ağır yük götürməyə qadir olmalı idilər. Həm də onların göyərtəsində ağır toplar yerləşdirilməli idi, çünki yerli əhali ilə vuruşmaq da lazım gəlirdi. Heç bir xalq öz ərazisini yadelliyə hədiyyə vermək istəmirdi.

Portəgizlilər və ispanlar təkcə beynəlxalq ticarətlə kifayətlənməyib, tutduqları, daha doğrusu, işğal etdikləri torpaqları, adətən, öz müstəmləkələrinə çevirirdilər və bu, yerli xalqlar üçün qara günlərin başlanmasından xəbər verirdi.

## Böyük coğrafi kəşflər imperializmə geniş qapılar açdı

Pireney yarımadasının bu iki dövlətinin işğal siyasətindən, başqa metropoliyalar da geniş istifadə edirdi. Böyük kəşflər yeni imperiyaların yaranmasına əlverişli şərait yaratdı, çünki onların meydana gəlməsi üçün böyük müharibələr aparmağa ehtiyac qalmırdı. Bir qrup konkistador özlərinin Atsteklərə və İnkalara məlum olmayan odlu silahları və atları ilə yerli əhaliyə vahimə xofu təlqin edirdi. Onlar çox asanlıqla böyük xalqları əsarət altına alırdılar.

İspan işğalına qədər Meksikada yaşayan mayyalar (b.e.III–IX əsrləri) və atsteklər (XIII–XVI əsrlər) bu ərazidə inkişaf etmiş sivilizasiya yaratmışdılar. Mayyalar Yunatan yarımadasında və ətraf ərazilərdə çoxlu şəhərlər salmışdılar. Onlarda çox sayda məbədlər, saraylar, piramidalar mövcud idi. Onlar əkinçiliklə məşğul olan bir millət idi və bitkiçilikdə çox böyük nailiyyətlər qazanmışdılar. Əkinçilikdəki bu həsəd aparılacaq uğur həm də onunla əlaqədar idi ki, Amerikalarda ev və qoşqu heyvanları yox idi, bu xalqlara yalnız ev heyvanı kimi hinduşka, əti yeyilmək üçün it saxlamaq və bal arısı məlum idi. Ona görə də xalqın bütün diqqəti və qayğısı bitkiçiliyə həsr olunmuşdu. Bu sahədə mayyalar böyük zirvələr fəth etmişdilər. Üstündə cəmi iki dəni və ot bitkisi olan qarğıdalı, üzərində ağıllı seleksiya apararaq, onu sonralar qıçasının üstündə 650–800 dənin olmasına çatan qiymətli ərzaq bitkisinə çevrilmişdilər. Buğdanın sünbülündə isə dənin sayı yalnız onluq rəqəmi ilə ölçülürdü. Ona görə də qarğıdalı hər hektardan buğdaya nisbətən iki dəfəyə qədər artıq məhsul verirdi. Qarğıdalı Avropada da becərildikdən sonra əhalinin taxılla təmin edilməsində əvvəlki ağır kasadlığın yox olmasına köməklik göstərmişdi. Qarğıdalı yalnız bol günəş olan cənubda, yumşaq münbit torpaqlarda becərildikdə yaxşı məhsul verir. Avropanın şimalında və bərk, qeyri-münbit torpaqlarında qarğıdalı yetişdirilmir. SSRİ rəhbəri N.S.Xruşşov 1960-cı illərin əvvəllərində Rusiyanın şimalının və mərkəzinin sərt iqlimində qarğıdalı becərməyə regionları məcbur edirdi. Əsl volyuntarizm nümunəsi olan bu aqrar siyasət biabırçılıqla nəticələndi, məhsul vermədi.

SSRİ rəhbərinin əkinçilik texnologiyasına, aqrotexnika tələblərinə məhəl qoymaması Qazaxıstanın xam torpaqlarından istifadə edilməsində də xoşagəlməz nəticələr verirdi. Hər il eyni sahədə yazlıq buğda əkinləri çətin iqlim şəraitində, yalnız payızda məhsul verdiyindən, tam alaq basmış zəmilərə kombayn da girə bilmirdi, həm də erkən yağan qar da biçin aparmağı qeyri-mümkün edirdi. Əkin sahəsinin bir hissəsinin dincə qoyulması, herik altında saxlanması hələ qədim misirlilərə məlum idi və onlar torpaqdan istifadənin bu qaydasına əməl etməklə zəmilərdən bol məhsul götürürdülər. Çünki herik altında saxlanan torpaqlarda dincə qoyulduğu dövrdə alaq otlarının toxumu günəş enerjisi hesabına məhv edilirdi və sonrakı ili istifadə dövriyyəsinə daxil edilmiş sahələrdə alaq otlarının meydana gəlməsi xeyli azalırdı. Misir böyük buğda ixracçısı idi, Romanın taxıl

anbarı hesab olunurdu. Burada əkinçilik , qəribə görünsə də, elmi qaydalara əsaslanırdı. SSRİ-də isə ağılsız istifadə hesabına, suvarma tətbiq edilməklə böyük sərvət olan qara torpaqlar öz münbitliyini itirirdi. Nəhəng əraziyə, qara torpaq kimi olduqca münbit torpaqlara malik olan Sovet İttifaqında aclıq təzahürləri də meydana gəlmişdi, xaricdən taxıl almaqla əhalinin çörəyə olan tələbatı ödənilirdi.

Qədim Romanın məşhur siyasi xadimi Böyük Katon (b.e.ə. II əsrin birinci yarısı) növbəli əkin dövriyyəsi barədə qiymətli tövsiyyələr vermişdi. Digər aqrar məsələlər tədqiqatçısı Kolumella torpağı bir ana kimi min illər ərzində bəhrə verməsinə görə, onun , reproduktiv fəaliyyəti müəyyən zaman çərçivəsində məhdudlaşan bütün canlı analardan fərqləndiyini qeyd edirdi. Torpaq min ildən sonra da azacıq meliorasiya işi görüldükdən sonra məhsul verməyə başlayır. Bunu Çinin və Misirin beş min illik əkinçilik tarixi real olaraq təsdiq edir.

Təəssüf ki, SSRİ-də rəhbərliyin səhvi üzündən kənd təsərrüfatı istehsalı düşdüyü ağır vəziyyətdən çıxa bilmirdi və vaxtilə Rusiya xarici ölkələrə taxıl satdığı halda, 1960-cı illərdən başlayaraq, Kanadadan, Amerikadan taxıl almaqla, əhalinin çörəklə əlaqədar problemi həll edilirdi. 1930-cu illərdə isə Ukraynada və Povoljedə aclıq tüğyan etmişdi.

İmperiyalara gəldikdə, onların tarixə məlum olan qədim dövrlərdəki növlərini, adətən, müharibə adlanan ana doğurdu. İqtisadi və hərbi cəhətdən qüdrətli olan dövlətlər qonşuluqdakı ölkələri, bəzən hətta uzaq məsafədəki torpaqları işğal edib, yerli əhalini öz ağalığına tabe edirdi. Burada mülki əhalinin qırğını hallarına  yol verilmirdi. Çünki onlar işçi qüvvəsi kimi imperialist dövlət üçün də mühüm əhəmiyyət kəsb edirdi. Çingiz xanın Xarəzmi tutduqdan sonra şəhər sakinlərin ot biçən kimi qırmasından başqa, buna bənzər digər bir nümunə diqqəti cəlb etmir. Osmanlı və Avstriya imperiyaları da mülki əhalini cəzalandırmırdı, onlardan can vergisi almaqla kifayətlənirdi. Hətta yerli əhali nümayəndələri idarə etmə fəaliyyətinə cəlb edilirdi. Bolqarıstanda yerli admlar kəndxuda təyin edildiyindən, onlar türk dilinə uyğun olaraq “muxtar” adlanırdı, indi də ölkədə Muxtarov familiyalı adamlara rast gəlmək mümkündür. Vaxtilə Makedoniyalı Aleksandr da Misirdə məhz belə siyasət aparırdı, bəzi maliyyə işlərini misirlilərə tapşırırdı.

Yeni Tarixə qədəm qoyan XVI əsrdə meydana gələn imperiyalar isə Amerika qitələri torpaqlarında geniş ölçüdə müharibə aparmadan, bu ərazilərə yiyələnmişdi. Kiçik hərbi dəstə böyük əraziləri işğal etməyə qadir olmuşdu. Bunun nümunələrini biz ispan konkistadorlarının Mərkəzi Amerikadakı Meksikada Atsteklərin, Cənubi Amerikada isə İnkaların güclü imperiyalarını məhv etmələrində görürük. Onlar geniş miqyasda silah işlətmədən, axı işğalçıların hərbi

qüvvəsi də olduqca kiçik idi, geniş ərazilərə yiyələnə bilmişdilər. 1517-cu ildə indiki Meksika torpaqlarına ilk dəfə qədəm basan Ernen Kortesin hərbi qrupu 500 nəfər əsgərdən və 16 atdan ibarət idi. Atstek hökmdarı Montesuma 1519-cu ildə onları qəbul edərkən, vaxtilə ölkəni tərk etmiş allahın nümayəndələri hesab etməklə, qonaqpərvərliklə qarşıladı, gələcək qəddar işğalçılara qızıl hədiyyələri verdi. Paytaxt Tenoçtitlanda qalacağı müddətdə yaşamaları üçün onlara saray da verdi. Lakin Kortes bu münasibətə əsl nankorluq göstərib, Montesumanı əsir götürdü və öldürdü. Bir il sonra paytaxt sakinləri qiyam qaldırıb, ispanları şəhərdən qovdu. Kertes daha böyük qüvvə ilə şəhərə hücum etməyə hazırlaşırdı. Kertesə atsteklərin ağalığında cana doyan ətraf dövlətlərin əhalisi də kömək göstərmək istəyirdi. Onlardan ən böyüyü olan Tlakskala Kortesə 50 min nəfər əsgər verdi. İspanlar yerli müttəfiqləri ilə paytaxta hücum edib, onu tutdular.

Bu vaxt Tenoçtitlanda kütləvi ölümə səbəb olsan su çiçəyi xəstəliyi yayılmağa başladı. Şəhər sakinləri artıq ispanlara müqavimət göstərə bilməyəcəkdi.

Bu dövrdə şəhərin küçələrində ölü cəsədlərinin çoxluğundan, sərbəst yerimək mümkün deyildi. Ölü o qədər çox idi ki, bu, hətta ispanların da təəccübünə səbəb olmuşdu. Ölü bədənlərdən yayılmış üfunət şəhəri bürümüşdü, hətta bu səbəbdən Kortes özü də xəstələnmişdi.

Paytaxtdakı bu dəhşətli vəziyyəti müşahidə edən bir ispan yazmışdı ki, “Biz cəsədlərin üstündən və ölü hinduların başlarını tapdıqlamaqla addımlamamış gəzə bilmirdik. Torpağın üstü cəsədlərlə dolu idi. Hətta Kortes yayılan üfunətə dözməyib, burnunu örtmüşdü”. Su çiçəyi xəstəliyi paytaxt sakinlərinin qırğınına səbəb olmuşdu, həyatı viranə qoymuşdu. Lakin xəstəliyin törətdikləri, haqsız olaraq Kortesin böyük qələbəsinin adına yazılmışdı.

Üstəlik, hindulara tanış olmadığından, ona qarşı bu adamlarda immunitet yox idi və həmin xəstəliyi də buraya məhz  ispanlar gətirmişdilər.

İspanlar sonra ölkədə yeni dağıntı dalğası yaratdılar. Piramidaların dağıdılmasına cəhd edilirdi, məbədlər və saraylar yerlə yeksan edilirdi. Atsteklərin böyük əziyyət hesabına tikdikləri, qısa müddət ərzində məhv edilirdi. Uçurulmuş sarayların daşları işğalçıların yeni hökumət binalarının və xristian kilsələrinin tikintisinə sərf olunurdu. Meksika ərazisinin böyük atstek imperiyası artıq mövcud deyildi. 1531-ci illə 1550-ci illər arasında ispanlar Şimali Meksikada nəzarəti bütünlüklə ələ keçirdilər.

Digər ispan konkistadoru Fransisko Pisarro və onun ardıcılları 1531-ci ildə Sakit okean sahilindən Peruya gəlib çatanda, İnka böyük imperiyanı idarə edirdi.

Bu imperiyanı onlar Tayaktinsuyu adlandırırdılar və onun ərazisi Ekvadorun şimal sərhədindən Mərkəzi Çiliyə qədər uzanırdı. Köhnə hesablamalara görə, imperiyanın əhalisi 12 milyon nəfər idi və bu əhali azı 20 dildə danışırdı.

Bir əsr əvvəl isə İnkalar Kusko vadisindəki kiçik bir əraziyə nəzarət etmişdilər. Onlar yüzdən artıq etnik qrupu məğlub edib, onları özlərinə tabe etmişdilər. Bir cəhət də ondan ibarət idi ki, Andın dağlıq ərazisi çox müxtəlifliyi ilə ekoloji mozaikaya bənzəyirdi. Əlverişli sahələrdə bitkiçilik məhsullarından ibarət qida maddələri kimi istehlak edilmək üçün nemətlər istehsal edilirdi. Qarğıdalı şəklindəki taxıl dəniz səviyyəsindən 3 min metr hündürlükdəki ərazilərdə nadir hallarda əkilirdi.

Peru dağlıq ərazi idi, orada becərmə mövsümü çox qısa olurdu. Əsas qida maddələrindən biri olan kartof isə nadir hallarda aşağı zonalarda becərilirdi. Ölkə üçün ideal vəziyyət o sayılırdı ki, Andda qida ehtiyatlarının bütün növlərinə malik olunsun.

İnkalar və onların dövlətləri özlərinin tarixi boyu, əhalini ərzaqla təmin etmək qaydasında fəallıq göstərirdilər.

And xalqları, adətən, öz əcdadlarını mifik şəxsiyyətlərdə görürdülər, guya onlar yerin deşiyindən çıxmışlar. Həm də onlar bu hadisəyə həsr olunmuş dini ibadətlər icra edirdilər. Onların imperiyası getdikcə genişlənirdi. Axırıncı imperatorlardan biri olan Paçakutu Kuskonu yenidən tikməyə başlamışdı.

1532-ci ildə ispanlar Perunun şimal ərazilərinə qədəm basdılar. Onlar imperator Atahualpa ilə görüşmək istəyirdilər ki, onu oğurlasınlar. Pisarro və onun adamları İnkaya loyal olan liderləri devirir və sonra edam edirdilər. Həm də onun özünə xəbər göndərdilər ki, onu qanuni hökmdar kimi tanıyırlar. İspanlar onlardan ərzaq almaq üçün özlərinin ərzaq ehtiyatının çox uzaqda olduğundan şikayətlənirdilər. Atahualpa da ispanların ona müttəfiq olmasını istəyirdi və 1532-ci ildə oğurlandıqdan sonra da bu fikrini dəyişməmişdi. İspanlar onu dustaq saxladıqda, o, öz məsləhətçiləri ilə görüşdə, onun azad olması üçün tələb olunan girov məbləğini ödəmələrinə göstəriş verirdi. Lakin Pisarro girov məbləğindəki qızılı alsa da, onu azad etmədi. İspanlar həm də hakimiyyətə iddialı olanların hamısını edam edirdilər. Sonrakı iki il ərzində isə Perunun ispanlar tərəfindən real şəkildəki işğalı baş verdi.

Pisarro qızıl ehtiyatlarını ələ keçirə bildi. O, şərt qoymuşdu ki, bir otaq dolusu həcmində perulular ona qızıl versinlər. Qızıl bəzək əşyaları, əsl sənət əsrləri əridilib, külçə halına, lövhə şəklinə salınırdı. Girov pulu adı altında belə nəhəng

ölçüdə qızıl toplansa da, Pisarro İnka Atahualpanı nəinki azad etmədi, hətta gizlicə onu öldürtdü.

Kusko şəhəri dəniz səviyyəsindən 3 min metr hündürlükdə yerləşirdi, ispan işğalına qədər İnka imperiyasının paytaxtı kimi inkişaf edirdi. Fransisko Pisarro bura, dəqiq deyilsə, 1530-cu ilin dekabrında gəlmişdi. O, 180 nəfərlik qrupla Cənubi Amerikanın Sakit okean sahilinə ayaq basmışdı. Kortes kimi o da polad silahlara, barıta və atlara malik idi, onların heç biri onun düşmənləri olan yerli adamları məlum deyildi. Pisarronun xoşbəxtliyi onda idi ki, Meksikada, Atstek paytaxtında olduğu kimi burada da yerli əhali arasında su çiçəyi xəstəliyi yayılmışdı. İmperator Atahualpanın qoşunu ispanlarla vuruşmaq gücündə deyildi, əsgərlər silah kimi yalnız daş qılınca, nizəyə malik idi.

Pisarro üçün taleyin xoş əlamətlərindən biri, imperatorun qurban getməsi idi. İmperatorun özünün öldürülməsi baş versə də, onun taxt-taca iddia edən iki oğlu var idi. Pisarro Atahualpanın qüvvələrini ram etdikdən əvvəl, onun qardaşlarını məğlub etmişdi. İnkanın əsgərləri ispanların atlarına müqavimət göstərə bilmirdi. Onlar üçün at, Hannibalın İtaliya ərazisinə gətirdiyi fillərin qorxulu təsirini bağışlayırdı. Axı həm də ispanlar tüfəngə və topa malik idilər.

Atahualpanı edam etdikdən sonra Pisarro və onun əsgərləri İnkanın müttəfiqlərini öz tərəflərinə çəkdilər və Kuskoya hücum etdilər. Onlar İnkanın paytaxtını 1535-ci ildə işğal etdilər. Pisarro Limada ölkənin yeni paytaxtını qurdu və bununla da İnka artıq İspaniya imperiyasının müstəmləkəsinə çevrilmişdi. Pisarronun paytaxta çevirdiyi Lima şəhəri indiyədək bu mövqeyini qoruyub saxlayır.

Yeni Dünyada hindulara qarşı ispan siyasəti qaydasızlığın özünə yol açmasının, iyrənc paternemizmin və qəddarlıqla istismarın qarışığından ibarət idi. İspan hakimiyyəti buradan təzminat yığmaq üçün encomtuda adlanan iqtisadi və sosial sistem yaratmışdı və hindulardan işçi qüvvəsi kimi istifadə edirdi. Bu siyasət həm də hinduları himayə etməyi nəzərdə tuturdu, onlara maaş verirdi və adamların ruhi ehtiyaclarına nəzarət edirdi. İspaniyadan bu ölkə 3 min km məsafədə uzaq olmaqla, buradakı ispan sakinləri əsasən öz hökumətinin göstərişlərinə məhəl qoymurdular və hindulara qarşı qəddarlıq göstərirdilər. Hindular plantatorlar üçün işləyirdilər, həm də çox gəlirli qızıl və gümüş mədənlərində çalışırdılar.

Məcburi əmək, pis qidalanma və xüsusən xəstəlik hinduların vaxtından əvvəl ölməsi ilə xoşagəlməz itki siyahısını yaradırdı. Avropalıların xəstəliklərinə qarşı heç bir müqavimət gücünə malik olmamaları ucbatından Amerika hinduları təkcə su çiçəyindən deyil, qızılcadan və tif xəstəliyindən də əzab çəkir, həyatla

vidalaşmalı olurdular. Hindulara tanış olmayan bu xəstəliklər, tufan zəif ağacları qırıb yerə sərdiyi kimi onları məhv edirdi. Yerli sakinlərin 30 faizdən 40 faizə qədəri ölmüşdü. Təkcə İspaniyolada (indiki Haiti və Dominian respublikalarında) 1493-cü ildə Kolumb bura gələndə, 100 minə qədər adam ölmüşdü. 1570-ci ilə yalnız 300 hindu sağ qalmışdı. Mərkəzi Meksikada 1519-cu ildə əhalinin sayı təqribən 11 milyon nəfər idi. 1540-cı ildə bu say 6,5 milyona enmişdi. XVI əsrin sonunda isə yerli əhalinin sayı 2,5 milyon nəfər idi və ya beş dəfə azalmışdı.

Yerli əhalinin immuniteti olmadığından idxal edilən xəstəliklərə müqavimət göstərə bilməməsinə görə onların ölümün sayını artırmaqla, az qala qırğın effekti yaradırdı. Tarixdə buna bənzər hadisələr olmuşdu. Neondartallılar homo sapiense-in xəstəliklərinə sirayətlindikdə kütləvi şəkildə ölürdülər, bu onların bütünlüklə sıradan çıxmasına səbəb oldu.

Yeni Dünyada ispanların yerli inzibati sisteminin inkişafı vitse-krala tabeliyə əsaslanırdı. Hər bir vitse-kral mülki və hərbi qulluqçuların, kral taxt-tacına tabe olan bir başçısı kimi xidmət edirdi. Roma papasının razılığı ilə ispan katolik monarxlarına Yeni Dünyada olduqca geniş hüquqlar verilmişdi. Onlar yepiskopları və ruhani xadimləri təyin edə bilərdilər.

Hindular kütləvi qaydada xristianlığa keçirilirdi. 1570-ci ildə ispan inkvizisiyası ilk dəfə Peruda, sonrakı il isə Meksikada quruldu və geniş fəaliyyətə başladı.

## Qul ticarəti

Afrikada isə Avropa dövlətləri geniş qul ticarətinə başladılar. Bunu ilk dəfə Portuqaliya dənizçiləri həyata keçirmişdilər. Onlara tezliklə agah oldu ki, bu əməliyyatdan böyük gəlir götürmək olar. Lakin bu ticarət heç də yeni və naməlum olan bir iş deyildi. Qədim dövrlərdə də həyata keçirilmişdi. XV əsrdə isə bu fəaliyyət növü daha ciddi səviyyəyə qalxmışdı. İlkin dövrlərdə afrikalılar üçün qul bazarı Orta Şərqdə idi, bu qullar, əsasən, ev nökərləri kimi istifadə olunurdular. Avropa ölkələrinin çoxunda qul sahibləri təbəqəsi mövcud idi, onlarda Afrikadan olan qullar və ya Qara dənizin Şimal sahillərindən gətirilənlər ev təsərrüfatına kömək göstərməkdə və kənd təsərrüfatı üçün zəhmət adamları kimi faydalı idilər.

Avropalıların şəkərlə tanışlığı Səlib yürüşləri vaxtı baş vermişdi. Yürüşün iştirakçılarına şəkər qamışı Orta Şərqdən tanış idi. XVI əsrin sonunda portəgizlilər Afrikanın özündə, onun işçi qüvvəsindən istifadə etməklə, şəkər qamışı

plantasiyaları yaratmışdılar. XVII əsr ərzində şəkər qamışı plantasiyaları Braziliyanın şərq sahili ərazilərində və Karib dənizinin bəzi adalarında geniş yayıldı. Şəkərə olan tələbat da böyümüşdü. Avropalılar ona çox öyrənmişdilər. Şəkər, az qala, narkotik maddə təsirinə yiyələnmişdi. Ona görə də bir il ərzində şəkərin qiyməti xeyli yüksəlmişdi. Bunu nəzərə alaraq istehsalı artırmaq lazım idi. Plantatorların bu məqsədi həyata keçirmək üçün daha çox işçi qüvvəsinə ehtiyacları yaranırdı. Çünki Yeni Dünyada Amerika hindularının kiçik saydakı əhalisi bunu təmin etmək imkanına malik deyildi. Axı bu əhalinin xeyli hissəsi Köhnə Dünyadan idxal edilmiş xəstəliklərdən ölmüşdü. Digər tərəfdən, hindular plantasiyadakı ağır zəhmətə dözmürdülər, onlar tez yorulurdular və onların faydalı iş əmsalı olduqca aşağı idi.

O vaxtlar həm də qızmar iqlimə və ağır zəhmətə görə Qərbi Afrika şəkər qamışını becərmək üçün əlverişli yer sayıla bilməzdi. Ona görə də Afrika qulları gəmilərə yükləyib, Braziliyaya və Karib dənizi adamlarına göndərilməyə başlandı ki, onlar oradakı şəkər qamışı plantasiyalarında işləsinlər.

Avropalılar qidalarında şəkərə çox öyrəndiklərindən, onun istehsalı və ticarəti xeyli böyümüşdü. XVI əsrin başlanğıcındakı kiçik həcmdəki istehlak əsrin sonunda 22 dəfə artmışdı. Bu mənada həmin dövrdəki şəkərə olan aludəçiliyi, indi bəzi qadağan olunmuş maddələrə olan münasibət ilə müqayisə etmək olar.

Qul ticarəti inkişaf etməyə başladı. Sonrakı iki əsr ərzində qul ticarəti daha dramatik xarakter daşıdı, Avropa ilə əlaqədar olan Üçlük ticarətinin bir hissəsinə çevrildi. Avropa tacirlərinin gəmiləri, xüsusən İngiltərəyə, Fransaya, İspaniyaya, Portuqaliyaya və Hollandiya respublikasına məxsus olanlar Avropa manufaktura mallarını, tüfəngi, imbiri və tikiş paltarını Afrikaya daşıyırdı, oradan isə qul yükü ilə qayıdırdı. Mallar qullara dəyişdirilirdi. Qullar gəmilərlə Amerikalara daşınıb, orada satılırdı. Avropa tacirləri isə Amerikalardan tütün, patka, şəkər, rom və xam pambıq alırdılar və onları geri, Avropaya daşıyırdılar ki, qitənin bazarlarında satsınlar.

Ümumilikdə XVII əsrdə bir milyondan artıq adam Afrika ölkələrindən çıxarılmışdı. XVIII əsrdə bu rəqəm 6 milyona çatmışdı. XIX əsrin birinci yarısında Britaniya və digər Avropa dövlətlərində qul ticarətinə son qoymağa cəhd edilsə də, bu qara qitədən 2 milyona qədər qul xaricə ixrac edilmişdi. 10 milyon nəfər afrikalı qul XVI və XIX əsrlər arasında Amerikalara daşınmışdı.

Qul sahiblərinin çoxu, xüsusən Vest İndiada olanlar inanmışdılar ki, qulu almaq, onların uşaqlarını böyütməkdən az xərc tələb edir. Qədim Romada isə

bunun əksinə hərəkət edilirdi, qul satın almaq əvəzinə qul uşaqların böyüdülməsinə sərf edilən xərc daha faydalı hesab edilirdi.

Qul ticarətinin səmərəsi olduqca böyük idi. Lakin gəlirin məbləği zonadan zonaya fərqli idi. Əlbəttə, həm də qulların və onların ailələrinin həyatını itirməsi də faciəvi effekt verirdi.

Afrikanın bədbəxtlikləri təkcə qul ticarəti ilə bitmirdi. Qitədə yaşayan xalqların mədəniyyəti də qəsdən məhv edilirdi. Onlara məxsus olan sənət əsərləri ələ keçirilir, qəsb edilirdi. Bu işdə metropoliyanın ərazidə xidmət göstərən məmurları, hərbiçilər, ağ dərili plantatorlar, missionerlər fəal iştirak edirdilər. Onlar fil sümüyündən və qırmızı ağacdan yonulmuş kiçik heykəl fiqurlarını, rəsm əsərlərini, tarixi artefaktları oğurlayıb, Avropaya göndərirdilər. Fəlakət hadisələrindən də  belə qarətlər üçün istifadə edirdilər. Bir dəfə Nigeriyada tayfa başçısının evi yanırdı.  Guya onu söndürməyə gələn hərbiçilər evdəki qiymətli sənət əsərlərinin hamısını götürdülər. Çox şey zabitə çatdı, əsgərlər də paylarına düşənə sahib oldular.

1984- cü ildə Konqonun paytaxtı Brazzavildə olarkən, Poto-Poto rəssamlıq muzeyinə getdik, burada ancaq müstəqillik dövründə yaradılan əsərlər nümayiş etdirilidi, müstəmləkə vaxtı yaradılanları isə hakim fransız məmurları ölkədən çıxarmışdılar. Əslində yazıq konqoluların tarixi oğurlanmışdı.

Afrika xalqlarının sənət əsırlərinin əksəriyyəti Avropanın muzeylərində eksponat bolluğu yaradır. Qitənin müstəqilliyə nail olmuş dövlətləri həmin əsərlərin və tarixi artefaktların geri qaytarılmasını tələb edirlər. Lakin onların haqlı iddiaları eşidilməz olaraq qalır, Avropa ölkəkələri bu ədalətli işə başlamaq istəmirlər. Çünki başa düşürlər ki, bi domino effekti yarada bilər.  Başqa ölkələrdən qarət edilmiş qiymətli sənət əsərlərini də geri qaytarmaq insidenti yarana bilər. Axı Assuriya portret heykəlləri və Parfenondan götürülmüş frizlər Londonun Britaniya muzeyində, Babilin məşhur İştar qapısı isə Berlinin Perqam muzeyində saxlanılır.

İkinci Dünya müharibəsi illərində natsistlər Fransadan və digər işğal etdikləri ölkələrdən qiymətli sənət əsərlərini, dahi rəssamların yaratdığı tabloları qarət etmişdilər və onlar Reyxin rəhbər xadimlərinin şəxsi kolleksiyalarına daxil olmuşdu. Almaniya məğlub olduqdan sonra qarətçilərin də ələ keçirdikləri yenidən qarət olundu. Sovet işğal komendantlığının oradan gətirdiyi çox sayda qiymətli rəsm əsərləri Moskvanın Puşkin adına muzeyində saxlanılmaqda davam edir.

Hər bir xəlq öz taixindən xəbər verən əsərlərə, artefaktlara sahib olmalıdır. Bu, yalnız ədalətin bərqərar olmasının bariz nümunəsi olardı. Təəssüf ki, ədalətin

də zəfəri baş verməditindən, yaxındakı meyvələrə əli catmadığından Tantalın düçar olduğu əzabları yada salır.

## Qərbin Cənubi Asiya ilə ticarəti

Portəgizlilərin Cənubi-Şərqi Asiyadakı ticarətdə dominantlıq etmək cəhdləri həmişə o qədər də uğurlu olmurdu. Potuqaliya imperiyası elə də böyük deyildi. Magellan dünya ətrafına səyahəti vaxtı Filippin adalarında sahilə çıxandan sonra inanırdı ki, İspaniya Filippinə nəzarəti ələ keçirə biləcəkdir. Magellanın burada öldürülməsinə baxmayaraq, İspaniya bu vəzifəni həyata keçirməyi bacardı və bu ölkə İspaniyanın Sakit okeandakı ticarətinin başlıca bazasına çevrildi. İspan gəmiləri ipəyi və dəbdəbəyə xidmət edən digər malları Meksikaya daşıyırdılar ki, oradan Meksika mədənlərində istehsal edilən gümüş yükü ilə qayıtsınlar.

Portəgiz imperiyası üçün Asiyanın cənub sahillərində ilk təhlükə, buraya hollandların və ingilislərin gəlməsi ilə əlaqədar idi. Onlar portəgizlilərə nisbətən daha yaxşı maliyyələşmişdilər. Hollandlar Malakkadakı portəgiz fortunu tutdular və sonra onları tədricən ədviyyat ticarətindən uzaqlaşdırdılar.

## Amerikaların avropalılar tərəfindən məskunlaşması

XVI əsrdə İspaniya və Portuqaliya Amerikalarda iri müstəqil imperiyalar qurdular. Portuqaliya Braziliyadakı müstəmləkəsindən yaxşı gəlir götürürdü. İspanlar isə Cənubi Amerikanın materik torpaqlarında nəhəng imperiya yaratdılar. Lakin İspaniyanın kommersiya qüdrəti sürətlə tənəzzül etməyə başladı. Buna səbəb gümüş mədənlərində istehsalın azalması və İspaniya monarxiyasında yoxsulluğun meydana gəlməsi idi. Portəgizlilərin və ispanların amerikan imperiyaları hollandların, ingilislərin və fransızların çağırışları ilə üzləşməli oldu. Axırıncı xalqlar Yeni Dünyada özlərinin müstəmləkə imperiyalarını yaratmaq imkanlarını axtarırdılar.

Fransızların və ingilislərin hər ikisinin Yeni Dünyadakı müstəmləkə imperiyaları Vest İndiaların böyük hissəsindən ibarət idi. Bu tropik adalarda ingilislər və fransızlar plantasiya iqtisadiyyatını inkişaf etdirirdilər, onlarda afrikalı qullar işləyirdi. Onlar tütün, pambıq, kofe və şəkər istehsal edirdilər. Bütün bu məhsullara isə Avropada artan qaydada tələbat var idi.

“Şəkər fabrikaları” sənaye sektorunda xüsusilə mühüm rol oynayırdı. XVIII əsrin son iki dekadasında Britaniyanın Yamaykadakı müstəmləkəsi hər il 50 min ton şəkər istehsal edirdi. Orada 200 min qaradərili qul işləyirdi. Santo Daminqodakı (indiki Haiti) fransız müstəmləkəsində 500 min qul eyni vaxtda üç min plantasiyada işləyirdi. Bu müstəmləkə ildə 100 min ton şəkər istehsal edirdi. Lakin qullarla qəddarcasına rəftar edilməsi hesabına onların arasında ölüm faizi yüksək idi.

## Britaniya Şimali Amerikası

İspaniya, Şimali Amerikanın hamısını özünün okeanın o tayındakı amerikan imperiyasının bir hissəsi olduğunu iddia etməsinə baxmayaraq, digər millətlər bu iddiaya əsasən məhəl qoymurdular. Bu sahədə britaniyalılar və hollandlar xüsusilə fərqlənirdilər. Şimali Amerikanın ərazisində hamıdan əvvəl ilk dəfə hollandlar məskunlaşmışdılar. Onların fəallığı, hollandların öz xidmətinə götürdüyü ingilis tədqiqatçısı Henri Hadsonun, onun alını daşıyan (ruslar bunu Qudzon kimi tələffüz edirlər) çayı kəşf etməsi ilə başlandı. Hollandlar bir neçə il ərzində materikdəki Nyu Niderland adlandırdıqları koloniyalarını yaratdılar. İngilislərin və fransızların onlarla müharibə aparması nəticəsində holland kommersiya imperiyası tənəzzülə uğradı. 1664-cü ildə ingilislər Nyu Niderlandı tutdular və onu Nyu York (York İngiltərədə inzibati qraflığın adı idi) adlandırdılar.

Həmin vaxtdan ingilislər Şimali Amerikada öz koloniyalarını yaratdılar. İngilislərin Amerikada ilk dəfə məskunlaşdığı yer Ceymstaun (həmin dövrdəki İngiltərə kralı olan şotland I Ceymsin şərəfinə) idi, koloniya müasir Virciniyada yerləşirdi.

1607-ci ildə koloniyanın əsasını qoymuş kapitan Con Smit hindulara əsir düşməsini və hindu başçısını 12 yaşlı qızı Pokahontasın xahişi ilə onu ölümdən xilas etməsini öz kitabında geniş əks etdirir. İngilislər burada hindular kimi tütün yetişdirməklə məşğul olurdular.

Avropalıların ən böyük qüsuru ondan ibarət idi ki, onlar yeni əraziləri kəşf etdikdən az sonra yerli xalqlara adam olmayan hesab edir, onlardan ötəri işləmək üçün hinduların yararlı olmadıqlarını güman edirdilər. Bəziləri isə onları təbii cəhətdən normal insanlar tək və avropalıların pozğunluğuna məruz qalmamış kimi qəbul edirdilər. Təəssüf ki, belə münasibət bəsləyənlər, irqi fərqliliyi əsas götürüb, hindulara qeyri-insani münasibət göstərənlərdən xeyli azdır. Hətta irqçi qrup

inanırdı ki, hinduları özlərinin xristian dininə keçirəcəklər, həm də avropalılar yerli xalqlara uğurla ağalıq edəcəklər. Və buna görə onlar afrikalıları və hinduları xristian Avropasının inancına və Avropa sivilizasiyasına cəlb etməyə cəhd edirdilər.

Lakin sonralar hinduların bu dəyişikliyə mənfi münasibət bəslədiyini görüb, avropalılar onları sıxışdırmağa, təqib etməyə və axırıncı tədbir kimi qırmağa başladılar. Onlar hinduları tarixən yaşadıqları yerlərdən qovurdu. Vinçester tüfənginin icadı ilə Şimali Amerikadakı avropalılar sayı milyonlarla ölçülən bizonları qırdılar. Bizon əti isə hinduların əsas qidası idi. Ərzaq mənbəyinin məhv edilməsi, ondan faydalanan insanların da ratsionunun kasıblamasına, hətta ödənilməməsinə səbəb olur. Vinçester hinduları məhv etməkdə də əvəz olunmayan silah növü idi. Sonralar ingilislər bunu qiyam qaldırmış sudanlıların da qırğını üçün tətbiq etmişdilər.

XIX əsrin ikinci yarısı yeni amerikan sakinlərinin qəddarlıqlarının biabırçı səhnəsinə çevrildi. Sağ qalan hindular öz qəbilələrinin qalığı kimi rezervasiyalarda yaşamalı oldu. Qitənin bu aborigen xalqı öz torpağında yeni məskunlaşanlar üçün qurban verilmə hədəfi oldu və bu az saylı xalq qırılmaqla, böyük faciələrlə üzləşməli oldu.

Britaniya Şimali Amerikası sonralar 13 iri koloniyadan ibarət oldu. Onlar sıx əhaliyə malik idi və həmçinin ardıcıl olaraq yaxşı inkişaf edirdi. Şimali Amerikadakı və Vest İndiadakı Britaniya koloniyaları merkantelizm ideyalarından geniş istifadə edirdilər. Bu sistem nəzəri cəhətdən ana ölkə (metropoliya) üçün ticarətdə əlverişli tarazlığa nail olmaq yolunu açırdı.

## Fransız Şimali Amerikası

Amerikanın şimalını (Kanadanı) fransızlar kəşf etdiklərindən, burada öz imperiyalarını qurdular. Fransız tədqiqatçısı Jan Kartye 1534-cü ildə Müqəddəs Lourens (Lavrenti) çayını kəşf etmişdi və Kanadanın fransız torpaqları olduğu iddiasını irəli sürmüşdü. Fransızlar 1608-ci ildə ilk dəfə Kvebekdə koloniya yaratdılar.

Fransız Şimali Amerikası geniş ticarət zonasına çevrilmişdi, burada xəzlər, dəri, balıq və ağac materialı olduqca bol idi. Lakin fransız hökuməti yeni ərazini məskunlaşmaq üçün onu adamlarla və pulla lazımınca təmin edə bilmirdi. Fransız koloniyalarının əhalisi çox seyrək idi, yalnız 15 min nəfər fransız kanadalısı var

idi. Onlar da ovçular, xəz heyvanlarını tutmaq üçün tələ quranlar, missionerlər və tədqiqatçılar idi. 1713-cü ildəki Utrext sülh müqaviləsi bağlandıqdan sonra fransızlar özlərinin Amerika torpaqlarını ingilislərə verməyə başladılar. Yeddi illik müharibə (1756–1763-cü illər) nəticəsində ingilislər general Vulfun komandanlığı altında fransızları məğlub etdiyi üçün, onlar öz Kanada torpaqlarını 1863-cü ildə özünün Britaniya rəqibinə təslim etdi. Yeddi illik müharibənin ilk illərində Britaniya hökumətində Xarici İşlər naziri  olmuş və hökumətin anti-fransız siyasətində fəallığı ilə seçilən Böyük Uilyam Pittin (1708–1778-ci illər) Kanadanın Bitaniyaya keçməsinə nail olmaqda xidmətləri olduqca böyük idi. Britaniyanın Şimali Amerikadakı koloniyalarının şimalında yerləşən Kanadanı əvvəlcə öz müstəmləkəsinə, sonralar isə dominyonu çevrmişdi.

## Şimali Amerikada hinduların qırılması və qulların istismarı

Avropalıların Amerikalardakı kolonizasiyası tarixi hinduların qırğını kimi yeni sakinlərlə yerli xalqlar arasında baş verən biabırçı hadisələrlə doludur. "Hindu qırğını" bir definitsiya kimi zaman sərhədlərini adlayıb, sonralar daha geniş mənada işləməyə başladı. Bu əraziyə gəlmiş avropalı sakinlər isə özlərini müdafiə etmək üçün, bu kəlmədən yerli amerikanların onlara hücumunu təsvir etməkdən ötəri istifadə edirlər. Bunu da bütünlüklə inkar etmək mümkün olmasa da, hinduların kütləvi surətdə və uzun müddət ərzində qırğının həyata keçirilməsi buraya gəlib, yeni məskunlaşmış avropalıların adına yazılmalıdır. Hinduları məhz yeni sakinlər rəhmsizcəsinə qırmağı özlərinin igidliyi hesab edirdilər.

Birləşmiş Ştatlar ordusu hindu xalqlarını öz hökumətinə tabe etmək üçün çox sayda kampaniyalar aparırdılar, onlar bunu 1860-cı illərdən amerikan Qərbində başlamışdılar. Yerli milis qüvvələri və ordu çox yerdə hinduları amansızcasına qırırdı. Hindu qırğınlarında nə qədər adam öldürüldüyünü müəyyən etmək də çətindir, çünki bu statistika hindulara yad olduğu kimi, onu aparmaq da ABŞ dövləti üçün ifşa edilməməkdən ötəri vacib deyildi. Bu eybəcər iş, əslində, 1511-ci ildəki ilk kontaktdan başlayaraq, 1890-cı ilə qədər davam etmişdir.

Təkcə bir Kaliforniya fəlakətində 1846–1873-cü illərdə ən azı 9400-dən 16 minə qədər hindu, hindu olmayanlar tərəfindən öldürülmüşdü. Ümumiyyətlə, 3200 qırğın hadisəsi baş vermişdi. Müstəmləkə ərazilərindəki ayrı-ayrı qanlı hadisələrdə öldürülən hinduların sayı onlardan, yüzlərdən başlayıb, minlərlə nəfərə qədər çatır.

Yerli amerikan xalqı olan hinduların özləri ilə yanaşı, onların mədəniyyətinin və dilinin məhv edilməsi, əslində, genosid xarakteri daşıyır. Bəzi tarixçilər güman edirlər ki, indi BŞ-a məxsus olan ərazidə 1800-cü ildə 600 min yerli amerikalı yaşayırdı və onların sayı 1890-cı ildə azalıb, 250 minə çatmaqla, itki hesabına, az qala, 2,5 dəfə azalma baş vermişdir. Axı 1492-ci ildə Amerikanın kəşf edilməsi vaxtı avropalıların xəstəliklərindən çox sayda hindu ölmüşdü. Bu xəstəliklərə pnevmoniya, taun, xolera və su çiçəyi daxil idi.

İqtisadi şəraitin məhvi də hindulara ağır zərbə vurdu. Amerikanın sənaye müəssisələrində dəri xammala böyük tələbat vardı. Ölkədə hələ heyvandarlıq təsərrüfatı rüşeym şəklində olduğundan, onlar belə xammalı təklif edə bilməzdilər. Ona görə də asan çıxış yolu tapıldı, ölkənin preriyalarında çox sayda bizon sürüləri var idi, bəzi tarixçilərə görə, bizonların sayı 2 milyona çatırdı. Lakin hinduların genosidindən əvvəl bizonların ovlanmasına, kütləvi şəkildə məhv edilməsinə başlandı. Bizon cəmdəyi böyük ət ehtiyatına malik olmaqla, vaxtilə hinduların əsas qida mənbəyi idi.Kütləvi şəkildə öldürülən  bizonların ətindən  istifadə olunmurdu, lazımsız şey kimi öldürülən sahədə qalırdı. Başlıca məqsəd bizon dərisini, özü də böyük miqdarda əldə etmək idi. XIX əsrin ortalarında icad edilən vinçester avtomat tüfəngi bizonları qırmaq vasitəsi kimi müqayisə edilməyən bir silaha çevrildi. Bizon cəsədləri, sonralar meydana gələn trauler torlarındakı balıqlar kimi saysız-hesabsız idi, otlaq sahələrini cansız müqəvvalar kimi doldururdu. Onların ləngiməyə yol verilmədən dərisi soyulur və əsasən ayaqqabı fabriklərinə göndərilirdi.

Vinçester silahı təkcə bizonları öldürmək üçün deyil, hindu qiyamçılarını ovlamaq üçün də geniş istifadə olunurdu. Bizonlar üçün vinçester tüfəngi Fransa inqilabı dövründəki gilyotina rolunu oynayırdı. Sonralar ondan Afrikada da istifadə edildi. XIX əsrin sonunda britaniyalılar Sudanda Maxdi hərəkatını yatırmaq üçün on minlərlə sudanlını bu silahla məhv etmişdilər, özlərinin itkisi isə olduqca cüzi idi. Vinçester, əslində, genosid alətinə çevrilmişdi.

Bizonların qırğını hindu tayfalarını aclığa məhkum etdi, axı bizon əti onların vacib qidası idi. ABŞ-da bizonlar elə məhv edilmişdi ki,  XX əsrin əvvəllərində sərgidə göstərmək üçün diri bizon tapılmırdı. Aclıq hinduların ağdərili insanlara qarşı qəzəbini artırdı və onlar silahlı mübarizəyə qalxmalı oldular. Vaxtilə dinc həyat surən xalq, indi onlara düşmən kəsilənlərlə vuruşmalı oldular və  bu mübarizə də onların qırğınını sürətləndirib, əsl genosid xarakteri aldı.

ABŞ-da məskunlaşan avropalılar hindulara ikinci sort olan insanlar kimi baxırdılar, onlara təhqiramiz adlar verirdilər. Onlar qırmızıdərililər, barbarlar, kanniballar adlanırdı. Amerikanlar üçün yaxşı hindu, ölü hindu sayılırdı.

Sonra amerikanlar hinduların həyat tərzini dəyişdirib, onları tabelikdə saxlamağa cəhd etdilər. Hinduları ata-baba yurdlarından, tayfanın öz məskəni hesab etdiyi geniş ərazilərdən ayırıb, rezervasiyalarda saxlamağa başladılar. Əsasən köçəri həyata öyrənmiş hindu, oturaq həyata məhkum edildi. Rezervasiya həyatı hindu mədəniyyətinin yoxa çıxmasına da şərait yaratdı. Hindu tayfalarının dili də sıradan çıxırdı. Dilin məhvi xalqın məhvinə yol açırdı.

XIX əsr hindular üçün fəlakət dövrü oldu. XX əsrdə qırğın hadisələri kəsilsə də, onların milli tənəzzülünə son qoya bilmədi. Yalnız son 25-30 il ərzində hinduların özünə məxsus milli intibahı baş verdi. Uşaqlar öz ana dillərini mənimsəməyə başladı. Yeniyetmələr və gənclər tayfaya məxsus dildə mahnı oxuyur, milli rəqsləri ifa edirlər. Hindu mədəniyyəti, bir əsrə bərabər olan fasilədən sonra bərpa olunma dövrünə qədəm qoydu.

Bu proses müsbət hal sayılmalıdır. Hindular Birləşmiş Ştatlarda bütün hüquqlara yiyələnmişlər, müxtəlif sahələrdə işləyirlər. Lakin onlar ABŞ və Kanada ərazisində əvvəlki kəşflərdən sonrakı dövr ərzində necə dəhşətlərlə üzləşdiklərini də unutmurlar.

Şimali Amerikada quldarlıq Avropa ölkələrinə nisbətən daha uzun müddət davam etməklə, həm də çox eybəcər şəkillər almışdı. 1776-cı ildən ABŞ dövləti yarandıqdan sonra da quldarlıq kimi vəhşi sistem mövcud olmaqda davam etmiş, yalnız prezident Abraham Linkolnun 1862-ci ildəki dekreti ilə buna son qoyulmuşdur. 1863-cü ilin ilk günüdə Cənub ştatlarındakı qulların bütünlüklə azad olunması elan edilmişdi. Britaniyanın Amerikadakı müstəmləkəçiliyinin əksər dövründə koloniyalarda quldarlıq mövcud idi. Qul olanlar əsasən kənd təsərrüfatı fəhləsi kimi, xüsusən Cənubun icmalarında işləyirdi.

Cənubun kənd təsərrüfatı iqtisadiyyatı, Şimaldan fərqli olaraq burada sənaye inkişaf etməmişdi, əsasən, məhsul becərilməsindən ibarət idi. Bura pambıq istehsalı da əlavə olundu. Onun plantasiyaları tezliklə böyük sayda qul əhaliyə malik oldu. Onlar əvvəlcə indiqo, düyü və tütün plantasiyalarında işləyirdilər.

Quldarlıq bütün dünyada min illər idi ki, mövcud olunmuşdu. Qullar və azad qaralar Kontinental orduya kömək edirdi. Müharibə həm də qaraların plantasiyalardan qaçmasına şərait yaradırdı. Minlərlə qul öz sahiblərini tərk edib, Şimala qaçırdı. Bunun hesabına Cənubdakı qulların sayı azalmışdı. Qulların başqa qul sahibinə satılması da, onların ailələrini dağılmasına səbəb olduğundan, faciə xarakterini daşıyırdı.

Amerikan inqilabından iki dekada sonra bəzi ştatların qanunverici orqanları və fərdi şəxslər qulları azad etməyə başladılar. Bəzi şimal ştatları quldarlığı ləğv

edilməsi barədə Konstitusiya qəbul etdilər. Qulların azadlığına həsr olunmuş Şimal ştatlarındakı abolyutsionist hərəkatı geniş vüsət aldı və oradakı əhali Cənubdan qaçan qullara sığınacaq verirdi. Baxmayaraq ki, qaçan qullar barədə qəbul edilmiş qanun onların sahibinə qaytarılmasını tələb edirdi.

Qul əməyi Cənubda məcburi sayılırdı. XIX əsrdəki amerikan quldarlığı "Zəruri şər" hesab olunurdu. Vətəndaş müharibəsi vaxtı yaradılan Konfederasiya Konstitusiyası isə təsdiq edirdi ki, əgər afrikalı qullar bizim aramızda mövcuddursa, zəncilərin əsl statusu bizim sivilizasiyanın bir formasıdır. Dahi siyasətçi, prezident Tomas Cefferson isə öz öncəgörməsində qeyd etmişdi ki, bu, "Köhnə Birliyi yarı böləcək bir fəlakət olacaqdır".

Qul sahibi olan ağ insanların cəmiyyəti ölkədə mövcud idi. Amerikada 1850-ci ildə 2,5 milyon qul yaşayırdı. Qulların plantasiyalardan ağır zəhməti onları taqətdən salırdı. Ona görə də qullar arasında ölüm faizi yüksək idi. Digər faktorlar da buna öz təsirini göstərirdi.

Buna baxmayaraq, tropik iqlim şəraitində işləmək üçün daha çox adam tələb olduğundan, onların sayı artırdı. Nyu Orlean şəhəri mühüm milli əhəmiyyət daşıyan qul bazarına çevrilmişdi.

Qullara münasibət şəraitdən, zamandan və yerindən asılı olaraq fərqli idi. Lakin hər yerdə qullarla sərt davranırdılar. Qamçı ilə qulların döyülməsi və qadınların zorlanması adi hal sayılırdı. Fiziki cəza ilə yanaşı, qullar həm də dustaq edilə bilərdilər. İri plantasiyalarda cəza daha böyük sərtliyi ilə seçilirdi. Burada hər cür sui-istifadələr üçün şərait bol idi. ABŞ tarixinin ən biabırçı hadisələrindən biri afroamerikanlara qarşı irqçi həhəkat olan Ku-klus- klan adlanan cəmiyyətin zorakı fəaliyyəti idi. Ku-klus-klan qaralara qarşı hər cür vəhşilik törətməkdən belə çəkinmirdi.

Şimali Amerikanın Cənub ştatlarında pambıq əkini sahələri getdikcə genişlənirdi. Bu da ölkədə sənayenin inkişafı, pambıq parçanın qiymətinin yüksək olması ilə əlaqədar idi. Ona görə də xam pambığa tələbat getdikcə artırdı. Pambıq istehsalı digər bitkiçilik növlərini arxada qoyurdu.. Hətta bataqlıqlar qurudulur, orada pambıq plantasiyaları meydana gəlirdi. Şərqi Floridada bir qul sahibi 400 hektar bataqlığı alıb, qul əməyi tətbiq edilməklə, orada irriqasiya şəbəkəsini işə salmış, torpağı meliorasiya edərək, oranı pambıq əkini üçün istifadə etmişdi.

Birləşmiş Ştatlarda pambıq istehsalı yalnız qul əməyinə əsaslanırdı, şəkər qamışı plantasiyalarında olduğu kimi, burada məhsulun yığılması qızmar günəşin altında ağır zəhmət tələb edirdi. Pambıq yığımı mövsümündə kişilərə 80 funt (girvənkə), qadınlara isə 70 funt gündəlik pambıq toplamaq norması qoyulurdu.

Normanı yerinə yetirməyənlər qamçı ilə döyülürdü. Ona görə də satılan qulların çiyinlərində həmin zərbələrin izi qalırdı.

SSRİ-də də ölkənin cənubunda yerləşən Orta Asiya Respublikalarında və Azərbaycanda pambıq istehsalı geniş miqyas almışdı. Pambıq "ağ qızıl" adlanırdı, bu, onun istehsalına necə böyük əhəmiyyət verildiyinin təzahürü idi. Əvvəllər pambıq əkini sahələrində becərmə işlərinin çoxu və pambıq yığımı bütünlüklə əllə görülürdü, hətta bitkilərə gübrə verilməsi əməliyyatı da, müvafiq texnika olmadığından əl əməyi vasitəsi ilə icra edilirdi.

Pambıq yığımı mövsümündə isə bütün həyat elə bil ki, dayanırdı, məktəb uşaqlarından tutmuş qoca adamlara qədər hamı pambıq yığımına cəlb edilirdi. Pambıq yığımı əvvəllər yayın sonunda başlayıb, az qala, yeni ilə qədər davam edirdi. 1950-ci illərdə hətta pambıq planının ödəmək üçün təzə ilin yanvar ayında da pambıq qozaları yığılıb, odun peçi altında, ondada pambığ çopü yandırılırdı, açılmağa qoyulurdu və bu azacıq lif də dövlətə təhvil verilirdi. Çünki guya çox məhsul gətirdiyinə görə gec yetişən sortlar əkilirdi. Lakin bitkinin üstündə olan yüzə qədər qozanın əksəriyyəti payızda soyuqlar düşdüyndən açılmırdı.

Yalnız 1960-cı tillərdə pambıq yığan maşınlardan istifadəyə başlandı, lakin əkin sahələri çox olduğundan, əllə yığımın kütləvi istifadəsi qüvvədə qalırdı. Məktəblilər payızda məktəb nə olduğunu bilmir, yığıma cəlb edilirdi. Ali məktəb tələbələri də, rayon mərkəzlərinin qulluqçuları da, hətta həkimlər və tibb bacıları daxil olmaqla, pambıq yığmağa səfərbər edilirdi. Əslində, pambıqçılıq respublikalarında da pambıq yığımı məcburi əmək düşərgəsinə çevrilirdi. Başqa respublikalara isə belə əzablı düşərgələr yad idi.

Azərbaycan dünyada ən şimal en dairəsində pambıq becərilən bir ölkə idi, bu isə məhsulun keyfiyyətinə də öz təsirini göstərirdi. Tezyetişən sortlara üstünlük verilməsi isə xam pambığının texniki keyfiyyətini daha da aşağı salırdı.

Amerikada isə yalnız qul əməyi pampıq istehsalına xidmət edirdi.Başqa sahələrdə qul əməyindən istifadə edilməsi də daxil olmaqla, gətirilən misallar təkcə amerikalıların hindulara qarşı genosid əməlləri, qullara vəhşicəsinə münasibət göstərilməsi heç də yeganə nümunə sayılmamalıdır. Digər metropoliyalar da yerli əhaliyə qarşı qəddarlıq münasibəti göstərirdilər. Fransa imperiyası Yeddiillik müharibədəki məğlubiyyətinə görə xeyli ərazi itirməli olmuşdu. Lakin yenə də geniş müstəmləkə şəbəkəsinə malik olaraq qalırdı. Onun Afrikanın şimalında və daxili ərazilərində, Hindi-Çində, Sakit okean adalarında müstəmləkələri var idi. İmperiyanın ərazisi Qədim Roma imperiyasının ərazisindən iki dəfə böyük idi. Fransızlar müstəmləkə ölkələrinin əhalisini aşağı sort insanlar hesab edirdilər.

Bunun bariz nümunəsi kimi onlar hətta 1930-cu illərdə "İnsan Zooparkı" düzəldib, orada Yeni Kaledoniyadan gətirilmiş tuzemləri nümayiş etdirirdilər. Sonralar Vyetnam, paytaxtı Brizzavil olan Konqo fransız ağalığından azad ola bildi. Hələ də, XXI əsrin əvvəllərində də mövcud olan fransız imperiyası real dağılmaq təhlükəsi ilə üzləşmişdir. Xalqları öz ağalığında saxlayan Fransa Cənubi Qafqazın da işlərinə müdaxilə etməkdən ötəri, Ermənistandan bu məqsəd üçün geniş istifadə etməyə çalışır.

## Mərkəzi və Cənubi Amerikada yeni sivilizasiya

Cənubi Amerika qitəsində və Şimali Amerikanın Mərkəzi Amerika adlanan hissəsində Latın Amerikası adlanan yeni bir sivilizasiya meydana gəldi. Buradakı ölkələr, əsasən, multiirqə malik olan cəmiyyətlər idi. İspan və portəgizli sakinlər ilə yerli hindular arasında münaqişələr nisbətən az idi. Əhalinin digər qrupu isə Latın Amerikasına gətirilən afrikalılar idi. Afrikalılar və yerli hindular bu ölkələrdə unikal bir cəmiyyət yarada bildilər. Şimali Amerikadan fərqli olaraq, bu ərazi multiirqi cəmiyyət kimi inkişaf etdi və irqi fərqlər barədə burada daha az sərt münasibət halları olurdu. Katolik kilsəsinin missionerləri də əhali arasında fəal iş aparırdılar.

Avropanın həmin ərazilərə genişlənməsi prosesi işğalçılara digər iqtisadi təsir də göstərirdi. Avropalılar burada qızıl və gümüş axtarırdılar. Bir atstek ispanlar barədə demişdi ki, onların bədəni, iyrənc tamahkarlıqlarından şişir.

Yeni Dünya ilə əlaqələr kommersial kapitalizmi xeyli inkişaf etdirdi. İqtisadi fəallığın yüksəlməsi ilə birja kompaniyaları da meydana gəldi.

## Fransızlar və ingilislər Hindistanda. Digər Asiya ölkələrinə avropalıların gəlişi

Portəgiz donanması 1498-ci ildə Kalikuta gəlib çıxdıqda, Hindistan subkontinenti bir neçə dövlətə bölünmüşdü. Yeni eranın başlanğıcında, XVI əsrin birinci yarısında yeni yaranan dövlət Moğollar adlanan əcnəbi sülalə tərəfindən idarə olunurdu.

Moğol imperiyası Hindistan üçün doğma olmamaqla, ona yad idi. Hətta sülalənin əsasını qoyan Babura Hindistanın təbiəti və hindlilərin özü xoş gəlməmişdi və o, təəssüratını özünün "Baburnamə" əsərində göstərir. Onun atası fateh kimi tanınan Teymurləngin nəslindən idi. Anası isə Asiyanın böyük sərkərdəsi, dünyada ən böyük monqol imperiyasını yaradan Çingiz xanın nəslindən idi. Baburun nəvəsi Əkbər (1556–1605-ci illər) Moğol hakimiyyətini subkontinentin əksər ərazilərinə yaydı. İki min il əvvəlki Mauriya sülaləsindən sonra o, ən böyük Hindistan imperiyasını yaratdı.

XVII əsrin birinci yarısında ingilislərin Hindistandakı təmsilçiliyi möhkəm qaydada böyüdü, ingilis ticarət məntəqələri yaradıldı. Benqal körfəzində Uilyam (indiki Kəlküttə şəhəri) və Madras (indiki Çanna) fortları quruldu. İngilis gəmiləri xam pambığı Şərqi Hindistana daşıyır, burada onu ədviyyata dəyişib, İngiltərəyə aparırdı.

Fransızlar da özlərinin yeni fortlarını tikdilər və britaniyalılarla uğurlu rəqabət apardılar. Lakin britaniyalıların mənafeyi ser Robert Klayvın hərbi dühası hesabına xilas olundu. O, aqressiv Britaniya imperiyasının qurucusu idi və Hindistanda Ost-İndia kompaniyasının baş nümayəndəsi oldu. Bu kompaniya 1600-cü ildə yaradılmışdı. Zəruri olaraq fransızların mövqeyi kiçildi və onlara yalnız cənubi-şərqdəki sahildə bir ovuc ərazi qaldı.

Bu vaxt Klayv Benqalda Britaniyanın nəzarətini konsolidasiya etməyə başladı. Yeni hind hökmdarları Uilyam fortuna hücum edib, yerli ingilis sakinlərini dustaq edəndə, Britaniyanın kiçik, 3 minlik ordusu 1757-ci ildəki Plessi döyüşündə iri moğol ordusunu məğlub etdi. Qələbə hesabına Moğol sarayından torpağa görə vergi yığmaq səlahiyyəti ingilislərə verildi. Yeddiillik müharibə (1756–1763-cü illər) ərzində Britaniya fransızları Hindistandan bütünlüklə geri çəkilməyə məcbur etdi.

Şərqi İndia Kompaniyası öz hakimiyyətini subkontinentin daxilinə doğru genişləndirdi. Bu Hindistanın tədricən Britaniya Ost-İndia Kompaniyasına çevrilməsi üçün və sonralar 1858-ci ildə Britaniya tacının müstəmləkəsi olması üçün başlıca addım idi.

Portəgiz donanması 1514-cü ildə lövbəri digər iri Asiya dövləti olan Çin sahili yaxınlığına saldı. Donanma bura gələndə ölkəyə Min sülaləsi başçılıq edirdi, onun hökmranlığı 1369-cu ildə başlamaqla üç əsrə yaxın, 1644-cü ilə qədər davam etmişdi. Bu dövrdə Çin ərazisi xeyli genişlənmişdi, hətta qısa müddətdə çinlilər Vyetnamı yenidən işğal etmişdilər. Onlar "Böyük Sədd" adlanan Çin səddini nomad xalqların təhlükəsi ucbatından möhkəmləndirmişdilər. Əkinçi və ovçu xalq

kimi mancular Min sülaləsini devirmək üçün imkan meydana gəldikdə, bu fürsəti itirmədilər. İndiki Çinin şimal ərazisini Mancuriya adlandırıb, mancular sonra isə Pekini işğal etdilər. Qalib mancular yeni sülalə yaratdıqlarını elan etdilər, bu, Tsin sülaləsi adlanırdı.

Yaponiyaya gəldikdə, Portəgiz tacirləri 1543-cü ildə yapon adalarına ayaq basdıqdan sonra bir neçə il ərzində Portəgiz gəmiləri yapon limanlarında dayanmağa başladılar. Məşhur iezuit missioneri Frensis Xavyer (o, İezuitlərin lideri İqnatus Loyalanın müavini idi) yerli əhalini xristianlığa keçirməkdə xeyli uğur qazandı.

Yaponlar bu qonaqları xoş sifətlə qarşıladılar. Yapon sarayları tütünə, parçalara, eynəklərə və digər Avropa mallarına valeh olmuşdular. Yerli kübarlar Avropa odlu silahlarının bütün növləri ilə (samurayların qılıncı olan katana isə bütün dövrlərin soyuq silahları ilə müqayisədə xüsusi itiliyi ilə seçilirdi) maraqlanırdılar. Onlar avropalıların tüfənglərinə, sonralar isə toplarına heyranlıqla tamaşa edirdilər.

Katolik missionerlərin uğuru, qərblilərin nümayəndələrinə qarşı güclü şübhə reaksiyası əmələ gətirdi. Syoqun İeyasu Tokuqava 1600-cü ildə hakimiyyəti ələ keçirdikdən az sonra missionerləri ölkədən qovdu, yapon xristianları isə təqiblərə məruz qaldı. Sonra Avropa tacirləri də ölkəni tərk etməli oldular. Hökumət iki mühüm limanı bağladı, yalnız kiçik holland icmasına Naqasakidə yaşamağa icazə verildi.

Hindistan və Çin kimi iri Asiya ölkələri öz müstəqilliklərini itirmişdilər, Hindistan Böyük Britaniyanın tam müsəmləkəsi kimi vitse-kral tərəfindən idarə olunurdu, kraliça Viktoriya isə Hindistanın imperatriçəsi titulunu daşıyırdı. Zəif iqtisadiyata və hərbi gücə malik olan Çin isə Qərbin aparıcı dövlətlərindən asılı vəziyyətdə idi. Lakin Böyük Britaniya və ABŞ onların inkişafına müəyyən müsbət təsir göstərirdi, bu ölkələrdə təhsilin, elmin, texnikanın və texnologiyanın inkişafına müəyyən şərait yaratmışdı. Lakin bu xüsusiyyətlər də, müstəmləkəçiliyə xas olan eybəcərlikləri ört-basdır edə bilməzdi.

Hindistanda uzun müddətli milli-azadlıq hərəkatı 1947-ci ildə onun müstəqilliyini elan edilməsi ilə nəticələndi.

Çin kommunistlərinin silahlı mübarizəsi Qərbə vassallıq edən Çeş Kay -şi hökumətinin məğlubiyyəti ilə nəticələnib, 1 oktyabr 1949-cu ildə Çin Xalq Respublikası yarandı.

Yaponiya 1945-ci ilin sentyabrında II Dünya müharibəsində ABŞ-a məğlub olmaqla, militarist siyasətdən uzaqlaşdı və yeni Konstitusiya əsasında ölkədə ilk dəfə demokratik respublika quruluşu meydana gəldi.

Bu üç dövlət hazırda beynəlxalq aləmdə layiqli yer tutur, Çin və Hindistan görünməmiş sürətlə iqtisadi inkişafa nail olmuşdur.

Böyük coğrafi kəşflərə məhz Avropa xalqları imza atmışdılar. Onlar şimal istisna olmaqla, dünyanın bütün tərəflərini tədqiq etməklə, iki Amerika qitəsini açdılar, Asiyanın və Afrikanın inkişafına, bütün mənfi cəhətləri nəzərə almaqla yanaşı, güclü təsir göstərdilər. Hakim olanlar həm də yeni ərazilərin yerli xalqlarına qarşı qəddarlıq göstərmiş, hətta Şimali Amerikada genosid həyata keçirmişdilər. Sonrakı məskunlaşmalar ciddi faciələrlə müşayiət olunsa da, dünyanı bütövləşdirməkdə və sürətli inkişaf yoluna düşməsində böyük coğrafi kəşflərin əhəmiyyətini azaltmaq mümkün deyildir. Bu kəşfləri qeyri-adi iradə sahibləri həyata keçirmişlər. Düzdür, bu kəşflər bir sıra xalqlara bədbəxtlik gətirmişdir, lakin dünyaya inkişafın magistral yolunu açmışdır. Tədqiqatçıları, sonrakı yadelli sakinlərin cinayətinə görə ittiham etmək də haqsızlıqdır, real sui-istifadələrdə onların heç bir günahı yoxdur və onlar tarixin böyük şəxsiyyətləri kimi qiymətləndirilirlər. Yerli xalqların onlara mənfi münasibət bəsləməsi də haqlıdır. Lakin fərqli münasibətlərdən asılı olmayaraq, böyük coğrafi kəşflərə imza atmış tarixin ən məşhur rıtsarlarına layiq olduqları yüksək ehtiram bəslənməlidir.

SON

06.11.24

*Telman Orucov*

**Təbiət insanı yaşadır və onu bəzən sınağa çəkir**

İki milyon ildən əvvəllərdə meydana gələn insan. təbiətin yeni möcüzəsi olmaqla, hər cür ilkin çətinliklərə baxmayaraq, onun qucağında yurd-yuva salmış, Paleoliti (əslində bütöv Daş dövrünü) yaşayıb başa vurduqdan və daha sonra səhnəyə qədəm qoyan neondartalların nəsli öz yerini homo sapience verməsi ilə insan metaldan istifadə etməyi öyrənməklə, güclü inkişaf erasına qədəm qoymuşdu. Bürünc və dəmir erasında bəşəriyyət inkişaf etməyə başladı. Son dövr sayılan Neolit epoxası ərzində insanlar oturaq həyat tərzinə keçdi. Keramika və toxuculuq istehsalı meydana gəldi, heyvandarlığın və əkinçiliyin tətbiq edilməsi ilə Aqrar inqilabı  baş verdi. Bu inkişaf prosesi fasilə vermədi, şəhərlər və şəhər-dövlətlər meydana gəldi, sənətkarlıq inkişaf etməyə başladı, texniki inqilab sayılan təkər icad edildi. Əvvəlki dövrlərdən tam fərqlənən bir cəmiyyət, əsl sivilizasiya yaranmağa başladı.

Təəssüf ki, insan öz tələbatının ödənilməsini məhdudlaşdıran bir hədd tanımır, verdiyindən daha çox torpaqdan, təbiət ilahəsindən  almaq istəyir. Anlamır ki, təbiət həm həyatı, həm də ölümü yaradır.  Qədim yunan mifologiyasına görə insan Yeri incidir. Təbiətə ziyan vurmaqla insan onu himayə edən  ilahənin qəzəbinə də səbəb olur. Bütün dinlərdə Yer məhz ana kimi rəmzlənir, qədim romalılar onu Terra Mater adlandırırdılar. Qədim həyatverici Yer ilahəsi Geya əsəbiləşdikdə, insana cəza verirdi. Qədim insan da cəzadan qorxub, Yerin silkələməsi, od püskürməsi hallarına səbəb olan fəaliyyətə yol verməkdən çəkinirdi.

Tarixin başlanıcında irəli çıxan xalqlar təbiətlə ehtiyatla davranır, onun qaydalarını pozmaq eşqinə düşmürdülər.Dörd min ildən xeyli əvvəl Yaxın Şərqdə məskunlaşan şumerlər əsl novatorluq fəaliyyəti göstərməyə başladılar. Onlar irriqasiya şəbəkəsi yaratmaqla, o qədər də münbit olmayan torpaqlarda nisbətən bol məhsul becərməyə başlamış, şəhərlərində isə əvvəllər məlum olmayan, yeni, tam fərqli yaşayış şəraitinə malik olmuş, yazını kəşf etmişdilər. İlk ədəbi nümunə sayılan Qilqameş dastanı da məhz şumerlərə məxsusdur. Bu  maraqlı əfsanədən sonralar Bibliyanın müəllifləri də istifadə etmişlər. Sadəcə olaraq,onlar  dastandakı Utnapiştimi Nuh adlandırdıqları  bir başqa xilaskarla dəyişdirmişdilər.

Əlbəttə, şumerlər inkişafa böyük təkan verdilər, onların yazılı məlumatları ilə bəşəriyyətin məlum tarixi başlanmışdır.  Məhz buna görə də elmdə tarixin şumerdən başladığı mülahizəsi qəbul edilmişdir. Bir cəhəti də qeyd etmək lazımdır

ki, ilkin şumer yazıları mühasibat uçotu xarakteri daşıdığından, onun səhifələrini hansısa peyğəmbərin, müdrikin, sərkərdənin adı deyil, məhz  mühasibin adı bəzəyir.

Özü üçün həyatverici mənbə sayılan Nil çayı hesabına Qədim Misir aqrar sahədə, texnikanın və texnologiyanın inkişafında böyük nailiyyətlər qazanmışdır. Bu böyük çay özünün  daşması ilə ətraf sahələrə, müasir dillə desək, ən qiymətli gübrə kimi lil gətirməklə, ona əlavə münbitlik vermişdi. Bu isə əkinçi əməyinin nisbətən yüksək məhsuldarlığına şərait yaratmışdı. Əgər bu bolluq mənbəyi olmasaydı, Misir öz qonşuluğundakı kimi səhralardan ibarət olmaqla, Saxaranın davamı xarakterini daşıyardı. Nilin hesabına Qədim Misir mühüm taxıl istehsalçısına və ixracçısına çevrilmişdi, təsadüfi deyil ki, bu ölkə bizim eradan əvvəlki I əsrdə Qədim Romanın taxıl anbarı hesab olunurdu.  Tarixin atası sayılan yunan alimi Herodot haqlı olaraq Misiri Nilin hədiyyəsi adlandırmışdı.

Misirdə arxitektura və texniki biliklər inkişaf etməklə, zamanı xeyli qabaqlamış, onların vəhdəti piramidaların tikilməsi ilə nəticələnmişdi. Piramidalar həmin dövr insanının yüksək ağlından və kreativlik qabiliyyətindən xəbər verir. Misir yazını inkişaf etdirmək qayğısına qalmadığından, burada arxaik sayılan heroqliflərdən istifadə edildi. Bu ölkədə təsviri sənət isə yüksək səviyyəyə çatmışdı.

Misirdən sonra yüksək inkişaf prosesini həyata keçirməyi yunanlar, xüsusən Afina sakinləri öz üzərlərinə götürdülər, baxmayaraq ki, misirlilər onlara tarixi anlamayan uşaq kimi baxırdılar. Yunanlar yeni şəhər salma qaydaları yaratdılar, arxitekturada, rəssamlıq və heykəltəraşlıqda, elmin inkişafında çox irəli getdilər. Afina ilk dəfə olaraq siyasi həyatda əsl demokratik idarəetmə qaydasını yaratdı və gələcək dünya xalqları yunanların bu siyasi icadlarını,  bir qiymətli irs kimi qəbul etdilər. Bu şəhərdə b.e.ə. V əsrdə dünyanın arxitektura incisi sayılan və sonralar bu sahənin etalonuna və şəhərin simvoluna çevrilmiş Parfenon məbədi tikildi. Ölkədəki  Delfi isə Apollona həsr olunmuş məbəd, orakullar məskəni kimi şöhrət tapdı. Yunanıstanda Olimpiya oyunları da keçirilirdi.

Bu üç məkanda yaşayan insanlar sivilizasiyanın inkişafına böyük töhfə vermişlər. Onlar müxtəlif təbii şəraitlərdə yaşamışdılar, həmin əraziləri, öz ağıllarını və yaradıcı zəhmətlərini sərf etməklə, başqa regionlardan fərqli bir yaşayış məkanına çevirmişdilər. Yaddan çıxartmaq lazım deyildir ki, Avroasiyanın, Afrikanın ucsuz-bucaqsız ərazilərində yaşayan digər tayfalar, icmalar belə inkişaf mərhələsindən bixəbər idilər, əslində, əsasən ibtidai insanın malik olduğu həyat tərzini davam etdirirdilər. Şumerlər yağışın az olduğu, arid ərazidə məskunlaşmışdılar. Yalnız suvarılan torpaq onları məhsulla təmin edə bilərdi. Onlar bunu anladılar və yaxındakı iki çay – Dəclə və Fərat onların

köməyinə gəldi. Böyük fərasət nümayiş etdirən xalq bu çaylardan kanallar çəkib, suvarma tətbiq etməklə, əkinçilikdə əvvəllər ağla sığmayan yeniliklərə imza atmağa, bol məhsul götürməyə nail oldular. Ərzaq ehtiyatının yaranması digər sahələrdə də inkişafa yol açdı, şumerlər şəhərlər salıb, onlarda yaşamağa, sənətkarlıqla və ticarətlə məşğul olmağa başladılar.

Misirlilər üçün Nil təkcə suvarma problemlərini həll etmirdi, həm də torpağa, əkinçilik üçün vacib olan böyük münbitlik verirdi. Bu çay təkcə aqrar sahə üçün əvəzsiz rol oynamırdı, axı yerli insanların ilk çörəyi olan xurma da bu ərazidə böyüyüb, dəyərli qida sayılan öz töhfəsini verirdi. Çay həm də Cənub əraziləri ilə ticarət üçün böyük imkanlar yaratmışdı. Nil olmasaydı, məgər piramidaların tikintisinə sərf olunan ağır daş blokları daşımaq olardımı?

Yunanıstan isə hər iki ölkədən fərqli bir təbii şəraitə malik idi. Yunanlar dağlıq ərazidə və dəniz sahillərində yaşayırdılar. Bura əkinçilik üçün o qədər də əlverişli deyildi,əkin torpaqları məhdud ölçüdəki sahələrə malik idi, bütövlükdə bu dağlıq ölkə iri düzənliklərdən məhrum idi. Ona görə də Kiçik Asiyadakı böyük düzənlikləri ilk dəfə görəndə, yunanlar təəccüblərini gizlədə bilməmişdilər. Dənizin sərin mehi və dağın yumşaq havası yunanların əqli qabiliyyətinin inkişafına əsaslı təsir göstərmişdi. Fiziki əməyi tətbiq etmək şəraitinin kasadlığı, əqli qabiliyyəti inkişaf etdirmək üçün özünəməxsus stimul rolunu oynamışdı. Bizim ölkəmizin dağ regionlarında da məktəblilər ağılın fərqli qabiliyyəti ilə, aran regionlarında yaşayanlardan əsaslı surətdə fərqlənirlər. Yunanlar öz biliklərindən dənizləri fəth etmək, ticarət aparmaq üçün də istifadə edirdilər. Finikiyalılar xeyli əvvəl dənizlərdə üzməklə, tacirlərə çevrilmişdilər. Onların bu təcrübəsindən, özlərinin Afrikanın şimalında yaratdıqları yeni dövlətin sakinləri də istifadə edib,Karfageni güclü dəniz dövlətinə çevrmişdilər. Karfagenlilərdən sonra dənizçilik sahəsində geniş fəaliyyət göstərməyə yunanlar gəldilər. Yunanlar Aralıq dənizinin və Qara dənizin sahillərində yaşayan xalqlarla geniş ticarət aparırdılar, axırıncılardan əsasən taxıl idxal edirdilər. Həm də onlar finikiyalılar Karfageni yaratdıqları, karfagenlilər isə İberiya yarımadasında şəhərlər saldıqlar və böyük ərazilər tutduqları kimi, hər iki dənizin sahil zonalarında öz koloniyalarını yaradırdılar. Apennin yarımadasından Neapolu, Qara dəniz sahilindəki Krımda Feodosiyanı və Kerçi məhz yunanlar salmışdılar və bu qədim irs bizim dövrümüzə gəlib çıxmışdır.

Yunanlardan tarixi inkişaf estafetini qədim romalılar uğurla qəbul etdilər. Roma üç qitədə ərazilərə malik olmaqla böyük imperiyaya çevrilmişdi. Burada elm, texnika, arxitektura, yol, körpü və akveduk tikintisi çox inkişaf etmişdi. Qay Yuli Sezarın ordusundakı inşaatçılar dəstəsi hərbi qələbələrin əldə edilməsi

məqsədilə yollar və körpülər tikirdi. Avropanın müasir yol şəbəkəsi romalıların o vaxtlar tikdikləri və istifadə etdikləri magistral variantlara əsaslanır.

Lakin Qədim Roma imperiya yaratmağa girişəndə, təbiətə ziyan vurmağa da başladı. Baxmayaraq ki, onlar özləri Yeri Magna Mata - "Böyük ana" adlandırdı. Ambitsiyalar isə inancdan daha güclü idi.

Misal gətirilən artıq bu dörd, həm də müxtəlif iqlim və fərqli təbii şəraitə malik olan ölkədə yaşayan insanlar təkcə təbiətin himayəsinə sığınmaqla kifayətlənməyərək, öz yaşayışlarının təminatçısı olmaq qayğısına qalmaqla, malik olduqları ərazilərdə xeyli tərəqqiyə nail olmuşdular. Lakin onlar təbiətə ziyan vurmaq yolunu tutmamış, onunla nisbətən harmoniyada yaşamağa üstünlük vermişdilər. Və onu da qeyd etmək lazımdır ki, bu işdə xeyli uğur da qazanmışdılar. Onlar öz əqli və fiziki qabiliyyətləri, həm də ağır zəhmətləri və heç şübhəsiz, istedadları hesabına həyatın müxtəlif sahələrində böyük uğurlar qazanmış, ayrı-ayrı sahələrdə inqilabi xarakter daşıyan yenilikləri tətbiq etmişdilər.

Müasir insanlar da onların ilk dəfə həyata gətirdikləri ixtiralardan, həm də onlara məxsus olan elmi və texniki kəşfləri daha da təkmilləşdirməklə, bu qiymətli irsdən böyük fayda götürməkdə davam edirlər. Qədim romalıların icadı olan beton əvəz olunmayan inşaat vasitəsi olmaqla, iki min ildir ki tətbiqini davam etdirir.

İndiki dünyanın həyat arxitekturası, onların yaratdıqları möhkəm bünövrəyə əsaslanır. Bu bünövrə üzərində qurulan bina özündə çox sayda yeniliklərin tətbiqi ilə fərqlənsə də, həmin sarsılmaz fundamenti inkar etmək mümkün deyildir.

XX əsr və XXI əsrin başlanğıcı nəhəng elmi-texniki kəşflərlə əlamətdardır. Təbii və dövlət sərhədlərini aşan elmi kəşflər görünməmiş zirvələr fəth etmişdir. Artıq tətbiq olunmasına başlanan və daha böyük inkişaf üfüqləri vəd edən süni intellekt təbiətin yaratdıqlarını da arxada qoymağı bacarır. Əgər kompüter saniyədə milyonlarla hesablama əməliyyatı aparmağı bacarırsa, bunu, dünyaya gətirən heç bir insan ağlının və qabiliyyətinin ən yüksək səviyyəsi ilə də müqayisə etmək mümkün deyildir.

İnsanın yaranması, əlbəttə, bilavasitə təbiətin işidir, müxtəlif dinlər isə buna Tanrının bilavasitə yaradıcılığının nəticəsi kimi baxır. Mikelancelo da Vatikanın Sikstin kapellasının plafonunda ilk insanın yaranmasını, ona məhz Allahın əlinin dəyməsi ilə təsvir etmişdi və biz bu səhnəyə böyük heyranlıqla tamaşa edirik. Dünyada baş verən bütün hadisələrin də müəllifliyi Tanrının adına yazılır. Lakin süni intellekt istənilən maddi varlıqların, həmçinin ağıl qabiliyyətinə malik olan insanın da yaradılması işinə də girişsə, bu, bizim inanclarımızda da müəyyən dəyişikliklərin yaranması imkanını meydana gətirə bilər. İnsan ağlının məhsulu olan süni intellekt, bizim münasibətimizdən asılı olmayaraq, Tanrının bu sirrli

əməliyyatına da müdaxilə etməklə, onunla elan olunmamış yarışa girir. Bu bizə nə qədər qəribə görünsə də, hələ tufan başlamasa da, onun tezliklə gələcəyindən xəbər verən küləyin əsməsi də məhz buna əyani bir işarədir.

Dünyada baş verən bütün hadisələr, insanın da yaranması daxil olmaqla ilahi qüvvələrin iştirakının nəticəsi hesab olunur. Elmin nailiyyətləri, xüsusən süni intellektin tətbiqi sirr kimi görünənləri izah etməyi bacarmaqla, indiyə qədər insanlara hakim kəsilən inanclarda da düzəliş aparılmasını tələb edəcəkdir. Süni intellekt insanın təbiətlə mübarizəsinin, onun xeyrinə meyil etdiyini, dəyişdiyini izaha ehtiyac duyulmayan bir şəkildə göstərəcəkdir.

## İnsan təbii şəraitə uyğunlaşır

Tarixi inkişaf mərhələlərinə qayıtdıqda, insanın daim düşdüyü şəraitə uyğunlaşdığının şahidi oluruq. Bu baş verməsə, insan nəsli məhv ola bilərdi. Çarlz Darvin növlərin mənşəyi barədəki əsərində şəraitin dəyişməsi ilə zəiflərin məhv olduğunu, güclülərin yaşamaqda davam etdiyini iddia edirdi. Amerika alimləri onun bu nəzəriyyəsinin mahiyyətini inkar etməməklə, onda düzəliş apardılar. Onlar təsdiq edirlər ki, şərait kəskin surətdə dəyişdikdə zəiflərlə yanaşı, güclülər də məhv olurlar, öz mövcudluğunu yalnız yeni meydana gələn şəraitə uyğunlaşmağı bacaranlar qoruyub saxlayırlar. Ona görə də otla yanaşı balıq yemələrinə görə yırtıcı sayılan dinozavrlar da sıradan çıxdığı halda, onlarla müqayisədə çox kiçik və zəif olan tarakanlar milyon illərdir ki, ömür sürürlər. Sadəcə olaraq, tarakandan fərqli olaraq, dinozavrlar yeni şəraitə uyğunlaşa bilmədiklərinə görə məhv oldular, gücsüz tarakanlar isə hər cür dəyişikliyə uyğun qaydada yaşadıqlarına görə, bizim dövrümüzə gəlib çıxdılar.

İbtidai icma quruluşundan, tarixdən əvvəlki dövrlərdən başlayaraq, insan təbiəti özünün sığınacaq yeri, doğma yurd-yuvası, ilk vətəni hesab etməyə başladı. Onda təbiətin sınaqlarına da, müəyyən ölçüdə bir növ immunitet yarandı. Buz dövrü canlılara böyük ziyan vursa da, insan onun sərt şəraitinə dözməyi də bacardı, köç etməklə daha əlverişli şərait tapmağa da qadir oldu. Elmə məlumdur ki,son 2-3 milyon ildə 50 buz dövrü mövcud olmuşdur. Onlar bəzən ardıcıl olaraq yüz il davam edə bilirdi. Buz dövründə də insan olduqca ağır şəraitə dözməyi bacarmışdır.  Laplandiyanın sərt şaxtası şəraitində yaşamağı bacaran saamlar buz dövrü insanlarının dözümlülüyünə və fədakarlığına haqq qazandırır.

Bəşəriyyət həm də tarixi mərhələlərdə yaşa dolduqca, öz vətəninin, yaşayış üçün daha əlverişli təsir göstərən cəhətlərini qoruyub saxlamağa çalışdı. İnsanın qərar tutduğu məskən ananın körpəsi üçün qucağı rolunu oynayır, hərarət

verməklə, onu soyuğun, küləyin mənfi təsirindən qoruyur, həm də döş südü şəklindəki qida ilə təmin edir.

Axı ibtidai insan özünə nisbətən rahat mənzil yaratmaqda gücsüz idi, daha çox təbiətin onu himayə edəcəyinə inam bəsləyirdi. O, başa düşürdü ki, onun özü də təbiətin bir hissəsidir, onu həyata gətirib, müvafiq şəraitlə təmin etməklə, özünün yaratdığı doğma varlığa olan qayğısını da kəsmir. Ona görə də insan öz yaşayış tələbatının əsas hissəsini, bunu anlasa da, anlamasa da təbiətin üstünə yıxırdı. Buna görə də insan haqlı olaraq təbiətin uşağı hesab edilirdi. Bu uşaq yaşamaq üçün qida kimi hər şeyi təbiətdən – ovçuluqdan, bitki meyvələrini və köklərini yığmaqdan aldığına görə, özünü dərk etməyə cəhd etməklə yanaşı, digər canlı varlıqları da öyrənməyə çalışırdı. İbtidai insan ovlayıb, ətindən istifadə etdiyi heyvanların davranışını, ov üçün nə dərəcədə yararlı olduğunu yaxşı öyrənib, mənimsəyirdi. Müasir insandan fərqli olaraq o, vəhşi heyvanların hərəkətini, köç etməsini, başqa otlaqlara üz tutması vaxtını mükəmməl qaydada bilirdi və onları ovlamaq üçün öz biliklərindən və qazandığı təcrübədən yaxşı istifadə etməklə, ovda uğur qazanır və doğma icmasını aclıqdan xilas edirdi. Onlar bitkilərin meyvələrinin nə vaxt yetişdiyini, dənli bitkilərdən alınan məhsulun yemək üçün nə vaxt sərfəli olduğunu yaxşı bilirdilər və bu məsələdə də səhvə yol verməməyə çalışırdılar. İnsan təbiətə kiçik ölçüdə ziyan vursa da, heç vaxt bu sahədə həddi aşmırdı. Əsasən istehlakına vacib olan həcmdə ov edir, meyvə və kök yığırdı. Axı böyük ət ehtiyatını xeyli müddətə saxlamaq imkanından da məhrum idi. Ona görə də təbiətlə insan arasında ittifaqa bənzəyən qarşılıqlı əlaqə hökm sürürdü, bu cəhətdən olduqca vacib olan harmoniya əsasən qorunub saxlanırdı.

İnsan heç vaxt ümdə tələbatından artıq ehtiyat saxlamaq naminə izafi ov etməyə yol vermirdi, əslində bunu bacarmırdı da, ovçuluq fasilələrlə müşayiət olunmaqla, ov heyvanlarının sayının kəskin sürətdə azalmasına gətirib çıxarmırdı. Bitki məhsullarını topladıqda da, ancaq qidasına yarayan dəni və ya meyvəni yığırdı, bitkinin özünə ziyan vurmamağa çalışırdı. Dən və meyvə yığılsa da, kökü istehlak edilən növlər istisna olmaqla,  bitkinin kökü və gövdəsi zədələnməmiş qalırdı, belə münasibət , gələcək məhsul üçün onun ehtiyatlı tədbir xarakteri daşımasından xəbər verirdi. Axı bitki ona bir dəfə deyil, sonrakı illərdə də qida maddəsi timsalındakı bəhrəsini verəcəkdi, onun ac qalmasına imkan verməyəcəkdi.

Bu məsələdə Şimali Amerika hindularının yabanı düyünü toplaması təcrübəsi bitkiyə belə qayğıkeş münasibətin əyani təzahürüdür. Hindu kanoelərdə su hövzələrinin kənarında bitən yabanı düyü “plantasiyalarına” yaxınlaşıb, onun gövdəsini qayığın içinə əyib silkələyirdi. Düyü dəni və ya çəltik qayığın içinə tökülürdü, sonra o, ehtiyatla düyü bitkisinin gövdəsini düzəldib, yaxındakı digər

bitkinin məhsulunu yığmağa girişirdi. Həm də hər il yenidən həmin təbii zəmilərdən məhsul  toplamağa təkrar edirdi.

İbtidai insan hələlik məhsul istehsalı ilə məşğul olmadığından, onu qida ilə təmin edən təbiətə qayğıkeşliliklə, ziyan vurmadan yanaşırdı, təbiətin təklif etdiklərini qəbul etməklə kifayətlənirdi. Deməli, ibtidai insan istehsal yolu ilə özünə ehtiyat yaratmasa da, ana təbiətin ona ünvanlanan hədiyyəsinə, yırtıcı heyvanlara  xas olan qaydada deyil, gələcəyini təmin etmək barədə düşünməyə qadir olan ağılla hərəkət etməyə üstünlük verirdi. Axı icma qida ilə təmin olunmaqla həm özünün yaşamasını davam etdirmək, həm də nəsli artırmaq imkanına malik olurdu.

Göründüyü kimi, ibtidai insan bu qaydada yaşamaqla heç də təbiətlə mübarizə aparmırdı, əksinə, onun mərhəmətinə, həm də məhz minnətdarlıq ruhunda sığınırdı. Bu onun məxsus olduğu icmanı daim müəyyən ölçüdəki ərzaq payı ilə təmin etməyə imkan verirdi. İnsanın qida maddələrinin istehlakı da, məhz ixtiyarında olandan asılı idi. İbtidai insan yalnız uğurlu ov etdikdə, iri heyvanı öldürdükdə çox yeyirdi, mədəsində qida ehtiyatı yaratmağa çalışırdı.

Onların həyat tərzini Rusiyanın Qütb zonası ərazilərində və tayqa meşələrində yaşayan azsaylı şimal xalqlarının nümunəsində öyrənmək mümkündür. Bu barədə  sovet geoloqu, yazıçı Dmitri Yefremovun Sayan dağlarına ekspedisiyada iştirak etdiyi vaxt, onlara xidmət edən və evenk etnosuna  məxsus olan bələdçinin davranışının təsviri ibtidai, tam sivilizasiyalanmamış insan barədə bizi biliklərlə təmin edir. Yefremov özünün “Tayqa povestləri” (“Tayojnıe povesti”) trilogiyasında olduqca maraqlı hadisələri qələmə alır. O, şimalda yaşayan azsaylı xalqlara məxsus olan adamların qidalanma təcrübəsini müşahidə etmiş, onların bu məsələyə fərqli yanaşdıqlarının şahidi olmuşdu.

Müəllif yazır ki, bir dəfə sərt şaxtalı havada yemək ehtiyatımız tükənmişdi, son şans maral ovunun uğurundan çox asılı idi. Evenk Yermolay məharətli ovçu kimi tanınırdı. Lakin iki gülləsi lazımi effekt verməmişdi, axırıncı patron öz işini görməsə, aclıq daha qorxulu səviyyədəki fazaya keçə  bilərdi. Xoşbəxtlikdən, o, maralı vurub yerə yıxdı. Biz ovun yanına çatdıqda o, bıçağını çıxarıb maralın boynundan deşik açdı və ağzını ora söykədi. O, ovunun qanını içib xeyli cana gəldi, çünki isti qan onun bədəninin hərarətini də artırmışdı. Afrika xalqı olan masailər isə ov heyvanlarının deyil, sürülərindəki danaların boğazını deşib, axan qanı qaba toplayıb, südə qatır və onu içirlər. Bu qan və süd qarışığı onlar üçün olduqca qiymətli qida hesab olunur.

Sonra ovçu maralı soymağa başladı və biz əti düşərgəyə gətirdik və onu bişirdikdən sonra bir neçə günlük aclığımıza son qoyduq. Evenk isə ət xörəyini

xirtdəyinə çatana qədər yedi, çünki bir də nə vaxtsa doyunca yeyəcəyi fürsətinin yenidən əlinə büşəcəyini bilmirdi.

Başqa bir hadisə isə evenkin hərəkətinin bəzi ekspedisiya üzvləri tərəfindən düzgün anlanılmaması ilə əlaqədar idi. İş yoldaşları olan qadın istirahətdən qayıtdıqda, Moskvadan özünün yeməsi üçün şokolad və peçenye alıb gətirmişdi. Bələdçi Yermolay bunları gördükdə, sahibindən icazə almadan şokoladı və biskviti iştahayla yeməyə başladı. Öz ehtiyatının azalmasından hiddətlənən qadın onu məzəmmət etmək istədikdə, biz onu sakitləşdirdik. Ona başa saldıq ki, bu xalqlarda özəl mülkiyyət anlayışı yoxdur, hər şey icmaya, onun bütün üzvlərinə məxsusdur. Axı biz özümüz də evenkin ovladığı maralın əti ilə qidalandıq. Bunun üçün isə biz ondan heç bir icazə almamışdıq. Hətta bunu etsək, evenkin təəccübünə səbəb ola bilərdik, sadəcə olaraq, o, bizi anlamazdı. Sənin özün üçün gətirdiyin şirniyyatı da hamıya məxsus olduğunu güman etdiyindən, o, icazə almadan  onları yeməyə başlayıbmış.

Geoloq qadın bu barədə lazımi təsəvvürə malik olmadığını etiraf edib, ağılsız hərəkətdən, evenki qınamaqdan onu yayındırdığımıza görə bizə minnətdarlığını bildirdi.

Lakin bu o demək deyildir ki, ibtidai insan hansısa davranış tərzinə bütünlüklə riayət edir. Təəssüf ki, bəzi tayfalar acgözlükdən və ya lazımi biliklərə malik olmadıqlarından, təbiətə ziyan vurmaqdan da çəkinmirlər.

Böyük fransız mütəfəkkiri Şarl Monteskyö özünün "Qanunların ruhu" kitabında yazır ki, Luizianadakı (Birləşmiş Ştatların cənubunda yerləşən müasir ştat, onu ilk dəfə fransızlar kəşf etmişdilər, yalnız Tomas Cefferson prezident olanda Napoleon həmin ərazini ABŞ-a satmışdı) hindu tayfası meyvəni yığmaq üçün ağacın gövdəsini kəsir, yerə yıxılan iri bitkinin üstündəki meyvəni toplayırdı. Bu hərəkətləri ilə, onlar sonrakı ili başqa meyvə ağaclarını axtarmalı olacaqdılar.

Digər ədəbi əsərlərdə də mədəni cəhətdən inkişaf etməmiş tayfaların üzvləri olan insanlarda da ibtidai insanın fərqli xüsusiyyətləri öz əksini tapır. Görkəmli rus səyyahı,  Ussuri regionunun tədqiqatçısı Vladimir Arsenyev ona bələdçilik edən yerli xalqın nümayəndəsi Dersu Uzala ilə yaxın dostluq edir və eyni adlı əsərində bu mükəmməl mənəvi dəyərlərə malik olan insanın obrazını yaradır. Ussuri bir qədər əvvəl, 1855-ci ildə Muravyov-Amurskinin diplomatik qabiliyyəti hesabına bağlanan Ayqun müqaviləsi ilə Çindən alınıb, Rusiya tərkibinə keçmişdi. Ona görə də bu naməlum diyarı idarə etmək üçün, onu yaxşı öyrənmək lazım idi. Bu məsələdə tədqiqatçı Arsenyevə bələdçi Dersu Uzala olduqca böyük köməklik göstərirdi. Bələdçi xeyirxahlığı, alicənablığı, etibarlılığı ilə səyyahı valeh etmişdi. Dersu öldükdən sonra da səyyah ona olan ehtiramını davam etdirmişdi.

Böyük yapon kinorejissoru Akira Kurosava obrazın təsiri altına düşərək, özünün incilərindən biri olan “Dersu Uzala” filmini yaratmışdı. Filmdə təhsil görməmiş bir insan, digər sivilizasiyalanmış adamlara öz münasibəti ilə mənəviyyat dərsi keçir.

Yaxud Ceyms Fenimor Kuperin “Sonuncu mogikan” əsərinin qəhrəmanı Çinqaçquk, Birləşmiş Ştatların şimalında yaşayan kiçik hindu tayfasının nümayəndəsi idi. O, bilirdi ki, ölkənin yeni sakinləri olan “solğun bənizlilər”, “qırmızıdərililər” adlandırdıqları hindulara insan kimi baxmayıb, onları rəhmsizcəsinə məhv etməyə çalışırlar. Onun özünə də “nəcib vəhşi adam” deyirdilər. Lakin o, özlərinə düşmən kimi baxan bu adamlara heç də pis hisslər bəsləmirdi, ümumiyyətlə, kin, nifrət hissi ona yad idi. Çinqaçquk igid döyüşçü kimi tanınırdı, öz tayfasının dilində “böyük ilan” demək idi, lakin onda insan təbiətinin hiyləgərliyindən, ilan kimi zəhər daşıyıcısı olmasından heç bir əsər-əlamət yox idi. Yalnız hər şeydən baş çıxardığına görə bu qəribə adı qazanmışdı. Onun oğlunu “solğun sifətlilər” öldursələr də, o, heç vaxt onlardan qisas almağa cəhd etmirdi.

Digər böyük amerikan qadın yazıçısı Harriet Biçer Stou 1852-ci ildə çapdan çıxan “Tom dayının koması” əsəri ilə məşhurlaşmışdı. Hətta on il sonra prezident Abraham Linkolnla teatrda görüşəndə, quldarlığa qarşı mübarizədə prezidentin xidmətlərinə görə razılığını bildirdikdə, Linkoln minnətdarlığın ona ünvanlandığını qeyd edərək, demişdi ki, siz romanınızla quldarlığa qarşı möhkəm cəbhə yaratmış və mübarizləri ən güclü vasitələrlə silahlandırmısınız.

Tom dayı yaşadığı illərdə qul tacirləri və qul sahibləri ilə təmasda olmuş, onlardan hər cür zülm görmüşdü. Lakin o, özünün xeyirxahlığını, dincliyə xidmət edən xasiyyətini dəyişməmiş, heç vaxt onların haqsızlığına cavab vermək barədə düşünməmişdi də. Qul sahibi onu fərasətinə və nüfuzuna görə qullara başçı təyin etmək istəyəndə, o, bu təklifdən imtina etmişdi, bilirdi ki, qul sahibi qulları idarə edəndən, onlara qarşı quduz xarakteri göstərməyi, öz iti kimi onları qapmağı tələb edəcəkdir. O, isə imkanı daxilində öz həmvətənləri olan zəncilərə hər cür köməklik göstərməyə çalışırdı.

Sevdiyi qadın ona qul sahibini öldürməyi, sonra qaçıb uzaqlaşmağı təklif etsə də, o, bundan imtina edir, qan tökməklə razılaşmır. O, hamının günahını öz üzərinə yıxmaqla, bundan agah olmasa da, iki min il sonra İisus Xrirst rolunu oynamağa çalışır.

Roman olduqca böyük populyarlıq qazandı. Birləşmiş Ştatlarda əsərin yüz minlərlə çap edilən tirajı qısa müddətdə satıldı. Kitab quldarlığa qarşı mübarizə aparan abolyutsionistlərin güclü silahına çevrildi. İngiltərədə isə qısa müddətdə

kitabın bir milyon nüsxəsi satıldı. 1863-cü ilin başlanğıcında ölkənin bütün ərazisində quldarlığın ləğv olunması, quldarlıqla öyünən Cənub ştatlarının da bu dözülməz bəla ilə məcburiyyət qarşısında vidalaşması kimi tarixi bir hadisə oldu. Lakin qara dərili afro-amerikanlara xoş olmayan münasibət hələ bir əsr də davam etdi və bu, Amerika Birləşmiş Ştatlarının siyasi və sosial nüfuzuna böyük ziyan vuran bir əlamət xarakteri daşıyırdı.

Yuxarıda adları qeyd olunan əsərlər heç də nadir hal sayılmamalıdır, sonrakı dövrlərdə də zəncilərin azadlıq uğrundakı mübarizəsi mühüm ədəbi mövzulardan birinə çevrildi. Afrikanın özündə gedən bu mübarizədən bəhs edən, yazıçı Piter Abrahamsın Cənubi Afrika Respublikasındakı dəhşətli aparteidə həsr olunmuş əsəri əsasında görkəmli Azərbaycan bəstəkarı Qara Qarayev "İldırımlı yollarla" baletini yaratdı və bu əsər SSRİ-nin əsas teatrlarında tamaşaya qoyuldu. Zəncilər ictimai və sosial həyatda nə qədər haqsızlıqlar görsə də, bədii əsərlər bu adamların cazibədar obrazını yaratmaqla, onların ağır vəziyyətini, istismara və təhqirlərə məruz qalmasını bütün dünya qarşısında açıb göstərdilər. Əgər afrikalı zənci məşhur heykəldə qolları zəncirlə buxovlanmış təsvir edilmişdisə, ədəbi, kino və teatr əsərləri bu qandalı bütünlüklə qırıb dağıtmaq yolunda əvəzolunmaz xidmət göstərmişdi.

**İbtidai insanın şəraitə uyğunlaşması qabiliyyəti**

İbtidai insan həm soyuq, həm də qızmar isti ilə xarakterizə olunan sərt iqlim şəraitində yaşasa da, özünün sağ qalması, həm də nəsli artırmaq xatirinə yaşayışında da, qidalanmasında da, bütün çətinliklərə baxmayaraq, mövcud şəraitə uyğunlaşmalı olur. Şimalda yaşayan və əhalisinin seyrəkliyi ilə seçilən xalqlar, məsələn Finlandiyadakı Laplandiyada yaşayan saamlar , Qrenlandiyadakı eskimoslar və ya Maqadanda yaşayan çukçalar 40-50 dərəcədə olan uzunmüddətli şaxta şəraitində də yaşamağı bacarmışlar. Onlar qida üçün iqlimə daha sərfəli olan dəniz heyvanları ovlayıb yeyirdilər. Balinanın və ya morjun piyi, həm də faydalı mikroelementlərin bolluğu ilə fərqlənən qızıl balıqla qidalanma, şəraitin tələb etdiyi xəz paltarı geyinilməsi ilə birlikdə onu soyuqdan qoruyurdu. Çukçaların mənzil kimi tikdikləri çumlar da, yaxud eskimosların iqluları onda yanan istinin saxlanmasına şərait yaradırdı. Onlar həm də ovladıqlarınının çiy şəkildə yeyilməsinə üstünlük verirdilər, bu qidada olan vitaminlərin və digər faydalı elementlərin itkisinə yol vermədən, onun çiy-çiy istehlak edilməsi ən düzgün qidalanma seçimi idi. Bişirildikdə isə ətdəki bu maddələrin arzuolunmaz itkisi baş verir. Yakutlar və Şimalda yaşayan digər etnoslar ovladıqları bəzi balıq növlərini

şaxtalı açıq havada qoyub saxlayırlar, stroqanina adlandırdıqları çiy balıq şaxtada donmaqla, çox ləzzətli dada yiyələnir və ağızda dondurma kimi xoş təsir bağışlayır.

Şimalda işləməyə və daimi yaşamağa gedən mütəxəssislər və ailə üzvləri, onların arasında azərbaycanlılar da az deyildi, xəstələnməmək və zəifləməmək üçün yerli xalqların həyat tərzini təkrar etməyi qəbahət saymamalı idilər. Onlar keçmiş mətbəx qaydalarını davam etdirsələr, bu onları qidada faydalı elementlərin çatışmazlığı və xəstəliklərlə üzləşdirəcəkdi. Ona görə də öz əvvəlki yemək hazırlamaq qaydalarını unudub, yerli sakinlərin qidalanma qaydalarına keçmək vacib sayılırdı.

Məşhur bir etnoqraf qeyd etmişdi ki, şimalda yaşamağa gələnlər üçün ən mühüm qayda yerli adamların qidalanması və paltar geyinməsi qaydasını qəbul etməkdir. Çünki şimalda yaşayanlar bunu öz şəxsi həyatlarında sınaqdan keçirməklə, daha yararlı olduqlarına əminlik tapmışlar. Buraya yeni gələnlər qəflətən xəstələnmələrini istəmirdilərsə, soyuq iqlimin tələbatını bütünlüklə nəzərə alan yerli əhalinin yaşayış qaydalarına ağız büzməməli, onları öz həyat şəraitlərində tətbiq etməklə, mühitə uyğunlaşmaq yolunu seçməlidirlər. Sərt şaxta heç kəsə güzəştə getmir, ondan qorunmağın vacib şərt olduğunu adamlar unutmamalıdır. Yerli sakinlərdən qidada və paltarda fərqlənmək istəyi, yeni sakinlərin həyatında çətinliklər yaratmasına görə, əslində, qidaya və xəz paltarı geyinməyə öyrənməyi tələb edir, bunu anlamayanlar öz sağlamlıqlarına zərbə vurmaq kimi ağılsız rəftara üstünlük verməklə, özlərinə ağır problemlər yarada bilərlər. Bizim ölkəmizdə isə uca dağlıq ərazidə yaşayanların həyat tərzi və geyimi də aranda yaşayanlarınkından tam fərqlidir. Murov dağında və ya Xınalıqda yaşayanlar mövsümdən asılı olmayaraq daim isti paltar geyinməli olurlar.

Digər böyük bir etnoqraf apardığı elmi müşahidələr nəticəsində belə qərara gəlmişdi ki, insan soyuğun və istinin birlikdə təsirini nəzərə almaqla, 80 dərəcəlik amplitudada olan iqlim dəyişikliyinə dözə bilər. Müvafiq olaraq əgər 40 dərəcə şaxtaya dözürsə, 40 dərəcə istiyə də davam gətirə bilər. Bu mütənasiblik həmin hədd daxilində dəyişə bilər, lakin hər ikisinin cəmi 80 dərəcəni ötüb keçməməlidir. Bədənin temperaturu normal həddi ötüb keçdikdə diskomfort yaradırsa, o daha da böyüsə, orqanizmin xəstələnməsindən xəbər verir. Etnoqrafın müəyyən etdiyi şkaladan artım qaydasında kənara çıxmaq, insan orqanizminə olduqca mənfi təsir göstərə, onu ağır xəstəliyə düçar edə bilər.

Adətən, sərt şaxtaya öyrənmiş adam azacıq mülayim istidə də özünü yaxşı hiss etmir və havanın pis olduğundan şikayətlənir. Moskvada yaşayarkən Yakutiyadan olan rus mənşəli dostum ailəsini də paytaxtda yaşamağa gətirmişdi, Şimalda işləməyə görə yüksək maaş alması ona bunu etməyə maddi cəhətdən

imkan verirdi.  Oğlu bir dəfə 17 dərəcə şaxtada və azacıq qar yağanda nazik köynəkdə həyətdə futbol oynadıqdan sonra  otağa girəndə, istidən tərlədiyindən şikayətləndi, bu mənim təəccübümə səbəb oldu. Dostum isə izah etdi ki, oğlu 40-50 dərəcə şaxtada daim məktəbə gedirdi. Bəzən binaları istiliklə təmin edən stansiya şaxtanın sərtliyindən qəzaya uğradıqda, küçədəki soyuğun hesabına otaqda da temperatur xeyli aşağı düşsə də, biz buna öyrənmişdik və xəstələnmirdik də.

Smolenskdən olan başqa bir dostumun həmin şəhərdə qonağı olanda, hörmət əlaməti olaraq birlikdə onun kənddə yaşayan valideynləri ilə görüşə getdik.Qoca valideynlər, ikisinin də həkim olduğu qızı və kürəkəni ilə bir yerdə  yaşayırdılar, həm də olduqca sadə həyat tərzinə malik idilər.  Mən qonaq otağında özümü pis hiss etməyə başladım, soyuq məni haldan salırdı.Dostumun  atası dedi ki, o, otaqları yalnız 11 dərəcəyə qədər qızdırır. Bina odun yandırılması ilə işləyən istilik sistemi vasitəsilə nail olurdu. Sistemdəki su yalnız ev sahibinin müəyyən etdiyi temperaturda istilik verirdi. Ev sahibi belə sərt qaydanın səbəbini də açıqladı, bildirdi ki, o, satın aldığı müəyyən miqdardakı odun ehtiyatına malikdir, otaqlara normal 18-20 dərəcə istilik vermək istəsə, daha çox odun yandıracaq və qışı başa vurmamış bu ehtiyat tükənəcəkdir. Onun isə daha çox odun almağa maddi imkanı yoxdur, ona görə də otaqlardakı öyrəşdikləri temperaturla kifayətlənməli olurlar. Açığı, otağın belə soyuq olması məni təəccübləndirsə də, anladım ki, bu kəndli ailəsi öz maddi imkanları daxilində hərəkət etməlidir. Əlavə odun almağa sərf olunan pul, ailənin qidalanması üçün ərzaq alınmasına xərclənən məbləğin xeyli azalmasına və ailənin adəti rasionunun pozulmasına səbəb ola bilərdi.

Lakin bir müşahidəm də mənə olduqca paradoksal görünürdü. Moskvada bizimlə birlikdə çox sayda afrikalı, kubalı, suriyalı və Yəməndən olan tələbələr oxuyurdu. Onlar ruslara və bizə nisbətən yüngül geyinirdilər və heç vaxt soyuqdan, şaxtadan şikayət etmirdilər. Onlar soyuğa dözümlülükləri ilə SSRİ-nin cənubunda və mərkəzində yaşayanlardan xeyli dərəcədə seçilirdilər. 40-50 dərəcə istidə yaşamağa öyrənmiş bu adamları 20-30 dərəcə şaxta qorxutmurdu. Onların soyuqdəymədən xəstələnmələri də nadir hallarda baş verirdi. Bu adamların dözümlülüyü, etnoqrafin, yuxarıda gətirdiyim mülahizəsini bütünlüklə təsdiq edirdi.

İbtidai insan hətta sadə biliklərə malik olmasa da, özünün yaşaması və nəslini artırması üçün təbiətlə harmoniyada olmağa üstünlük verirdi, ona təzyiq göstərmək fikrindən uzaq olduğu kimi, onun dilsiz təklif etdiyi qaydalara tabe olmağı da özü üçün qəbahət saymırdı. Əslində, onun təbiətə təzyiq göstərmək, onun güclü fəaliyyətinə hansısa bir düzəliş etmək imkanı da məhdud idi və bu,

əslində, onların arasındakı harmoniyanın pozulmasına imkan vermirdi, onu qoruyub saxlayırdı.

Təbiətin bir hissəsi olan insan, onu həyata gətirən və yaşadan bu universal varlığa tabe olmaqla, əslində, özünü qoruyurdu, nisbətən normal həyat şəraitinin pozulmasına, dağılmasına imkan vermirdi. Harmoniya həm insanı, həm də ən başlıcası, təbiəti razı salırdı, insanın ona arzuolunmaz müdaxiləsinə görə, təbiət ondan qisas almaq da istəmirdi. Çünki təbiətə müdaxilə, onun qaydalarını pozmaq cəhdi, təbiət üzərində hökmran olmaq istəyi tam əks effekt verməklə, insanın özünə daha ağır zərbə vurmuş olur

Lakin insan getdikcə öz yaşayış şəraitini yaxşılaşdırmağa çalışırdı, təbiətin ona verdikləri ilə kifayətlənməyib, əməyini sərf etməklə nisbətən daha rahat mənzildə  ömür sürmək istəyirdi. Bu vaxtadək onu soyuqdan və istidən qoruyan, lakin qaranlığı və rütubəti onu razı salmayan mağaranı tərk edib, yerin üstündə özünə ev tikmək, bu yeni məkanda yaşamaq yolunu seçdi. Bundan sonra o, şəhər salmağa başladı. Daş dövrü ilə vidalaşanlar bu sahədə xeyli irəli getdilər. Tarixin başlanğıcından isə şəhər-dövlətlər meydana gəldi, insan biliklərə yiyələnməyə can atdı, əsl kreativlik və novatorluq xüsusiyyətlərinə yiyələndi. Konqitiv inqilab onun təfəkküründə ciddi dəyişiklik əmələ gətirdi.

Aqrar inqilab nəticəsində isə insan özünü ərzaqla təmin etmək üçün bitkiçilik və heyvandarlıq məhsulları istehsal etməyə başladı. Ovçuluq, xüsusən balıq ovu,  bitkilərin meyvələrini və köklərinin toplamaq bütünlüklə unudulmasa da, ərzaq ehtiyatının əsas mənbəyi istehsal sahəsinin üzərinə keçdi. Aqrar sahənin inkişafı, kənd təsərrüfatı istehsalının genişlənməsi insanın yaradıcılıq səviyyəsinin də yüksəlməsinə yol  açdı. Əvvəllər məlum olmayan yeniliklər tətbiq edilməklə, istehsalın nəticəliliyi xeyli yüksəldi. VIII əsrdən İspaniyaya gələn və əsasən mavrlar timsalındakı ərəblər bu yeni Avropa ərazisində suvarma əkinçiliyini tətbiq etməyə başladılar. Onlar özləri ilə yeni texniki vasitələr də gətirmişdilər.  İlk dəfə olaraq,  suyu hündür səviyyəyə qaldırmaq üçün onlar burada da s u çarxlarından istifadə etməyə başladılar. Şəhərlər salınmağa başlandıqdan sonra isə, onlar sənətkarlığın genişlənməsinə, ticarətin inkişafına da güclü təsir göstərdilər.

Konqitiv inqilab idrakda ciddi dəyişiklik yaratdığı kimi, Aqrar inqilab da istehsalın inkişaf etdirilməsi ilə yanaşı, insanın əmək qabiliyyətini də xeyli yüksəltdi. İnsanın təbiətdən asılılığı nisbətən zəiflədi, məhsul istehsalı prosesi həm də onda məşğul olanların əməksevərliyinə, çəkilən zəhmətin yaradıcı xarakter daşımasına güclü təkan verdi.

Bəşəriyyət cəmiyyətin təşkilinin yüksəlməsi yoluna qədəm qoymaqla, elmin və texnikanın inkişafına da qayğı göstərməyə başladı, çünki istehsalın miqyasının

böyüməsi həm də xüsusi bilik və texnoloji ustalıq tələb edirdi. Bu inkişaf gələcəyə istiqamətlənmişdi, uzun tarix ərzində müəyyən fasilələrin mövcudluğu baş versə də, onun ardıcıl davam etdirilməsi dayanmadı, proses, cəmiyyətdən yeni zirvələrə qalxmağı israrla tələb edirdi.

## Digər canlı aləm – flora və fauna da təbii şəraitə uyğunlaşır

Təbii şərait təkcə insana yaşamaq üçün sığınacaq vermir, həm də onu qida ilə təmin etməkdə mühüm rol oynayır. İbtidai insandan fərqli olaraq, sonrakı nəsillər təkamül nəticəsində məhsul istehsalına keçməklə, öz təminatını xeyli yaxşılaşdırsa da, bu sahədə də işlərin gedişi təbiətin iştirakı olmadan baş vermir. Becərilən bitki və heyvan öz məhsulu ilə insanın yaxşı qida təminatına şərait yaradır. Bitkilər harada bitməyindən asılı olmayaraq karbon qazını udub, atmosferə oksigen buraxırlar. Oksigen isə insanın və faunanın yaşaması üçün başlıca şərtdir. Oksigenlə nəfəs alma kəsildikdə, qanın qidalanması və bunun nəticəsində həyatın davam etməsi dayanır. Bitkilər həm də məməlilər üçün vitamin bolluğu ilə seçilməklə, əvəzolunmaz qida mənbəyidir. Görkəmli rus bioloqunun dediyi kimi, tərəvəz insanın qidalanmasının musiqisidir.

Bitkilər və heyvanlar da təbiətin məhsulu olduğundan, onun güclü təsirinə məruz qalır. Bir sıra ərzaq bitkiləri yalnız isti iqlimdə yetişir, istixanalar istisna olmaqla, şimal regionlarında bir sıra meyvə və tərəvəz növlərini istehsal etmək olmur, oradakı əhali yalnız yabanı giləmeyvələri toplayıb, onları istehlak edirlər, həm də ticarət vasitəsi ilə digər meyvə və tərəvəzlə təmin olunurlar.

Heyvan aləmi də, xüsusən məməlilər təkcə hərarətə münasibətdə deyil, həm də özünün qida ehtiyatına çox həssasdır. Bu qida olmasa, onlar yaşaya və nəsil artıra bilməzlər. Afrika savannalarında müxtəlif vegetarian sayılan heyvan sürüləri dolaşır və ərazi onları ot bitkiləri ilə təmin edir. Oradakı heyvanlar qidalanmalarına görə stenofaq, yəni oxşar bitkiləri yeyənlər sayılırlar. Əslində isə onlar başqası üçün olandan fərqli bitkiləri yediklərindən, bir-birilə yem rəqabətinə girmirlər. Antilopa qnu sürüləri və digər çox sayda antilopa növləri torpaqda bitən, azacıq baş qaldıran otla qidalanırlar. Fillər daha iri bitkiləri və ağac yarpaqlarını, zürafələr isə akasiyanın hündürlükdəki yarpaqlarını yeyirlər. Beləliklə, hər heyvan növünün öz yem mənbəyi vardır. Yaxşı qidalanan ot yeyən heyvanlar isə yırtıcılar üçün ət anbarı rolunu oynayırlar. Onların çoxluğu və köklüyü yırtıcıların da yaxşı qidalanmasına şərait yaradır. Göründüyü kimi təbiət öz yaratdığı heyvan növlərinin –həm otyeyənləri və həm də ətlə qidalananları bol yemlə təmin etməyə çalışır. Quraqlıq dövründə otun yoxa çıxması ilə antilopa qnu sürüləri yem otlaq

tapmaq üçün kütləvi şəkildə köç etməyə məcbur olurlar. Yağış mövsümü başladıqda bu, onlar üçün bayram xarakteri daşıyır və doğma yurdlarına dönürlər.

Heyvan aləmini yaradan təbiət həm də onu yemlə təmin etmək qayğısına da qalır. Bəzi həşaratların yedikləri yem növlərinə inanmaq çətin olsa da, onlar öz adəti qidalarını istehlak etməklə kifayətlənib, normal ömür sürürlər. Şimal dənizinin sahillində məskunlaşan xırda qurdlar öz yemlərinə görə qum qurdu adlanırlar. Onlar qumdan başqa heç nə yemirlər. Bu nə qədər təəccüblü görünsə də, qumların tərkibində olan dəniz məhsullarının qalıqları onları zülalla təmin edir. Qurdlar udduqları qumu mədələrində filtrdən keçirib, faydalı olanları mənimsəyir, qumun süxur qatını isə ifraz edirlər. Yemin qidalılığından daha taxşı faydalanmaq üçün kövşəyən heyvanlar bu sahədə uğurlu metoddan istifadə edirlər Onlar mədələrindəki yem qarışığı məhlulundan maksimum fayda götürmək üçün yenidən onu əlavə çeynənmək üçün ağızlarına qaytarırlar və bu yolla yemdən başqa heyvanlara nisbətən daha yaxşı faydalanırlar. Atlar isə yedikləri arpanın bir hissəsini həzm edə bilmədiklərindən, onu udduqları qaydada da ifraz edirlər, ona görə də onlara verilən yemin səmərəliliyi xeyli aşağı düşür.

Bəzi heyvan növlərinin eyni ot bitkiləri ilə qidalanması ciddi problemlər əmələ gətirir. Ərazilərdə eyni bitkini yeməklə, bir-birini rasionuna şərik çıxan heyvanlar monofaq adlanırlar, onların arasında qida üstündə ciddi rəqabət gedir. Avstraliyada insanların müdaxiləsi ilə iki növ heyvan arasında yem üstündə belə məhvedici rəqabət baş verdi. Avstraliyanın, səhralar istisna olmaqla cənub və qərb ərazilərində saysız-hesabsız kenquru sürüləri otlayırdı. XVIII əsrdə ingilislər bura gəldikdən sonra, özləri ilə iki əsr əvvəl İngiltərədə çox inkişaf etmiş heyvan növü olan qoyunları da gətirdilər. XVI əsrdə parça və paltar istehsalı manufakturalarını yun xammalla təmin etmək üçün İngiltərədə qoyun becərilməsi böyük miqyas almışdı. Varlı torpaq sahibləri otlaq sahələrinin genişləndirmək üçün, yoxsul kəndliləri evlərindən qovub, bu sahələrdən də otlaq kimi istifadə edirdilər. Bu tədbir "çəpərləmə" adlanırdı. Böyük mütəfəkkir Tomas Mor bu haqsızlığı obrazlı şəkildə ifadə edərək "qoyunlar insanları yeyir" sözlərini yazmışdı. İnsanların həyatına qənim kəsilməklə, ot yeyən heyvan onların qatilinə çevrilmişdi. Qoyunçuluqdan torpaq sahiblərinin böyük gəlir götürdüyünü izah etmək üçün filosof yazırdı ki, qoyunun dırnağı dəyən qum dənəsi qızıla çevrilir.

İngilislər kəşf etdikləri və məskunlaşdıqları yeni qitənin böyük otlaqlara malik olduğunu nəzərə alaraq, buraya qoyunları gətirdilər. Bol yem şəraitində qoyun sürüləri artmağa, böyüməyə başladı. Bu isə kenquru üçün olduqca təhlükəli idi, onların yemini qoyunlar əllərindən alırdılar. Həm də qoyunların insan kimi himayəçiləri var idi, kenquru isə əhliləşdirilmədiyindən yalnız təbiətin köməyinə

möhtac idi. Eyni otla qidalanan iki heyvan növü bir-birinə düşmən kəsildi və kenqurulara ağır zərbə vurmamış qalmadı.

Quşlar və balıqlar da təbii şəraitə uyğunlaşırlar. Köçəri quşlar nəsli artırmaq üçün yayda şimala üz tuturlar, orada yumurtlayıb bala çıxarırlar. İsti ölkələrdə isə onların yumurtası bişər və nəsil artırılması kəsilərdi. Bəzi quşlar belə səfərləri üçün uca dağları da ötüb keçməli olurlar. Boz hind  qazları şimala gedib qayıdanda 4 km hündürlükdə, olduqca seyrək hava şəraitində Himalay dağlarının üstündən uçurlar. Antarktidada  sərt şaxta şəraitində milyonlarla pinqvin yaşayır. Onlar qida ilə təmin olunmaq üçün ömrünün 70 faizini su altında keçirir və mədələrinə topladığı balıqlarla və digər dəniz məhsulları ilə həm özünü, həm də balasını qida ilə təmin edir. Onlar dənizdən çıxıb, balasının yanına gəlmək üçün ağır və əziyyəli səfər etməli olurlar. Pinqvinlər daim bu olduqca soyuq qitədə yaşayırlar, köçəri quşlardan fərqli olaraq onlar nəsli artırmaq üçün əlverişli iqlim axtamırlar. Onlar cütləşdikdən sonra yumurta qoyur və yumurtalardan öz tüklərinin hərarəti ilə sağlam bala meydana gəlirirlər. Ən mühüm cəhət ondan ibarətdir ki, yumurta sərt şaxtada da donmur. Bunun səbəbi isə yumurtanın soyuğa davamlı olan zülallara malik olmasıdır. Təbiət, hətta sərt iqlimə davam gətirməyi bacarmaqla yanaşı, nəsl artırma xüsusiyyətinə də malik olan bu müdafiəsiz varlıqları, özünün icad etdiyi qəribə bir zirehlə təmin etmək qayğısına da qalır.

Kanadadan Meksikaya min kilometrlərlə məsafə qət edən monarx kəpənəkləri özlərini məhv etsələr də, nəsil artırmaq qayğısına qalaraq, yumurta qoyur, sayı milyonlarla olan öz növlərinin həyatının davam etməsinə nail olurlar. Bəzi balıq növləri nəsli artırmaq üçün kürü tökdükdən sonra ölürlər. Peçora çayındakı nalim adlanan balıq növü şirin suda kürü tökmək üçün Norveç sahillərindən min kilometrlərlə məsafədə olan həmin çaya üzüb gəlirlər.

Bitki aləmi öz mühitlərinin iqliminə görə çox sayda növlərə bölünürlər. Tropik meyvələr gətirən ağaclar şimal və mərkəzi ərazilərdə bitmirlər. Meyvələr öz növünü çoxaltmaq üçün, məsələn,  qarpız və ya avakado kimi əsasən  çox sayda tuma malik olur. Kokos qozu isə özündəki toxumu uzun müddət qoruyub saxlaya bilir, sahildən dığırlanıb suya düşdükdə okeanı da üzüb keçir, dalğanın atdığı adada torpaqda kök atıb, meyvə verməyə qadir olan yeni bitki əmələ gətirir. Deməli, təbiət hər bitkini nəsil artırmasını da xüsusi qaydada nizamlayır. Boğaz dişi heyvanın  bətndəki balaya təhlükə törənməməsi üçün erkək heç vaxt ona cütləşmək məqsədi ilə yaxınlaşmır. Balanın qorunması naminə təbiət heyvanların cütləşməsi vaxtını müəyyən dövrlə məhdudlaşdırır və belə nizamlama nəsli manesiz artırmağa şərait yaradır.

Təbiət həm də heyvanların nəsil artırmasını qida ilə təmin olunmağa uyğun olaraq nizamlayır. Siçovullar yem ehtiyatı azaldıqda, bala vermələrini də əsaslı

qaydada ixtisar edirlər. Təbiət təkcə heyvanları qida ilə təmin etmir, bu qidaların faydalılığı qayğısına da qalır. Vəhşi yırtıcılar ovladıqları otyeyən heyvanların əti ilə yanaşı, onlardakı lazım olan faydalı metalların mikroelementləri ilə və digər maddələrlə təmin edilirlər. Məşhur ingilis zooloqu, bütün qitələrdəki ekzotik heyvanlar barədəki qiymətli kitabların müəllifi Cerald Darrel öz ölkəsində yaratdığı zooparkda bu müddəanın əsaslı olduğuna yəqinlik tapmışdı.. O, saxladığı şiri və pələngi ət kombinatından gətirilən keyfiyyətli ətlə qidalandırırdı, bir müddətdən sonra onların arıqladığını, zəiflədiyini müşahidə etdikdə, veterinar bildirdi ki, onlar təbii şəraitdə ovlarını bütünlüklə, buynuzları və iri sümükləri istisna olmaqla, istehlak edir, lazım olan bütün mikroelementləri dəridən, tükdən, sümükdən  qəbul edirlər. Sən isə onları hazır qaramal cəmdəyi ilə qidalandırırsan. Bundan nəticə çıxaran Darrel yırtıcılara dərisi soyulmadan öldürülmüş mal əti yedizdirdikdən sonra vəziyyət dəyişdi və şir və pələng əvvəlki kondisiyalarına qayıtdılar.

Leşlə qidalanan heyvanların yırtıcılara nisbətən az əziyyət çəkdiyi güman edilir, çünki şirin ya pıləngin qızmar istidə antiopaları qovub ovlamaq cəhdi çox hallarda uğursuz olur və onları taqətdən salır. Leş yeyənlər- kaftarlar və kaftar itləri isə diri heyvanları ovlamaqla məşğul olmurlar. Lakin bu, onların həyatının heç də yüngül keçdiyinə dəlalət etmir. Əgər onlar ucsuz-bucaqsız savannada yalnız ayaqlarınən gücü  hesabına leş axtarsaydılar, taqətdən düşər və çox hallarda ac qalardılar. Təbiət onlara asan çıxış yolu da göstərmişdir. Onlar daim gözlərini səmaya, uçan qriflərə (keçəl kərkəslərə) tərəf tuturlar, bilirlər ki, onların özü kimi leşlə qidalanan bu quşlar uçduqları  hündürlükdən artıq leşin harada olduğunu bilir və həmin istiqamətə yönəlirlər. Kaftarlar və kaftar itləri də aşağda hərəkət etməklə, onların arxasınca gedib, az sonra leşin olduğu yerə gəlib çıxır və bu ziyafətə qoşulurlar. Qriflər onlar üçün özləri də bilmədikləri halda, kəşfiyatçılıq vəzifəsini yerinə yetirirlər.

Yırtıcı heyvanlara da münasbət heç də birmənalı deyildir. Guya onların ot yeyən fauna növlərini qırmaqla, kökünü kəsməsi barədəki çoxdan geniş yayılmış stereotip çox hallarda aparıcı rol oynayır. Bu mülahizə əsassız olmaqla, dəqiq deyilsə,sadəcə olaraq, onların üzərinə atılmış böhtan xarakteri daşıyır. Aparılan elmi təcrübələr bu ideyanı bütünlüklə inkar edir. Yırtıcı heyvanlar- şir, pələng, canavar iri və sağlam heyvanları ovlamaqda əksər hallarda uğur qazanmırlar, onlar adətən yalnız xəstə və qocalıb taqətdən düşmüş, bəzən isə körpə və sürüdən ayrılmış heyvanları ovladıqda uğur qazanırlar. Afrika savannalarında şirlər vəhşi camış sürüsünə, ABŞ preriyalarında isə canavarlar  bizon sürüsünə hücum etməkdən çəkinirlər. Camışların iri buynuzu, hücum edən şiri havaya tullayb, yerə çırpmaqla öldürməsə də, ağr yaralayır və onları öz ağılsız məqsədlərindən

uzaqlaşdırır. Bizonların isə ağır çəkisi onlara hücum edən canavarları ruhdan düşməyə məcbur edir.

Bir vaxtlar canavarların maralları guya kütləvi şəkildə ovlaması nəticəsində onların sayının kəskin azalması barədə ideya geniş yayılaraq, bu yırtıcıları tamam qırmaq çağırışlarına səbəb olmuşdu. Bunun ekosistemə ağır zərbə vuracağı ehtimalı qətiyyən nəzərə alınmırdı. Təbiətşünas Farli Mouett buna qarşı səsini qaldırıb, bildirdi ki, canavarlar nəinki maralları qırmırlar, əsasən xəstə olanları ovlamaqla, onların bu xəstəliklərə kütləvi sirayətlənməsinin qarşısını alırlar. Beləliklə onlar maral sürüləri üçün əsl sanitar rolunu oynayırlar. Fikrini tamamilə əsaslandırmaq üçün o, canavarların əsasən gəmiricilərlə qidalandığı ideyasını irəli sürdü. Birləşmiş Ştatların şimalında və Kanadanın cənubunda marallar yaşayan ərazilərdə isə cəmiricilər saysız-hesabsız idi. Öz elmi ideyasını təcrübə qaydasında sübut etmək üçün o, maralların və canavarların bol olduğu ərazidə yaşamağa yollandı. Mouett 6 ay ərzində canavar yuvasının lap yaxınlığında çadırda yaşamaqla, onların qidalanmasını və həyat tərzini müşahidə etdi. Təcrübə onun ideyasını bütünlüklə təsdiq etdi.

Lakin əleyhdarlarını inandırmaq üçün o, özü də canavarlar kimi siçanlarla qidalanmğa keçdi. Bir müddətdən sonra arıqladığını hiss etdi və bunun səbəbini tapdı. O, siçan ətini xörək kimi hazırlayanda, onun mədəsini çıxarıb atırdı. Siçanın piyi isə yalnız onun mədəsində olduğundan, o, özünü piy qəbul etməkdən məhrum etmişdi Canavarlar isə siçanı bütöv yeyirlər, ondan xörək hazırlamaq onlar üçün yaddır. Mouett siçanın mədəsini də yeməklə, əvvəlki normal kondisiyasına, əhval-ruhiyyəsinə qayıtdı.Təcrübə uğurla nəticələndi, canavarların qidalanmasının başlıca mənbəyinin gəmiricilər olduğu faktı, müçahidə vasitəsilə öz təsdiqini tapdı. Canavarları məhv etmək çağırşına, bu məsələnin düzgün elmi məhvərə qaytarılması siyasəti ilə son qoyuldu Təbiətçünas macəralarla müşayiət iolunan öz elmi tədqiqatını “Qışqırmayın, canavarlar diksinər” –(“ Ne kriçite, volki”) adlı maraqlı kitabında geniş nəql etmişdir..

Bu misallar da göstərir ki, təbiətin öz yaratdıqlarını həm də zəruri yemlə təmin etməsi sahəsindəki qayğıkeş işini yaddan çıxarmaq olmaz. Təbiət həm faunaya və həm də floraya öz əvəzolunmaz təsirini göstərir, axı heç bir istixana, bitkilər üçün günəş enerjisini əvəz etmək qüdrətinə malik deyildir. İstixana meyvəsi və tərəvəzi açıq planyasiyalarda yetişdirilənlərin dadını vermir. Ona görə də biz ana təbiətin fəaliyyətini lazımınca qiymətləndirməklə, onun məhdudlaşmasına yol verməməliyik.

## Bəşəriyyətin inkişafının tarixi mərhələləri

Hər bir iqtisadi formasiya özünəməxsus inkişaf yolları və üsulları seçsə də, bu prosesin kəsilməsinə imkan vermədi. Quldarlıq əzablı qul əməyinə əsaslansa da, bu dövrdə təkcə aqrar istehsal deyil, elm, texnika, texnologiya da inkişaf etməyə başladı, şəhərlərdə arxitektura inciləri meydana gəldi. Feodalizm torpaq üzərindəki mülkiyyətə əsaslanmaqla, torpaq sahiblərinin nüfuzunun böyüməsinə, dövlətin isə əvvəlki sərt idarəetmə imkanlarından uzaqlaşmasına gətirib çıxardı. Regionların knyazlar tərəfindən idarə olunması daha böyük rol oynamağa başladı. Onların geniş səlahiyyətlərə yiyələnməsi, kral üsul-idarəsinin nüfuzuna ağır zərbə vurdu. Feodalizm öz imkanlarını məhdudlaşdırdığından, şəhərlər və sənaye mərkəzləri meydana gəldi.

## Orta əsrlərdə baş verən hadisələr

Xalqlar Orta əsrlərə qədəm qoysa da, geriliyi yada salan ənənələrdən uzaqlaşmırdılar. Məsələn, german tayfaları bütün bu dövr ərzində ağacları müqəddəs hesab edib, onlardan hətta fermerlər üçün ev tikilməsi məqsədi ilə istifadə edilməkdən ötəri kəsilməsinə də müqavimət göstərirdilər. Hətta xristian dininə çevrilmə də onların münasibətini bütünlüklə dəyişdirə bilmədi.

Feodal torpaq sahiblərinin idarəçiliyi, onların dövlətə tabeliyini xeyli zəiflətdi. Yeni torpaqların istifadəyə verilməsi də xüsusi çətinliklər yaratdı. Meşələri təmizləmək, bu torpağı əkin üçün hazırlamaq  asan iş deyildi. Avropanın şimalındakı ağır torpaq heç də yüngül başa gələn qaydalarla və vasitələrlə şum edilmirdi. Kənd təsərrüfatı metodları da həmçinin vacib məhsul götürməyi artırmaq əleyhinə işləyirdi. Hər sonrakı ildə şumu herik şəklində dincə qoylması tələb olunurdu ki, torpağın münbitliyi yüksəlsin. Lakin hətta bunlar edildikdə də aşağı ölçüdə məhsul istehsal edilirdi. Götürülən məhsul səpilən toxumun miqdarından yalnız iki dəfə çox olurdu. Erkən Orta əsrlərdə iqlim də bol yağışlı və soyuq olması ilə seçilirdi. Götürülən az məhsulun da bir hissəsi pis illər üçün ehtiyat kimi saxlanırdı. Ona görə də bu dövr həyat səviyyəsinin aşağı olması ilə seçilirdi. Bu səbədən Avropada əhali də seyrək idi. Belə şəraitdə dövlətlərin də parçalanması asanlıqla gedirdi. Yalnız Yeni Dünyanın kəşfindən sonra oradan gətirilən və daha çox məhsul verən qarğıdalının cənub zonalarında səpilməsi ilə ərzaq probleminin həllində nisbətən müsbət dəyişiklik əmələ gəldi.

Aqrar sahədəki vəziyyət lordlar və vassallar dünyasının yaranmasına səbəb oldu. Vassallıq praktikası german cəmiyyətindən götürülmüşdü, onlarda  adamlar döyüşlərdə öz liderlərinə loyal olmaq barədə and içirdilər. Onlar həmin başçılar

üçün vuruşurdular. Bunun əvəzində isə onlara möhtac olduqları himayə göstərilirdi. Sonra fərdlər öz lordlarına hərbi bacarıqları ilə xidmət göstərirdilər və bunun icraçıları vassal kimi tanınırdı. Hökumətlərin yıxılması ilə qüdrətli kübarlar iri torpaq sahələri üzərində nəzarəti ələ keçirirdilər. Onların özləri də döyüşən adamlara ehtiyac duyurdular, bu məqsədlə vassallarına torpaq mükafatı verirdilər. Bunun əvəzində lordların torpaqları üçün  onlar vuruşmalı idilər.

Frank ordusu başlanğıcda piyada əsgərlərə malik idi, onlar qılıncla silahlanır, sonra atla təmin edilirdilər. Bir müddət sonra isə atlılar nizələrə yiyələndilər. Avropada beş yüz il ərzində döyüşdə ağır silahlanmış süvarilər ağalıq edirdi. Bunlar artıq rıtsarlar adlanırdı. Rıtsarı at belində olmadan təsəvvür etmək mümkün deyildi, çünki ağır zirehli paltarlarına və silahlarına görə, onların çəkisi 40 kq.-a çatırdı, rıtsarlar sadəcə piyada gəzməkdə də çətinlik çəkirdilər. At belində isə onlar vuruşmağa qadir olurdular.

Dövlətin parçalanması nəticəsində azad fərdlər arasında yeni tip şəklindəki münasibətlər meydana gəldi. Hökumət öz təbəələrini müdafiə etməyə qadir olmayanda , bu vəziyyət qüdrətli lordların – torpaq sahiblərinin üzə çıxmasına şərait yaratdı və onlar adamlara öz himayələrini təklif etdilər. Lordlarla fərdlər arasında sosial təşkilat qaydasında bağlanan müqavilə tarixdə sonralar feodalizm adlandı. Lakin feodalizm heç vaxt sistemə çevrilmədi, ona görə də bu günkü tarixçilər bu termini işlətməkdən imtina edirlər.

Vassallara verilən torpaq və digər növ mükafatların əvəzində onların hərbi xidmətləri, onun ünvanını nəzərə alaraq, feodal malikanəsi və ya len adlanırdı. Lord – vassal münasibəti azad adamla asılı adamın ittifaqı idi. Həmin vaxtdan frank kralları öz təbəələrinə himayə göstərə bilmirdilər. Lord diktatora çevrilməklə, torpaq sahibliyi bilavasitə hökumət hüquqlarına yiyələndi və bu, geniş yayıldı. Kralların nüfuzu olduqca aşağı düşdü, onlatı saymırdılar.  Bir dəfə hansısa knyaz, Fransa kralına təzim etdikdə, badalaq vurub, istehza naminə onu qəsdən yıxmışdı.

Torpağa sahib olan malikanələrdə işləyənlər kəndli sinfi idi. Lordlar kəndliləri himayə edirdilər, onları hətta azadlıqdan məhrum etmək kimi cəzalandıra da bilirdilər. Kəndlilər lordlara xidmət göstərməklə, onlara bağlı olurdular.

Yeni Avropa sivilizasiyası IX və X əsrlərdə meydana gəldi. Texnoloji dəyişikliklər də kənd təsərrüfatının genişlənməsini sürətləndirdi. Onların çoxu dəmirdən istifadədən asılı idi, dəmir filizi isə mədənlərdə çıxarılırdı və tapılmadığı ərazilərə satılırdı. Aralıq dənizi zonasındakı kotan və yüngül kotan ağacdan hazırlandığından tez qırılırdı. Onlardan ancaq yüngül torpaqlarda istifadə olunurdu.

Ağır kotan isə dəmirdən hazırlanırdı, adi eşşək və ya at tərəfindən dartılırdı. Ağır torpaqlarda isə kotana öküz qoşulurdu.

Kəndlinin həyatı çətinliklərlə dolu idi. O, ilin mövsümündən asılı olaraq müvafiq işləri görürdü. Hər mövsüm dövrə lazım olan tapşırıqlara malik idi. Bəzi mövsümlər daha ağır işləməyi tələb edirdi. Kəndlilərin pəhrizi çörəkdən, bəzi hallarda bişirilən yarma sıyığından ibarət idi. Məhsul onun ərzaqla təminatında xüsusi əhəmiyyət daşıyırdı, bu vaxt qış üçün ehtiyat torlamaq da lazım gəlirdi.

Erkən Orta əsrlərdə (754–1000-ci illər) Avropa sivilizasiyasında antik dövrdən fərqli olan hadisələri meydana gətirdi. Bu erada fiziki mühitin başlıca xüsusiyyətləri özünü büruzə verdi. Fransadakı Karoliqlərin hakimiyyəti ilə yanaşı, Avropada siyasi, intellektual və gündəlik həyatda gedən dəyişikliklər həm də Qall, Roman, German və Xristian praktikasından xəbər verirdi. Feodal torpaq sahibliyi hüququ ilə birlikdə lordlar və vassallar dünyası aparıcı mövqeyə yiyələnmişdi.

Bizans sivilizasiyası öz inkişafının zenitinə çatdı. Hələ VI əsrdə onun imperatoru olmuş Yustinian Konstantinopolun abadlaşıdırılması üçün çox işlər görmüşdü. O, bilirdi ki, ondan iki əsr əvvəl bu yeni paytaxtı tikdirmiş və öz adı ilə adlandırmış imperator Konstantin bütün ümidlərini bu şəhərə bağlamışdı Yustinianın təşəbbüsü ilə Aya Sofiya kimi min illər ərzində insanları heyran etməyini kəsməyən və mükəmməlliyi ilə seçilən bir məbəd tikilmişdi. Lakin 541-ci ildə başlanan yeni xəstəlik – vəba epidemiyası apokalipsis təsiri bağışlayırdı. Şəhərdə xəstələnlərin 80 faizi ölmüşdü. Yustiniandan təkcə özünə bərabər tanımayan məbəd deyil, həm də böyük hüquqi dəyərə malik olan və onun adını daşıyan Kodeks irsi qaldı və Napoleonun Mülki Kodeksi də xeyli dərəcədə ona əsaslanırdı. Yustinian Kodeksi də hansısa boşluq şəraitində meydana gəlməmişdi, əsas müddəalarını Qədim Romanın XII Cədvəl qanunlarından əxz etmişdi. Köhnə Babistan çarı Hammurabi tarixdə ilk hüquqi kodeks yaratmaqla məşhurlaşdığı kimi, bu qiymətli sənəd Hammurabi Kodeksi kimi tanınır, Yustinian da öz adını daşıyan hüquqi məcəllə ilə böyük şəxsiyyət şöhrəti qazanmışdır..Sonrakı əsrlərdə Bizans imperiyasının inkişafı daha sürətlə getdi.

Mərkəzi və Şərqi Avropada Şərqdən gələn slavyan xalqları məskunlaşdılar. Bu dövrün ən mühüm hadisələrindən biri VII əsrdə İslam dininin meydana gəlməsi və İslamın sürətli ekspansiyası idi. Məhəmməd peyğəmbərin əsasını qoyduğu Xilafət işğallar hesabına getdikc\ böyüdü, İslam dini Asiyada və Afrikada geniş yayılmaqla, İspaniyanın timsalında Avropaya da ayaq açdı. Katolik dünyasından fərqli və daha uğurlu inkişaf edən İslam sivilizasıyası meydana gəldi.

Ədəbiyyatda isə sonralar, daha dəqiq deyilsə, XII əsrdə fiziki hissiyyata həsr olunmuş Trubadur poeziyası yeni bədii cərəyan təsiri bağışladı.. Qərb ölkələrində

qəhrəmanlıq eposları yarandı, onları şanson de jest adlanan müğənnilər ifa edirdilər.

Arxitekturada da roman üslubu öz təsirini gücləndirdi və kafedral kilsələrin tikintisində qotik üslub üstün mövqeyə çıxdı. Bu, daha çoxYüksək Orta əsrlərin ən böyük zəfərlərindən biri idi.

Erkən Orta əsrlərin isə ən maraqlı hadisələrindən biri İspaniyanın xeyli ərazisini işğal etmiş ərəblərin yaratdığı Əl- Əndəlus sivilaziyası idi, çünki müsəlman İsranyası qonşuluqdakı xristian dövlətlərindən öz inkişafına görə çox fərqlənirdi.  Yeni ərəb xilafətinin paytaxtı olan Kordoba şəhəri elmi və mədəni inkişafına görə özünə bərabər olanı tanımırdı. Ərəblər bu əraziyə şəhərsalma təcrübəsi bəxş etmiş, suvarma texnologiyasını təkmilləşdiməklə Andalusiyanı bağlar diyarına çevirmişdilər. Qranadadakı Al- Qambra sarayı fəvvarələrinə, heykəllərinə və yaşıllığına görə canlı əfsanə təsiri bağışlayırdı.

XIII əsrdə Asiyada baş verən böyük dəyişikliklər Avropaya  da öz təsirini göstərdi. 1206-cı ildə Monqolustandakı xalqları birləşdirib, onun liderinə çevrilən və Çingiz xan adını qəbul edən sərkərdənin başçılıq etdiyi ordu  nəhəng əraziləri işğal etdi. Bütün Rusiyanı tutduqdan sonra, polyakları məğlub etdi və Macarıstan krallığının məhvinə səbəb oldu. Sonra monqol ordusu Serbiya və Xorvatiyaya hücum etdi.

Çingiz xanın ordusu Avropanın şərqindəki bütün ordulardan güclü idi. Monqol əsgərləri günlərlə at belində qalır, yəhərin üstündə də yata bilirdilər. Böyük yazıçı Stefan Tsveyq özünün “Yrəyin dözümsüzlüyü” əsərində qeyd edir ki, Avstriya ordusunun zabitləri də at belində yatmağa öyrəndiklərindən, bu vaxt yıxılmırdılar da.

Çingiz xan ordusu təkcə monqollardan deyil,həm də  işğal edilmiş ərazilərin xalqlarının döyüşçülərindən ibarət idi. Ordu bütün döyüşlərdə qalib gəlməklə, Avropada qorxu xofu yaratmışdı. Onlar vuruşda hərbi yenilikləri tətbiq edirdilər, Macarıstanda barıt qatışığı olan yanan şarlardan istifadə etmişdilər.

Çingiz xan qısa müddətdə dünyada ən böyük imperiya yaratmışdı, onun ərazisi dünyanın quru sahəsinin dörddə birini əhatə edirdi. Çingiz xan anadan olanda isə monqol tayfası Onon çayı ətrafındakı kiçik ərazidə yaşayırdı. Çingiz xan öz ordusunu heç də dini və milli mənsubluğa görə deyil, ideyasının gücü ilə idarə edirdi. O, işğal etdiyi xalqları tolerant münasibət göstərsə də, bəzən qəddarlığa da yol verirdi.Buna Xorezm şəhərini tutanda, orada qırğın törətməsi misal ola bilər Onun tətbiq etdiyi qaydaya görə, düşmən öldürülməli, müdafiəsiz olanlara isə himayə göstərilməli idi.

Çingiz xan ordusu sayca yuvarlaq saydakı bölmələrə bölünməklə idarə olunurdu. Orduda Çin mütəxəssisləri xidmət edirdi, Həm də Çinin inkişaf etmiş texnologiyasından istifadə olunurdu. Onlar ərəb kəşflərinin tətbiqinə də biganə qalmırdılar.

Çingiz xanın böyük nailiyyəti monqol çöllərini birləşdirməyi bacarması idi, burada yaşayan bütün tayfalar bir xalq kimi birləşdi, milli mənsubluq deyil, köçəri olmaları, onları bu möhkəm birliyin üzvlüyünə gətirmişdi.

Çingiz xanın 1227-ci ildə ölməsindən sonra yeni xanın paytaxt Karakorumda seçilməsi üçün ordu rəhbərləri ora yığışmalı idi. Ona görə də qəflətən monqol ordusu Avropadan qeyb oldu. Avropada belə bir şayiə yayılmışdı ki, monqollar vuruşmaq üçün əjdahanı öyrədirlər. Ona görə də Fransa kralı, Xan sarayına adam göndərdi. Sarayda monqollarla yanaşı xristianlar, müsəlmanlar və buddistlər var idi. Paytaxtda müsəlman məscidi fəaliyyət göstərirdi.

Bundan bir əsr sonra, XIV əsrin başlağıcında  türklər Kiçik Asiyada xırda bir Osmanl dövlətini yaratdılar. Qonşu əraziləri işğal etməklə Osmanlı imperiyası meydana gəldi. Sultan Mehmet Fateh 1453-ci ildə Konstantinopolu işğal etməklə, Bizans imperiyasının mövcudluğuna son qoydu. Bu, Çingiz xandan sonra Avropada yeni qorxu xofu yaratdı. XVII əsrin sonunda türklər Vyananın qapısı qarşısında dayandırıldılar. Bundan bir əsr əvvəl isə ispanlar başqalarının da köməyi ilə türk donanmasını Lepantoda məğlub etmişdi. XVII əsrdən Osmanlı imperiyası tənəzzülə uğradı, 1918-ci ildə isə dağılmaqla, Bizans imperiyasının taleyini təkrar etdi.

Sonralar krallıqların yüksəlməsi və kilsə qüdrətinin böyüməsi baş verdi. Həyata keçən dəyişikliklər dövlətin vəziyyətinə də təsir göstərdi. Bu proses XI–XIV əsrlərdə getdi. İngiltərəni və Fransanı idarə edənlər Yuksək Orta əsrlər ərzində feodal torpaq sahibliyinin dəstək verdiyi mərkəzləşmənin ləğvinə yönəlmiş meyli gücləndirməyə müvəffəq oldular. İspaniyada, Müqəddəs Roma imperiyasında da böyük siyasi və dini inkişaf getdi. Bu proses Şimali və Şərqi Avropaya da öz təsirini göstərdi və onlarda da həyat islahata uğradı. Bu dövrdə həm də Xristian kilsəsinin çağırışı ilə XI əsrdə başlayan  Səlib yürüşləri həyata keçirildi.

Sonrakı 300 il ərzində (1000–1300-cü illər) krallıqların yüksəlməsi və kilsə qüdrətinin böyüməsi baş verdi. XII əsrdə isə Fransa kralı hələ lazımi nüfuza malik olmadığından, əslində öz xalqı ilə Allah arasında olan keşişi xatırladırdı, çünki onun idarəetmə səlahiyyəti olduqca məhdud idi. Normandiya formal olaraq Fransa ərazisi olduğu halda, xeyli müddət İngiltərə tərəfindən idarə olunmuşdu. Dəniz quldurу Ronald tərəfindən işğal edilən Normandiya sonralar Fransa üçün böyük

təhlükəyə çevrilmişdi. 1066-cı ildən İngiltərə kral taxt-tacına yiyələnmiş Uilyam Fateh və onun varisləri bu böyük regionu idarə edirdi.. Axı Uilyam min gəmi ilə İngiltərənin cənubunda sahilə çıxmış və Qastinqs döyüşündə kal Hovardın ordusunu məğlub edib, iki ay sonra, dekabrda İngiltərə kralı kimi taclanmışdı. Güman edilirdi ki, İngiltərə lənətə gəlmişdir. Lənətə gələn isə normanların təhlükəsinə məhəl qoymayan kral Hovard idi. İngiltərə isə ilk dəfə mərkəzləşmiş dövlətə çevrilmişdi. 1189-cu ildə hakimiyyətdəki sülalənin yeni üzvü Şir Ürəkli Riçard Normandiyada Şato Qoyardı tikdirmişdi. Fransa kralı Filip Avqust əvvəlcə ingilislərin bu istehkamını tutmuş, sonra isə bütün Normandiyanı azad etmişdi. O, həm də ölkəsinin ərazisini xeyli genişləndirmişdi.

İspaniyada, Müqəddəs Roma imperiyasında, Şimali və Şərqi Avropada bu dövr ərzində başlıca siyasi və dini dəyişikliklər baş verdi. Katolik dini canlandı və islahatlara uğradı. Xristianlıq və Orta əsrlər sivilizasiyası bu eranı xarakterizə edən mühüm cəhətlər idi. Avropa bu dövrdə işğal məqsədi güdən müharibələrə – Şərqə doğru, əsasən, müsəlmanlara qarşı yürüşə başladı. Bu, tarixdə Səlib yürüşləri kimi tanınır.(

Sonrakı Orta əsrlərdə – XIV əsrdə böhranlar və dövlətlərin parçalanması baş verdi. Bu dövr həm də narahatlıqlarla yadda qaldı, Qara ölüm adlanan vəba pandemiyası və sosial böhran Avropanı başına götürdü. Əsrin ortalarında epidemiyadan qitə əhalisinin üçdə biri məhv oldu. Avropa dövlətlərində müharibə və qeyri-stabillik həyatın normal gedişini pozurdu.

Kilsə də öz təsirini göstərməkdə tənəzzülə uğradı. Papalığın nüfuzu XIV əsrdə xeyli aşağı düşmüşdü. Rəssamlıqda və ədəbiyyatda isə başlıca inkişaf xarakterli yeniliklər baş verdi. Həm də cəmiyyətlər şəhər həyatında və təbabət təcrübəsində problemlərlə üzləşdi.

Bundan sonra, XV əsrdə Avropada Renessans erası başlandı, onun vətəni İtaliya, daha dəqiq deyilsə, bu mədəni inqilabın ilk beşiyi Florensiya idi. Sonra Renessans Romaya və Venetsiyaya keçdi. Renessans dünyaya Leonardo da Vinçi, Mikelancelo və Rafael kimi dahilər bəxş etdi. Mikelancelonun dühası hər üç sahədə – rəssamlıqda, heykəltəraşlıqda və arxitekturada əfsanəvi zirvələrə qalxdı. Böyük rəssamların təsiri altında Renessans cəmiyyəti də yaranırdı. Bu dövrdə İtaliya parçalanmış şəkildə olsa da, bu dövlətlərdə həm də İntellektual Renessans baş verdi. Rəssamlıq isə görünməmiş inkişaf səviyyəsinə yüksəldi. Kilsə də Renessansın inkişafına mane olmur, çox hallarda öz sifarişləri ilə onun irəliləməsinə kömək edirdi.

Orta əsrlərdə şəhərlər sürətlə inkişaf etməyə başladı. Şəhərləri, gözəlliyi və hündürlüyü ilə seçilən məbəd binaları bəzəyirdi. Belçikada həm də yoxsullar üçün

tikilən xəstəxanalar var idi, onlara himayəçiliyi monastırlar edirdi Xəstə müalicə üçün qəbul edilməmişdən əvvəl, kiçik kilsəyə girirdi, çünki xəstəlik Allahın insana göndərdiyi cəza hesab olunurdu.  Xəstəliklər müxtəlifliklərinə baxmayaraq, əsasən otlarla müalicə olunurdu, bu məqsədlə xəstəxananın yaxınlığındakı bağda bu müalicəvi bitkilər becərilirdi. Yoğun bağrsaq problemləri üçün primitiv dəmir alətlərdən istifadə olunurdu. Lakin palataların sanitariya vəziyyəti çox aşağı idi, çarpayıda xəstələr iki-iki yatırdı. Onlar demək olar ki, yuyunmurdular. İfraz üçün işlədilən qablardan yayılan üfunət hər yeri bürüyürdü. Bütün bunlarla yanaşı imkansız xəstələrin müalicəsi humanist addım olmaqla yanaşı, əvvəlki dövrlərə nisbətən fərqli bir proqress idi.

Hollandiyada isə ispan ağalığına qarşı mübarizə katolik dininin qadağan olunması ilə müşayiət olundu. Katolik kilsəsi gizli fəaliyyət göstərirdi. Katolik ailələrindəki varlı qadınlar rahibəliyə keçirdilər. Onlar xəstəxanada xəstələrə qulluq edirdilər. Protestantların katolikləri təqib etməsindən beləliklə yoxsul xəstələr fayda götürüürdülər.

Avropa cəmiyyəti Yüksək Orta əsrlər erasında canlanmağa və böyüməyə başladı. Kəndlilər və kübarlar sivilizasiyanın inkişafında mühüm rol oynayırdılar. Bu dövrdə həm də ticarət və şəhərlərin yeni dünyası meydana gəldi. İntellektual və sənətkarlıq dünyası da inkişaf edirdi.

XV əsrin sonunda Xristofor Kolumb Yeni Dünyanı kəşf etmişdi. Portəgiz və İspan imperiyaları böyük coğrafi kəşflərə himayədarlıq edirdi və bu, əslində, dünyanın bütövləşməsində yeni üfüqlər açırdı. Onları buna şərəf və var-dövlət qazanmaq istəyi məcbur edirdi. Avropalıların ekspansiyası yerli xalqlara böyük bədbəxtliklər gətirir, onların inkişaf etmiş sivilizasiyalarının məhv olunmasına səbəb olurdu. Avropalıların xəstəlikləri yerli əhalini ot kimi biçirdi.

XVI əsrdə Reformasiya hərəkatları və dini müharibələr getdi. Martin Lüter 1517-ci ildə Roman kilsəsi ilə böyük narazılığını öz etiraz petitsiyasında bildirdi və Avropanın hər yerində protestantların hərəkatı başlandı. Onun qəzəbinə inflügensiya – günahların bağışlanması adı altında kilsənin adamlardan pul yığması, əslində, qarətçilik etməsi səbəb olmuşdu. Protestant islahatları kilsənin transformasiyasına yol açdı.

Erkən Orta əsrlərdə ticarət hələ də xaotik xarakter daşıyırdı. Qərbi Avropanın çox hissəsində ticarət tənəzzül etmişdi. İtaliyanın şəhərləri isə ticarətin canlanmasında mühüm rol oynadılar, şəhərlər də böyüməyə başladı. Tacirlər varlandıqca, onlar şəhərlərin də inkişafına sərmayə qoyurdular. Həm də yeni iri və kiçik şəhərlər meydana gəlirdi, onlar xüsusən Şimali Avropada çox idilər.

Ticarətin canlanması şəhərləri geniş ölçüdə manufaktura istehsalının mərkəzlərinə çevrilməsinə də şərait yaratdı. Çox geniş çeşiddə parça, paltar, metaldan olan əşyalar, ayaqqabı və dəridən olan mallar istehsal edilirdi. Dar küçələrdəki ev sahibləri sənətkarlıq məhsulları hazırlayırdılar. XII əsrdən başlayaraq sənayeçilər və sənətkarlar gildiyalar təşkil etməyə başladılar. Onlar sənaye malları istehsalında artıq aparıcı rol oynayırdılar.

Bu dövrdə (XIII əsrdə) elmdə və təhsilin təşkilində inqilabi rol oynayan universitetlər meydana gəlməyə başladı. Universitet latın sözü olub, korporasiya və ya gildiya mənasını verirdi. İlk Avropa universiteti Bolonyada meydana gəldi. Bolonya Universitetinin yaranması Roma hüququna maraq göstərilməsi ilə əlaqədar idi.

Universitetlərdə qrammatika, ritorika və məntiq öyrədilirdi. Bütün klassikalar latın dilinlə oxunan mühazirələr idi. Tələbələr istənilən ölkədən və ya sinfin nümayəndələrindən ibarət ola bilərdi.

Klassik antik eraya məxsus olan mədəni irsin bərpası Yüksək Orta əsrlər dövründə baş verdi, bu, intellektual canlanmanın başqa bir aspekti idi. Bu vaxt antik dövrün əsərlərinə maraq artmışdı; bunlar qədim yunan və romalıların əsərləri idi. XII əsrdə Qərbi Avropa çox sayda yunan alimlərinin və filosoflarının əsərləri ilə tanış oldu. Bunlara Qalenin və Hippokratın təbabət barədəki, Ptolomeyin coğrafiya və astronomiya, Yevlikdin matematika elmi üzrə əsərləri daxil idi. Hər şeydən əvvəl Qərb bu vaxt Aristotelin bütöv əsərləri ilə tanış ola bildi. XII əsrin ikinci yarısında isə Aristotelin bütün elmi əsərləri latın dilinə tərcümə olundu, bu dil isə o vaxtlar beynəlxalq dil sayılırdı. Aristotelin əsərlərinin Qərbdəki təsiri olduqca böyük idi. Ona “bilən adamların müəllimi” kimi baxırdılar. Onu hətta biliyin bütün sahələrinə agah olan kimi qəbul edirdilər. Yunan elmi və fəlsəfi əsərlərinin dirilməsi, heç də sadə bir proses deyildi, ancaq Avropada yunan biliyini yalnız hələ kiçik hissəsi məlum idi. Onlar Müsəlman dünyası vasitəsilə Aristotelin və digər yunan alimlərinin əsərlərinin Qərbdə dirilməsinə nail olmuşdular. Yunanların əsərləri ərəb dilinə tərcümə olunmuşdu və parlaq Müsəlman sivilizasiyasının bir aspektinə çevrilmişdi. XII əsrdə həmn yazılar ərəb dilindən latın dilinə tərcümə edildi, beləliklə, onlar Qərbə də tanış oldu. Müsəlman və xristian mədəniyyətləri İtaliyanın cənubundakı Siciliyada Norman krallığında və bütün İspaniyada görüşdülər. Əsərlərin tərcüməsi isə ərəb və yəhudi alimləri tərəfindən həyata keçirilirdi.

İslam dünyası təkcə tərcümə ilə deyil, həm də Qərbə böyük intellektual xidmət göstərməsi ilə seçilirdi. Elmi əsərlər Qərbdə əridilməklə, Qərb dünyasında inkişaf etdirildi. Fizika, matematika, təbabət və optika elmləri sahəsindəki ərəblərin əsərləri Qərbdə latın dilində öyrənilirdi.

Qərb həm də yəhudi alimlərinin əsərlərini də qəbul etmişdi, onlar İslam dünyasında yaşayırdılar. Güman ki, ən məşhur olan Moisey ben Maymonid (1135–1204-cü illər) idi, o bu vaxt Kordobada yaşayırdı. Onun əsərləri yunan və ərəb ənənələrində idi və dinlərin və əqli qabiliyyətlərin barışdırılması problemləri ilə maraqlanırdı. O, əsərlərini ərəb dilində yazırdı.

Avropada isə elmin inkişafında ilahiyyat alimləri Abelyar (1079–1142-ci illər), Tomas Akvinas (1225–1274-cü illər) fərqləndilər.

Orta əsrlərdə həm də Roma hüququnun bərpası baş verdi. Bizans imperatoru Yustinianın dörd bölmədən ibarət öz hüquq kodeksində romalıların irsindən geniş istifadə etmişdi.

XV əsrdə isə Avropa mədəniyyətinə inqilabi təsir göstərən Renessans baş verdi. Təsviri sənətdə və heykəltəraşlıqda XV əsrdən başlayaraq güclü inkişaf prosesi getdi. Renessans cəmiyyəti də meydana gəldi. Bu dövrdə İtaliyada çox sayda dövlətlər var idi və florensiyalı Nikkolo Makiavelli özünün "Hökmdar" əsərində siyasi reallığa öz münasibətini bildirdi və hakim dairələrin bu zirvəyə yüksəlməsi üçün istifadə etdikləri metodları və vasitələri ifşa etdi.

Renessans təkcə rəngkarlıqdakı və heykəltəraşlıqdakı inkişafı əhatə etmirdi, İtaliyada həm də intellektual Renessans baş vermişdi. Kilsənin özü də Renessans dahilərinə xoş münasibət göstərir, onları Vatikandakı sarayları olan Müqəddəs Pyotr kilsəsinin geniş zallarını öz əsərləri ilə bəzəmək sifarişlərini verirdilər. Mikelancelonun, Rafaelin, Bottiçellinin ölməz əsərləri Vatikan saraylarını bəzəyir.

## Yeni tarix dünyanın böyük inkişafına səbəb oldu

XVI əsrdə isə Reformasiyanın meydana gəlməsi ilə, dini döyüşlər başlandı. Alman ilahiyyat alimi Martin Lüter Roma katolik kilsəsinin fəaliyyətindən narazılığını özünüz yüzə qədər maddədən ibarət olan petitsiyasında elan etdi. O, kilsənin indulgensiya bağışlamaq sahəsindəki fəaliyyətinə əks çıxaraq, bunu adamları qarət etmək üsulu kimi rədd edirdi. Adamlar kilsəyə müəyyən məbləğdə pul ödəməklə, günahlarının guya bağışlanmasına və ya indulgensiya əldə etməyə nail olurdu.

Martin Lüterin narazılığı Reformasiya adlanan böyük hərəkatın başlanmasına səbəb oldu və bu, xristian dininin, əsas iki əks cəbhə olan katoliklərlə protestantlar arasında qızğın mübarizənin getməsinə yol açdı. Lüteranizmin qalxması ilə protestant hərəkatı xeyli gücləndi və bu, xristian dininin

yenidən parçalanmasına səbəb oldu. Bundan bir neçə əsr əvvəl isə ikona məsələsi üstündəki mübahisələr Roma kilsəsini katoliklərə və ortodokslara (pravoslavlara) parçalanmışdı. İndi isə Avropanı dini lərzəyə salan daha geniş hərəkat baş vermişdi və bu, gələcək dini müharibələrin də baş verməsinə səbəb oldu. Avropa cənubda, mərkəzdə və qərbdə katolik dini ərazisi olaraq qalsa da, İngiltərədə və Şimalın digər ölkələrində, həmçinin Müqəddəs Roma imperiyasında protestantizm geniş yayıldı.

XVII əsrdə Avropada Elmi İnqilab baş verdi. Kopernikin, Keplerin, Qalileonun və Nyutonun elmi kəşfləri ilə, astronomiyada Ptolomey konsepsiyalarından fərqli olan kainat barədə geliosentrik ideyaya əsaslanan yeni baxışlar meydana gəldi. Paraselsin, Vesaliusun və Harveyin axtarışları təbabətə elmi baxışlar bəslənməsinə kömək etdi. Elmi inqilabda əvvəlki dövrlərdən fərqli olaraq qadınlar da fəal iştirak etdilər. Elmi metodlar dəyişikliyə uğradı və elmi biliklər geniş yayılmağa başladı.Elmlə yanaşı qitədə mədəniyyət də inkişaf edirdi.

Həmin əsrin başlıca xüsusiyyətlərindən biri Avropanın mərkəzində, qərbində və şərqində dövlət quruluşu kimi Mütləqiyyətin hakim kəsilməsi oldu.

XVIII əsrdə Avropa dövlətləri xeyli möhkəmlənmişdi, beynəlxalq müharibələr baş verdi. Bununla yanaşı, sosial həyatda dəyişikliklər, Avropa dövlətləri kimi Fransada, Böyük Britaniyada, Holland Respublikasında inkişaf daha sürətli idi. Aralıq dənizi dövlətləri və Skandinaviya monarxiyaları da inkişaf yoluna qədəm qoydu.

"Qüvvələrin tarazlığı" konsepsiyası beynəlxalq münasibətlərə öz təsirini göstərirdi. Kənd təsərrüfatında, maliyyədə, sənayedə və ticarətdə ciddi dəyişikliklər baş verdi. Avropanın müxtəlif hissələrində və insan qrupları arasında yaşayış səviyyəsi yüksəlməyə başladı.

İntellektual sahə ilə yanaşı, siyasi, iqtisadi və sosial sahələrdə gedən dəyişikliklər ölkələrin inkişaf yoluna qədəm qoyduğundan xəbər verirdi. Bu dövrdə həm də tənqidi düşüncələr geniş ifadə olunmağa başladı. Bu əsrdə Böyük Britaniyanı irəli çıxaran, Fransanı isə öz müstəmləkələrindən məhrum edən Yeddi illik müharibə (1756–1763-cü illər) getdi. Britaniyalılar Hindistanda qələbə çalmaqla, subkontinentdəki gələcək müstəmləkənin bünövrəsi qoyuldu. Kanada da fransızların məğlubiyyəti nəticəsində , onların tabeliyində olan bütün ərazilər Britaniyanın müstəmləkəsinə çevrildi.

Ən mühüm yenilik isə, Sənaye inqilabının müşayiəti ilə XVIII əsrdə Avropa sənayesinin inkişafı oldu.

Fransada meydana gələn Maarifçilik ideyaları Avropaya yayıldı. Vaxtilə geridə qalan kimi tanınan Rusiya Didronu, Prussiya isə Volteri öz ölkələrinə qonaq dəvət etdi.

XVIII əsrin sonunda, 1789-cu ildə Fransada inqilab baş verdi, az sonra kral XVI Lui və onun arvadı, kraliça Mariya-Antuanetta edam edildi. İngiltərə kralı I Karlın 1649-cu ildəki edamından sonra, bu, Avropada taxt-tac sahibinin həmin qaydadakı ikinci məhv edilməsi idi. Bundan 13 il əvvəl isə Böyük Britaniyanın Şimali Amerikadakı 13 koloniyası inqilab müharibəsinə başlayaraq, qalib gəldikdən sonra həmin koloniyaların daxil olduğu Amerika Birləşmiş Ştatları dövləti meydana gəldi. Bani-ataların dahiyanə fəaliyyətləri hesabına bu yeni dövlətin idarəçiliyi demokratik metodlara əsaslanırdı, bu, yeni qitədə Afinanın və Qədim Romanın respublika quruculuğu təcrübəsindən istifadə edilməklə, iki min il sonra monarxiyanı bütünlüklə inkar edən, əsasən xalqın idarəetməsinə söykənən quruluş yaranmışdı.

Məhz amerikan inqilabının göstərdiyi böyük təsir nəticəsində Fransada inqilab baş vermiş, monarxiya bütünlüklə ləğv edilmişdi. Fransız inqilabı onun bəhrələrini məhv edəcək bir insanı, gələcək imperator və Avropanın müharibələrlə diz çökməyə məcbur edən Napoleonu da həyata gətirmişdi. Napoleon dövlət çevrilişi etməklə hakimiyyətə gəldikdən az sonra, 1804-cü ilin dekabrında özünü imperator elan etmişdi.

Sənaye inqilabı Avropa cəmiyyətinə güclü təsir göstərmişdi. Böyük Britaniya ilk dövlət idi ki, burada Sənaye inqilabı baş vermişdi. Bu inqilab yeni sənaye sistemini yaratmışdı. Böyük Britaniyadan Sənaye inqilabı bütün qitəyə və Birləşmiş Ştatlarına yayıldı. Əlbəttə, həmin ölkələrdə sənaye sistemi Böyük Britaniyadakından bir qədər fərqli idi.

Sənaye inqilabı sosial sahəyə də öz təsirini göstərdi, şəhər həyatı xeyli inkişaf etdi, sosial siniflər meydana gəldi. İnsan həyatı da dəyişikliklərə uğradı, yaşayış standartları da dəyişməli oldu. Sənaye erasında fəhlələrdən ibarət yeni sosial siniflər əmələ gəldi.

Sənate müəssisələrində əmək daha dözülməz xarakter daşıyırdı. Mədənlərdə hətta azyaşlı uşaqlar da işləyirdi. Sənaye inqilabı həm də yeni istismar qaydalarını meydana gətirmişdi.

XIX əsr isə irtica, inqilab və öz romantizmi ilə fərqlənirdi. Napoleonun məğlubiyyətindən sonra 1815-ci ildə keçirilən Vyana Konqresinin məqsədi Avropada razılıq mühitini bərpa etmək idi. Taleyranın diplomatik bacarığı hesabına məğlub olmuş Fransa öz ərazilərini qoruyub saxlaya bildi.

Avropada ideologiyanın da dəyişilməsi baş verdi, liberalizm, millətçilik ideyaları yayılmağa başladı. Sonrakı illərdə də inqilab dalğası və islahatlar keçirmək cəhdləri azalmırdı. İrtica erasından fərqli olaraq inqilab həm də romantisizm əhvali-ruhiyyəsi yaratdı.

XIX əsrin üçüncü rübü Millətçilik və Realizm dövrü kimi tanınır. Fransada III Napoleon hakimiyyətə gəldi və iki onillik sonra prussiyalılara əsir düşməklə siyasi səhnədən biabırçılıqla getdi. Bu dövrdə İtaliyanın və Almaniyanın milli birləşməsi baş verdi, 1861-ci ildə İtaliya monarxiyası, on il sonra isə yeni mərkəzləşmiş Almaniya dövləti yarandı. Bu illərdə Avstriya imperiyası, Rusiya və Böyük Britaniya inkişaf edirdi. Sənayeləşməyə ideoloji əks cavab kimi Marksizm nəzəriyyəsi meydana gəldi. Realizm erasında elm və mədəniyyət güclü surətdə inkişaf edirdi.

XIX əsrin sonunda, XX əsrin başlanğıcında isə Modernləşmə, Qayğı çəkmə və İmperializm erası özünü göstərdi. İntellektual və Mədəni inkişaf modernizm şüuruna tərəf irəlilədi. Siyasətdə yeni istiqamətlər və yeni qeyri-müəyyənlik baş verdi. 1880-ci ildən sonra dünyadakı yeni imperializm Afrikaya və Asiyaya da öz güclü təsirini göstərdi. Minillər ərzində əvvəllər yaranan imperiyalar kimi yenilər də qanda meydana gəlirdi. Yeganə təsəlli ondadır ki, imperiyalar ona başçılıq edənlərin qanının tökülməsi ilə də öz mövcudluğuna son qoyurdu.

Daha çox torpaqlara sahib olmağa həsr olunan beynəlxalq rəqabət isə Avropada I Dünya müharibəsinin başlanmasına gətirib çıxardı. Müharibə Rusiyada Oktyabr inqilabının qələbəsinə də şərait yaratdı. Müharibənin 1918-ci ilin 11 noyabrında başa çatması, Avropaya arzu olunan dinclik gətirsə də, Rusiya Vətəndaş müharibəsinin əzablarını yaşamaqda davam edirdi.

1919–1939-cu illərdə, iki Dünya müharibəsi arasındakı dövrdə Avropa əbəs yerə stabillik axtarmaqla məşğul oldu.

Avropa iqtisadi və siyasi böhranın dərinləşməsi II Dünya müharibəsinə gətirib çıxardı. I Dünya müharibəsinin nəticəsi kimi Versal müqavləsi Almaniya üzərinə ağır təzminatı ödəməyi qoymaqla, orada revanşizm əhval-ruhiyyəsinin böyüməsinə şərait yaratmışdı. Hitlerin Almaniyada hakimiyyətə gəlməsi ilə isə 1933–1939-cu illər müharibənin prelyudiyası rolunu oynadı. Hitlerin xarici siyasətinin məqsədi yeni müharibə başlamaq axtarışlarından ibarət idi və o, öz mənfur niyyətinə nail olmağı bacardı. II Dünya müharibəsi, Avropada Hitler Almaniyasının və Asiyada militarist Yaponiyanın nəhəng əraziləri işğal etməsi və qanlı döyüşlərlə müşayiət olundu, həmin əraziləri işğalçılar vəhşilikdən xəbər verən qaydada idarə edirdilər. Natsist imperiyası meydana gəldi, natsist siyasətində

Holokost adlanan Yeni Qayda görünməmiş dəhşətlərin baş verməsinə şərait yaratdı.

Almaniyanın müharibəyə başlaması ilə Avropa xalqları da qanlı döyüşlərə cəlb olundu, iki il sonra isə Yaponiyanın ABŞ-ın Pyorl Harbor hərbi- dəniz bazasına hücumu ilə bu ölkə özü də, Birləşmiş Ştatlar da müharibənin fəal iştirakçılarına çevrildilər. Müharibə, Müttəfiq dövlətlərin və digər Avropa xalqlarının böyük haqq ödəməsinə səbəb oldu. Müharibədən sonrakı dövrdə Avropa, Müttəfiqlərin gözündə artıq fərqli görünürdü, bu fərqlilik isə Soyuq müharibənin meydana gəlməsinə səbəb oldu. ABŞ Qərbi Almaniyanın bərpasına böyük məbləğdə maliyyə resursları ayırdı, SSRİ isə Şərqi Avropa ölkələrində sosialist tipli dövlətləri yaratmaqla məşğul oldu. Sovet tarixçiləri Soyuq müharibənin bağlanmasını Uinston Çörçillin 1946-cı ilin martında Birləşmiş Ştatların Fulton şəhərindəki çıxışı ilə əlaqələndirsələr də, Qərb tarixçiləri, SSRİ-dəki ABŞ səfiri Corc Kennanın ondan əvvəlki ayda, 1946-cı ilin fevralında SSRİ-nin Qərbə təhlükə törətməsi barədə öz hökumətinə göndərdiyi böyük həcmdəki teleqramla əlaqələndirirlər. Soyuq müharibə həm də geniş qloballaşma ilə xarakterizə olundu, Koreya müharibəsi, Vyetnam müharibəsi baş verdi və bunlar Soyuq müharibənin eskalasiyasına səbəb oldu. Kubadakı raket böhranı da iki fövqəldövlət arasındakı münasibətləri gərginləşdirdi.

Afrikada isə istiqlaliyyət uğrunda mübarizə xeyli gücləndi və çox sayda keçmiş müstəmləkələr imperialist dövlətlərin boyunduruğundan azad olmaqla, öz milli müstəqil dövlətlərini yaratdılar. Yaxın Şərqdə İsrail dövlətinin yaranması ilə Fələstin məsələsi gərginliyin daha da artmasına səbəb oldu. Asiyada isə millətçilik və kommunizm öz qələbələrini bayram etdilər. Çin kimi iri dövlət kommunizmi idarəçiliyi altına keçdi. Qərbi Avropada isə Demokratiyanın və iqtisadiyyatın canlanması baş verdi. Fransa prezidenti general Şarl de Qoll Afrika böhranının həllində mühüm rol oynadı. Əlcəzair müstəqillik qazanması Fransada Vətəndaş müharibəsinin baş verməsi üçün qapını açmışdı. Şarl de Qoll 1958-ci ildə hakimiyyətə gələn kimi Dördüncü Respublika üçün yeni konstitusiya layihəsini təqdim etdi. O, Fransanı böyük dövlətə çevirməyə çalışırdı və onu NATO-nun tərkibindən çıxardı.

Lakin bu illərdə həm də Qərb dünyasında etirazlar və staqnasiya başlandı. ABŞ-da və Avropa ölkələrimizə müharibə əleyhinə hərəkat genişləndi. Sovet İttifaqının təsiri ilə Şərqi Avropada sosialist sisteminin möhkəmlənməsi Qərb dünyasının iki fərqli cəbhəyə bölünməsi ilə naticələndi. Qərb ölkələrində həm də sosial və mədəni inkişaf baş verdi. Heç kəs dünya sosializm sistəminin süqutuna inanmasa da, Qərb, xüsusən ABŞ SSRİ-yə təzyiqini azaltmırdı. Prezident Reyqan Sovet İttifaqını “ Şər imperiyası” adlandırırdı.

1985-ci ildən başlayaraq fövqəl dövlət olan SSRİ-də iqtisadi və sosial vəziyyət daha sürətlə ağırlaşmağa başladı, bu, az  sonra, 1991-ciildə Sovet dövlətinin bir rejim kimi öz mövcudluğunu itirilməsi ilə nəticələndi. Şair İosif Brodski demişkən, ümidsizlikdə hər şey sadə görünür, İri dövləti ilə fəxr edən sovet adamları, öz əvvəlki inanclarını kəskin surətdə dəyişib, müstəqillik uğrunda mübarizlərə çevrildilər. Hamı müstəqilliyi Bibliyada təsvir edilən, qədim yəhudilərin bol süd və bal çayı axan və vəd edilən torpaq sayilan  vətənləti hesab etdikləri Kanaan timsalında görürdü. Lakin sosial vəziyyətin daha da ağırlaşması baş verdi, SSRİ-nin son illərindən qalan yoxsulluq mirası , iqtisadi əlaqələr də itirildiyindən daha geniş miqyas aldı. Ailələr ehtiyac girdabında boğulmağa başladı. Ermənistan ələ düşmüş fürsətdən Azərbaycana təcavüz etmək üçün istifadə etdi və bu vaxt işğal etdiyi ərazilərdən böyük maddi fayda götürəcəyinə bel bağlayırdı.

Öz rəqibinin sıradan çıxması ilə  və Qərb dünyasının təsiri nəticəsində Qloballaşma erası başlandı. Dünya Yeni Qərb qaydasına doğru dəyişməyə başladı, bu yolda Mixail Qorbaçovun SSRİ-də islahatlar keçirmək cəhdləri əks effekt verməklə, mövcud olan ikinci fövqəldövlətin məhv olması ilə nəticələndi. Soyuq müharibə də sona çatdı və yeni Dünya qaydası şəraitində həm də terrorizm erası sürət götürdü. Qərb mədəniyyəti geniş inkişaf yolu ilə irəliləməyə başladı. XX əsr, kinematoqrafiyanın inkişafında görünməmiş nailiyyətlərlə əlamətdar oldu. ABŞ kinostudiyalarının istehsal etdiyi filmlər bu ölkənin dünyanın kino mərkəzinə çevrilməsi ilə nəticəl\ndi. Mədəni inkişafda yeni meyillər meydana gəldi. Dünya Rəqəmsal eraya qədəm qoydu. Ölkələr qlobal sivilizasiyaya doğru inkişaf etdi və bu proses həm də yeni çağırışlar və ümidlər yaratdı.

## Bəşəriyyətin üzləşdiyi yeni mühüm təhlükə

Təbiətlə insanın qarşılıqlı münasibəti mürəkkəbdir, insan təbiətin özünəməxsus idarəetmə qanunlarına riayət etməyəndə, onları pozmağa cəhd edəndə ağır surətdə cəzalanır. XX əsrdən başlayaraq dünyanın inkişaf etmiş dövlətlərində sənayenin sürətli və geniş inkişafı insanların ehtiyacının ödənilməsində mühüm rol oynasa da, təbiətə də ağır ziyan vurmamış qalmamışdı. Əslində, dövlətlər əvvəllər mövcud olan və dayanıqlı xarakter daşıyan nisbi harmoniyanın ciddi surətdə pozulması yolunu tutdu və bu təhlükəli qərarın həyata keçirilməsinin davamı təbiət tərəfindən daha böyük cəzalanma perspektivindən xəbər verir.

İnsanın təbiəti özünə tabe etməsi əvvəlki tək nisbi deyil, mütləq xarakter almağa başlayanda, o, öz hərəkətindən əziyyət  çəkməyə başlayır və təbiət insanın yaşadığı şəraiti rahatlıqdan uzaqlaşdıran kimi ağır hökmünü verməkdə də gecikmir. Sənayenin inkişafı bütün dövlətlərin tərəqqisi üçün mühüm şərt rolunu oynayır, lakin bu vaxt təbiətə vurulan ziyan nəzərə alınmadıqda, planet gözləmədiyi xoş olmayan cəza ilə üzləşməli olur.

Sənaye müəssisələri, zavodlar və fabriklər getdikcə daha artıq ölçüdə atmosferə karbon qazı buraxmaqla, təkcə onu zəhərləmir, həm də Yer üzündə temperaturun xeyli yüksəlməsinə səbəb olur. Temperaturun artması iqlimin də kəskin surətdə dəyişilməsinə, əslində iqlim böhranının yaranmasına səbəb olur. Ekoloji sistem, az qala, total pozulma vəziyyətinin yaranması təhlükəsinin qorxusu atında yaşamağa başlayır. Bədbəxtlikdən, atmosferi çətin vəziyyətə salanlarla yanaşı, digər bu sahədə günahı olmayanlar da, həmin ölkələrin, bütöv qitələrin əhalisi də əziyyət çəkməyə başlayır. Şimal Buzlu okeanında buzluqların əriməsi getdiyi kimi, Afrikada səhraların sahəsi böyüməyə başlayır, çayların suyunun azalması bütöv dənizlərin də səviyyəsinin aşağı düşməsi ilə müşayiət olunur. Quraqlıq, bitki və heyvan aləminə böyük ziyan vurur. Dünyanın elə bir guşəsi qalmır ki, bu ziyanlı metamorfozadan əziyyət çəkməsin. Elmi proqnozlar isə olduqca qorxuludur.  İqlimin israf istiləşməsi dünyadakı böyük buzluqları əritsə, fəlakət baş verə bilər. Qrenlandiya adasının və Antarktidanın nəhəng dərinlikdəki və geniş ölçüdəki buzları ərisə, okeanın səviyyəsi 70 m. qalxa bilər. İnsanların və digər canlı aləmin hansı çətinliklərlə üzləşəcəyini təsəvvür etmək o qədər də çətin deyildir. Ada ölkələri isə, onların siyahısında böyük Britaniya və Yaponiya kimi iri ölkəjər də vardır, məhv olmaq şansı ilə üzləşə bilər. Bir yapon şeirində deyildiyi kimi, “biz ölüm dağına qalxmağa” başladıq.

Bərpa olunmayan yanacaq növlərindən istifadənin miqyasının artması atmosferin qaz tərkibinin korlanmasına səbəb olur. Dünyanın neft kompaniyaları avtomobillərdə daxili yanacaq mühərriklərinin istifadəsinin dəyişilməsinə bütöv əsr ərzində imkan vermirdi və yüz milyonlarla avtomobilin istifadəsi, xüsusən şəhərlərdə havanın nizamsız qaydada çirklənməsinə şərait yaradırdı. Nəhayət, XXI əsrin əvvəllərindən elektrik avtomobillərinin istehsalına və geniş istifadə olunmasına başlandı. Bu, şəhərlərdə havanın çirklənməsinin qarşısını almaqda böyük rol oynaya bilər. Zavod və fabriklərin də yaşıl yanacaqdan istifadəyə keçməsi ilə, atmosferə atılan karbon qazının miqdarı əsaslı qaydada azala bilər.

2024-cü ilin noyabrında Bakıda keçirilən COP-29 zirvə toplantısında çox sayda ölkələrin nümayəndələri bu məsələ barədə həyəcan təbili çalaraq, bərpa olunmayan yanacaqdan istifadənin azalması və yaşıl yanacağa keçmək barədə dünyanın inkişaf etmiş dövlətlərinə müraciət qəbul etmişlər. Yaşıl yanacağa keçid

bir trilyondan artıq xərc çəkilməsini tələb edəcəkdir və Çin, ABŞ, Hindistan, Yaponiya, Almaniya havanı çirkləndirməkdə daha çox fərqləndiklərinə görə, bu ixtisar işində də daha fəal iştirak etməlidirlər. Dünyada neft və qaz istehsalından və onların istifadəsindən qismən uzaqlaşmaq hesabına atmosferin çirklənməsinin xeyli azaldılması siyasəti gündəliyə daxil olsa, bu, heç şübhəsiz müsbət nəticə verə bilər..

Dövlətlər varlanmaqla həm də öz əhalilərinin sosial vəziyyətini daha da yaxşılaşdırmaq istəyirlər. Lakin burada "süvari hücumu" fayda əvəzinə, yalnız ziyan verir. Təbii şəraitin pisləşməsi xəstəliklərin artmasına və vaxtından əvvəl ölüm hadisələrinin çoxalmasına səbəb olur. Xalqlar sənayenin inkişafına səbəb olan ixtiralara daim sevinmişdir. Lakin onların təsirinin neqativ tərəfinə o qədər də əhəmiyyət verilməmişdir. Ona görə də sənaye cəhətdən inkişaf etmiş dövlətlər təbiətə vurulan ziyanın azaldılmasına daha böyük maliyyə yardımı göstərməlidirlər. Bu sahədə kasıb və sənaye cəhətdən inkişaf etməmiş Afrika ölkələrindən hansısa maliyyə yardımı tələb etmək və gözləmək, sadəcə olaraq ağılsızlıqdır.

İqlimin dəyişilməsi müxtəlif bədbəxtliklərə səbəb olur, sərt quraqlıq və daşqınlar əmələ gətirir. Yoxsul ölkələrdə quraqlıq və ya leysan yağışlar əhalinin maddi vəziyyətini daha da ağırlaşdırırır. Ailə üzvləri ərzaqla pis təmin olunur, bəzən hətta aclıq başlanır. İqlim böhranı qadınlara və qızlara daha ağır təsir göstərir. Qızlar məktəbdən aralanır, məcburiyyət üzündən valideynləri onları vaxtından xeyli əvvəl ərə verirlər. Banqladeşdə və Keniyada , CNN-in əldə etdiyi məlumata görə, yoxsulluq ucbatından qızların 11 yaşında ərə getməsi faktları aşkarlanmışdır. Təbii qüvvələrin əmələ gətirdiyi bədbəxtliklər öz ağır zərbəsini birinci növbədə uşaqların, qızların taleyinə vurur, onların onsuz da yüngül olmayan həyatını daha da ağırlaşdırır.

İqlimin dəyişməsi həm də əhalini öz yaşayış yerlərini tərk etməyə məcbur edir. Ailələr daha əlverişli şəraiti olan ərazilərə köçməli olurlar. Vaxtilə german tayfaları da hava soyuduqda və yağış yağması artdıqda Cənuba tərəf hərəkət eyməli olmuşdular. Lakin havanın istiləşməsindən fayda götürənlər də olmuşdu. Belə vəziyyət Qədim Roma ordularına Şərq ərazilərini işğal etməkdə yaxşı köməklik göstərmişdi. Buxarlanma intensiv getdiyindən yağış yağması da çoxalmış və həmin regionda bol məhsul yetişmişdi.

Təbiət nəyisə insana havayı, zəhmət çəkmədən verirsə, ona görə həm də ondan başqa şəkildə, xəstəliklərin və ziyanvericilərin iştirakı ilə, daha ağır haqq tələb edir. İnsan hələ ibtidai icma dövründən özünü qidalandırmaq üçün zəhmətinə arxalanmışdır, onları təbiətdən əmək sərf etməklə almışdır.

Bu barədə 1620-ci ildə “Meyflauer” gəmisində Şimali Amerikadakı Massaçusets körfəzinə mühacirət etmiş kiçik ingilis dəstəsinin ağıllı hərəkəti diqqətə layiqdir. Körfəzdə “Yeni Plimut” koloniyasını yaradan puritan icmasının qubernatoru olmuş Con Bredfordun kitabı bu barədə örnək xarakterli misallarla doludur.

Yüz nəfərlik dəstə səfərə çıxmamışdan əvvəl haraya üz tutmaq barədə geniş diskussiya aparırdı. Bəziləri təklif etdi ki, Yamaykaya gedək, orada hər şeyi təbiət insanlara hazır vəziyyətdə verir. Bir ağsaqqal buna etirazını bildirib dedi ki, orada əmək sərf etmək lazım olmasa da, biz xəstəliklərdən və ziyanvericilərdən əziyyət çəkə bilərik. Ona görə də elə yerə getməliyik ki, orada zəhmətimizlə, alın tərimizlə özümüzə çörək qazanaq. Onun məsləhətini nəzərə alıb, Şimali Amerikaya üz tutdular. Gəmidən sahilə düşməmişdən əvvəl koloniyanın idarə olunması qaydası barədə müqavilə qəbul etdilər. Noyabrın sonunda onlar yeni məskəndə yaşamağa başladılar; hindularla xoş münasibət qurdular. Yerli icma onlara məhsul becərmək üçün çox rəngdə olan qarğıdalı toxumu verdi və onlar birinci ili yaxşı məhsul götürdülər.

Bir il tamam olanda Yeni Plimut koloniyası bura gələnlərin yarısını itirsə də, 50 nəfərlik icma ovladıqları vəhşi hinduşkanın əti ilə Allaha minnətdarlıq bayramı keçirdilər. İki əsrə yaxındır ki, ABŞ-da hər il noyabrın dördüncü həftəsinin dördüncü günündə “Thanks giving day” –“ Şükran bayramı” keçirilir və hər ailənin ənənəyə uyğun olaraq, bayram şənliyi xörəyi üçün ölkədə 40 milyondan artıq hinduşka kəsilir.

Bredford  yazır ki, ikinci il əkdiyimiz qarğıdalı olduqca seyrək cücərti verdi. Hindulardan bunun səbəbini soruşduqda, onlar əkinə nə qədər balıq verdiyimizi öyrənmək istədilər. Biz mənfi cavab verdik, çünki okeanda ovladığımız balıqdan yalnız ərzaq kimi istifadə edirdik. Hindular isə bildirdilər ki, torpağın münbitliyini artırmaq üçün onlar ovladıqları balıqların miqdarının yarısını əkinlərə verirlər. Hindular elmi tərəfini bilməsələr də, təcrübələri hesabına torpağın münbitliyini artırmaq üçün onu əlavə, balıqda zəngin olan fosforla təmin edirdilər.

“Yeni Plimut” koloniyasının üzvləri gələcək amerikanlara da əsl demokratiya dərsi vermişdilər. Koloniyanın qubernatoru hər il seçilirdi. Bredforddan razı qaldıqlarına görə, qubernatorluğunu seçkisiz davam etdirməyi təklif etdikdə, o, buna etirazını bildirərək dedi ki, əgər bu fayda verirsə, qoy icmanın hər bir üzvünə bu qismət olsun, əgər zərərlidirsə, qoy digər üzvlər də bu zərəri bölüşsünlər.

“Yeni Plimut”, 1607-ci ildə Virciniyada yaradılan ilk koloniyadan sonra ikinci idi, lakin ABŞ tarixində bir sıra qaydaları ilə xüsusi ehtirama layiq olduğunu indiyədək saxlayır.

Dörd əsr bundan əvvəl yaşamış kiçik bir amerikan icması, hinduların təcrübəsinə əsaslanaraq, təbiətlə harmoniyada yaşamaq yolunu tutdu və tarixi uğur qazandı. Təbiətə müqəddəslik vermək nadir hal olmayıb, bəzi bütpərəst dinlərdə öz əksini tapmışdı. Qədim germanların xrisianlığa qədər olan dinlərində təbiətə sitayiş mühüm yer tuturdu, ağacların kəsilməsinə qadağa qoyulması da buradan irəli gəlmişdi. Yaponlar isə bütöv bir millət kimi  tarixən daim təbiətlə harmoniyada yaşamağa üstünlük vermiş, hətta təbiət qüvvələrinə sitayişi Sintoizm adlanan öz dinin ehkamlarına çevirmişlər. Müasir yapon sakuranın çiçəklənməsini müşahidə etməyi  Hanami  bayramı adlandırmaqla, əlahiddə şadlıq əlaməti kimi xüsusi sevinclə qeyd edir.

Bu o demək deyildir ki, inkişaf etmiş xalqlar, dövlətlər təbiətə münasibətin düzgün qurulması zərurətindən bixəbər idilər. 1943- cü ilin dekabrında Kremldə  İ. V.Stalinin iştirakı ilə SSRİ dövlət himninin layihəsi müzakirə edilərkən, l ahiyə şeirinin mətnində “təbiətlə ittifaq” ideyası barədə sətir də var idi. Lakin ideoloji cəhətdən daha vacib sayılan məqsədəri, vəzifələri ifadə etmək ucbatından, təbiət barədəki həmin quymətli qeyddən vaz keçildi.

İndiki nəsil keçmişin yaxşı faydalı praktikasından çox şey öyrənməli, həyatını təbiətlə ağılsız mübarizəyə deyil, onunla faydalı əməkdaşlığa həsr etməlidir. Biz təbiətdən çox şey götürməyimizi qarət səviyyəsinə çatdırmağımızla, ona məhvedici yara vurmağımızla öyünməməliyik, onun qaydalarının həyata keçməsinə mane olmamalı, əsasən, onun mərhəmətinə sığınmağı da qəbahət saymamalıyıq.

## Təbiət qüvvələri insanlara fəlakət bəxş edir

Təbiət qüvvələri arabir insanlara kataklizm adlanan fəlakətlər bəxş edir. Kataklizm və ya qlobal fəlakət Yer səthinin ayrı-ayrı məkanlarında həyat təşkilinin xarakterində və şəraitlərində kəskin dəyişiklik əmələ gətirir. Bunlar atmosfer və vulkan proseslərinin dağıdıcı təsiri altında baş verir. Təbii kataklizmlər Yer kürəsinin ayrı-ayrı hissələrində baş verməklə, onda böyük fiziki dəyişikliklər, gözlənilməyən düzəlişlər əmələ gətirir. Dənizlərin sahillərinin konfiqurasiyası öz əvvəlki görünüşünü itirir, dağlar dağılmağa məruz qalır, müəyyən müddət üçün iqlim korlanır, atmosferdə havanın çirklənməsi baş verir. Sakit okeanın xüsusən

şərq və qismən qərb sahilində zəlzələlər və vulkan püskürməsi tez-tez baş verdiyindən, bu ərazilər "Odlu qövs" adlanır.

Vulkan püskürməsindən bəzən hətta günəş işığı Yer səthinə gəlib çatmır. Günəşin və Ayın tutulması effekti meydana gəlir. 1883-cü ildə İndoneziyanın Karakatau adasında baş verən vulkan püskürməsi adanın özünü okeanın dibinə çökdürmüşdü. On kilometrlərlə hündürlüyə, Ovidinin dalğa barədəki təbirincə desək, asimana qalxan kül ətrafı qaranlığa məruz qoymuşdu. Qədim Romanın böyük şairi Ovidi Nazon imperator Avqustun ədalətsiz göstərişi ilə Qara dəniz sahilindəki uzaq Toma şəhərinə (müasir Rumıniyadakı Konstansa şəhəri) sürgün edilərkən, gəmilərinin qorxulu tufana düşməsinə görə belə hiperbola xarakterli bənzətmə işlətmişdi.  İmperator isə onu , nəvəsinin timsalında guya gəncləri əxlaqsızlığa yönəltdiyinə görə belə ağır və məhrumiyyətli cəzaya məhkum etmişdi.

Vulkan püskürməsi dağıntı əmələ gətirməklə yanaşı, çox sayda insan tələfatına, həm də digər həyat formalarının məhvinə səbəb olur. 1815-ci ildə İndoneziyada baş verən Tambora dağındakı vulkan püskürməsindən 71 min 200 min adamın öldüyü güman edilir. Karakataudakı və  1902-ci ildə baş verən Martinikadakı Pele dağındakı püskürmənin hər birində 80 min adam həlak olmuşdu. B.e.ə. 1600-cü ildə baş verən Santorini adasındakı (Yunanıstan) vulkanda isə o dövr üçün olduqca böyük itki – 20 min adam ölmüşdü. Bibliyada Moiseyin xahişi ilə Allahın Misir faraonuna  cəza kimi, onun ölkəsinə göndərdiyi bədbəxtliyin elmi səbəbi kimi Santorini vulkanının təsiri nəticəsində baş verdiyi versiyası irəli sürülür.

Vulkanların ekoloji indeksinin (VEİ) 1-dən 8-ə qədər dərəcəyə bölünməyi irəli sürən şkala ilə ölçülür. 1 dərəcədə azacıq lava axını baş verir, 8-ci dərəcə isə meqa (nəhəng) vulkan püskürməsini ifadə edir. Bu ölçü Rixter şkalası üzrə müəyyən olunur. Yuxarıda xatırlanan Tambora püskürməsinin ekoloji indeksi 7-yə, Karakataununku isə 6-ya bərabər idi. Bəzilərinin dağıdıcı təsiri 1945-ci ildə Hirosimaya atılan atom bombasından daha güclü olur.

Karakatau  vulkanının püskürməsini , bir qədər qəribə görünsə də, mən tam əks effektə malik olan qədim yunan intellectual enerjisinin partlayışı ilə müqayisə etmək istərdim. Vulkan on kilometrliklərlə hündürlükdə atmosferə zərərli kül kütləsi buraxmışdı, Günəşin həyatverici işığının qarşıslnı almışdı. Təbiət Karakataudan bəşəriyyətə qarşı qisas silahı kimi istifadə etmişdi. Qədim Yunanıstan isə dünyaya ilk dəfə elmin, incəsənətin, arxitekturanın min illər ərzində sönməyən işığını bəxş etmiş, haqlı olaraq Avropa sivilizasıyasının beşiyi adlanmışdır. Afina tarixə digər dövlət quruluşlarını rədd edən və xalqın hakimiyyətinə əsaslanan demokratiyanı çox qiymətli bir irs kimi qoyub getmişdir. Demokratiyanın isə başlıca əsası seçkidir.  Dövləti hansısa uzurpator deyil, məhz

xalqın öz seçkisi ilə etibar etdiyi adamlar idarə edir. Afinalıların, Periklin irsi məhv olmadı, iki min il sonra ABŞ-ın bani-atalarının siyasi hünəri hesabına bu dövlətin idarə edilməsində öz əksini tapdı. XX əsrdə faşizm demokratiya ilə rəqabət döyüşünə girsə də, uğur qazana bilmədi və demokratiyanın işıqlı kabusu zəfərlə dünyanı dolaşmağa başladı.

Təbii fəlakətlərə həm də zəlzələ, tsunami, leysan yağış, daşqın, çay və dəniz səviyyəsinin yüksəlməsindən sahildəki yaşayış məntəqələrini su basması, tayfun və tornado daxildir. Rusiyanın şərqində hər il buzların əriməsindən çayların suyunun artması, sahil zonalarını daşqına məruz qoyur. Leysan yağış İspaniyada 2024-cü ildə xeyli insan tələfatı ilə nəticələnmişdi. Yaponiyada, Çində, ABŞ-da tayfun, demək olar ki, hər il baş verməklə, həmin ölkələrə böyük maddi ziyan vurur, insan həyatının itkisi də baş verir. 1991-ci ildə Çinin Şenjen şəhərində olarkən tayfunu müşahidə etməli olmuşdum. Həmin şəhərdən 7 km. məsafədə olan Honkonqda tayfun insan tələfatına səbəb olmuşdu. Birləşmiş Ştatlarda isə tez-tez baş verən tornado daim fəlakət gətirir.

Ümumiyyətlə, təbii fəlakətlər bəşəriyyətə böyük ziyan vurur. XX əsrdə, 1908-ci illə 1990-cı il arasında dünyada 23 təbii fəlakət baş vermiş, onlarda 1,5 milyon nəfər adam həlak olmuşdu.

Xarabalıqları müasir insanın da böyük marağına səbəb olan və bizim eranın 79-cu ilində Vezuvi vulkanının, püskürməsi nəticəsində Pompei və Herkulanum şəhərləri məhv olmuş, sakinlər həlak olmuşdular. Pompei bütünlüklə böyük kül qatı altında qaldığından, mindən çox adamın mumiyalanmışa bənzər cəsədləri tapılmışdır. Onları ölüm qəflətən haqlamışdı. Pompei meqapolis hesab olunurdu, əhalinin həyat səviyyəsi də nisbətən yuxarı idi, lakin onları məhv edən bədbəxtlik, sönməyən Vezuvi vulkanının ətəyində məskunlaşmalarının nəticəsi idi.

Zəlzələlər də vulkan püskürməsindən sonra böyük fəlakət mənbəyi hesab olunur, onlar da iri miqyaslı dağıntılara və insan həyatı itkilərinə səbəb olur. XX əsrdə böyük zəlzələlər Çində (1920-ci il); Çilidə (1960-cı il); Alyaskada (1964-cü il) və İndoneziyada (2004-cü il) baş vermişdir. Onların hər birinin maqnitudası Rixter şkalası üzrə 8,6 – 8,4 bal təşkil edir. Zəlzələdən daha çox ölənlər 1201-ci ildəki Misirdəki və Suriyadakı fəlakət vaxtı baş verməklə, 1.100 min adamın itkisinə səbəb olmuşdur: 1976-cı ildə Çində baş verən zəlzələdə 655 min, 2004-cü ildə Sumatradakı zəlzələdə 160 min adam ölmüşdü. Sumatra zəlzələsinin əmələ gətirdiyi nəhəng tsunami Hind okeanının bütün sahillərinə dağıdıcı təsir göstərmiş, Afrikanın şərq sahilinə gəlib çıxmışdı.

Lakin zəlzələ təhlükəsinə qarşı görülən tədbirlər, tikintidə seysmik təhlükəni nəzərə alma olduqca yaxşı nəticə verir. 1979-cu ildə ABŞ-da San-Fernando

zəlzələsi baş verərkən, San- Fransisko şəhəri dağıntılara məruz qalmışdı. xeyli sonra baş verən zəlzələdə şəhər ziyan çəkməmiş, yalnız bir hayvey (magistral yol) çatlamışdı. Çünki həmin şəhərdə evlərin tikintisində seysmik təhlükəyə davamlılıq qaydası bütünlüklə nəzərə alınmışdı. Təəssüf ki, belə misallar olduqca azdır.

Zəlzələnin dağıdıcı təsiri isə o qədər güclü olur ki, onun nəticələrini illərlə də ləğv etmək mümkün olmur. 1980-ci ilin dekabrında İtaliyanın Kampaniya vilayətindəki Avellino şəhəri böyük dağıntıya məruz qalmışdı. Bir il sonra orada çoxlu uçuq binalar hələ də bərpa edilməmişdi.

1985-ci ildə isə Meksikanın paytaxtı Mexikoda böyük zəlzələ baş vermiş, xeyli bina uçub dağılmışdı, insan itkisi də baş vermişdi. Beş il sonra Mexikoda, şəhərin baş küçələri olan Paseo de la Reforma və İnsurxentes prospektlərində uçmuş və ya zədələnmiş bina gözə dəymirdi. Zona Rosa adlanan kübarlar yaşayan məhəllədə isə villalara zəlzələlər təsir göstərə bilməmişdi. Lakin şəhərin mərkəzində zəlzələdən uçmuş göydələn binanın dəmirdən və betondan ibarət karkası saxlanılmışdı ki, zəlzələnin nəticəsinin şəhadəti kimi qalsın.

SSRİ-nin böyük ərazilərndə zəlzələ olmamışdı. Bu da Rusiyanın geniş düzənliklərə malik olması ilə əlaqədar idi. Düzənlik o qədər uzanır ki, bu, qəribə görünsə də, rus mahnılarında da öz əksini tapmışdır. Ruslar adətən, mahnılarında sözləri uzatmaqla oxuyurlar. Böyük müğənni Fyodor Şalyapinin ifa etdiyi "Ey, uxnem" mahnısı buna konkret misaldır.

Lakin Orta Asiyadakı iki cənub respublikasında olduqca güclü və dağıdıcı zəlzələ baş vermişdi. 1948-ci ildə Aşqabaddakı zəlzələdə çoxlu insan tələfatı olsa da, SSRİ qapalı ölkə olduğundan. onun miqdarı bildirilməmişdi. Şəhər isə bütünlüklə dağılmışdı. Aşqabad bərpa olunduqda, orada iri mərtəbəli binalar tikilməmişdi, əsasən, az mərtəbəli yaşayış evləri meydana gəlmişdi.

1966-cı ilin aprelində isə Daşkənddə olduqca dağıdıcı zəlzələ şəhərin mərkəzinə böyük ziyan vurmuşdu. Lakin ölüm hadisəsi nisbətən az idi. Bundan üç ay əvvəl Pakistanla münaqişəni yoluna qoymaq üçün Daşkəndə danışıqlar aparmağa gəlmiş, Hindistanın baş naziri Lal Bahadur Şastri ürək tutmasından qəflətən vəfat etmişdi. Elə bil ki, şəhər lənətə gəlmişdi. SSRİ rəhbərliyi Özbəkistan paytaxtının bərpasına bütün sovet respublikalarını cəlb etmişdi. Palçıqdan tikilmiş binalar daşdan və bişmiş kərpicdən inşa edilmiş çoxmərtəbəli binalarla əvəz edildiyindən, Daşkənd ilk dəfə idi ki, öz adının mahiyyətini doğrultmağa başlamışdı.

1988-ci ilin dekabrında Ermənistandakı Spitak zəlzələsi həmin şəhəri viran qoymuş, qonşu Leninakan (indiki Gümri) şəhərinin əksər binalarını uçurmuşdu. Zəlzələnin maqnitudası çox yüksək olmasa da, tikintinin keyfiyyətsiz aparılması

hesabına iki şəhər böyük miqyaslı dağıntıya məruz qalmış, 25 min nəfər adam ölmüşdü.

Qorbaçovun göstərişi ilə yenə  bütün respublikalar həmin şəhərləri bərpa etməli idi. Lakin son 20 il ərzində ölkədə intizam ciddi surətdə zəiflədiyindən, SSRİ dağılana qədər burada o qədər də böyük iş görülməmişdi. Müstəqil Ermənistan isə öz yarasını sağaltmaq əvəzinə, qonşu Azərbaycana silahlı təcavüz etdi və respublikanın xeyli ərazisini işğal etdi. Ermənistan ordusu tutduğu 7 rayonu xarabazara çevirdi, tarixin ilk vandalları da özlərinin tutduqları əraziləri heç də belə dəhşətli dağıntıya məruz qoymamışdılar və əsassız olaraq onlara bənzədilən Ermənistan ordusunun nəhayətsiz vəhşiliyinə, yəqin ki, təəccüb edərdilər.

Ermənistan zəlzələ baş verəndən sonra Azərbaycanın humanist köməyini də qəbul etmədi, üstəlik, oraya göndərilən onlarla xilaskarın təyyarəsinin yerə enməsinə aeroport məmurları icazə verməməklə, onun qəzaya uğramasına səbəb oldu və qəza, köməyə tələsən  günahsız insanların həlak olması ilə nəticələndi.

2020-ci ilin payızındakı 44 günlük müharibədə isə Azərbaycan ordusu erməni silahlı vəhşilərini ərazisindən qovub çıxartmaqla yanaşı, onu bütünlüklə məhv etmək astanasında dayandı.

XXI əsrin başlanğıcında Asiyada iki dəhşətli zəlzələ baş verdi və onlar geniş miqyasda tsunami əmələ gətirdi. 2004-cü ildə Sumatra zəlzələsinin nəticəsi olan tsunami Hind okeanı sahillərini xaraba qoymuşdu. 2011-ci ildə isə Yaponiyanın Xonsyu adasının yaxınlığında Sakit okeanda baş verən zəlzələ olduqca nəhəng tsunami əmələ gətirdi. Sahilə yaxın ərazidə dalğa 30 metr hündürlüyə qalxıb, oradakı tikililəri bütünlüklə dağıldı, gəmiləri, qayıqları, avtomobilləri isə dalğa okeana aparıb, onları məhv edirdi. Tsunami sahildə yerləşən Fukusima – 1 atom elektrik stansiyasına da böyük ziyan vurdu, yaponların fədakarlığı olmasaydı, burada Çernobıl effekti yarana bilərdi. Reaktorlardan radioaktiv maddə Çernobıldakının 20 faizi miqdarında atmosferə yayılmışdı. Fukusima – 1 AES-nin tam bərpası üçün 40 ilə bərabər vaxt lazımdır.

Təəssüf ki, insanlar təbii kataklizmlərdən çox vaxt düzgün nəticə çıxarmırlar. Zəlzələnin dağıtdığı şəhərlərin sakinləri təkrarən həmin yerdə şəhəri bərpa edib, onu yenidən təhlükə atına qoyurlar. Alman tədqiqatçısı Henrix Şliman 1870-ci illərdə Homerin təsvir etdiyi Troyanı tapmaq üçün arxeoloji qazıntı apardıqda, bir əfsanəvi şəhər əvəzinə, Türkiyənin həmin Gissarlıq ərazisində bir neçə qatda yerləşmiş 9 Troyanı tapmışdı. Bizim ölkəmizdə də Şamaxı 1902-cü il zəlzələsində dağıldığı halda, adamlar yenə də həmin yerdə şəhəri bərpa etmişdilər. Türkiyənin İstanbul şəhəri qorxulu seysmik zonada yerləşdiyi halda, orada şəhər əhalisinin sayı 20 milyonu ötüb keçmişdir. Mütəxəssislər isə İstanbulda daha

dağıdıcı zəlzələnin baş verəcəyi proqnozunu verirlər. Təhlükəni nəzərə almamaq heç də igidlik deyildir, əksinə, özünü yanan evin dağıntıları altında qalmaq kimi acı tale ilə üzləşdirməyə bənzəyir.

## Epiloq

Təbiət insan üçün, onun yaşaması, nəslinin artırması üçün hər cür şərait yaradır. Təbiətin bir hissəsi kimi Günəş Yer üzündə yaşayan insanlara və bütün canlılara hərarət verir. Təbiət öz sehrli fəaliyyəti ilə bitkilərin köməyi ilə qeyri-üzvi maddələri üzvi maddələrə çevirib, bütün canlıların qidalanması üçün şərait yaradır. Bitki aləmi insanı və məməli heyvanların bir qismini orqanizm üçün lazım olan maddələr bolluğu ilə təmin edir. Məməlilərin digər qismi otla deyil, ətlə qidalandığından, ot yeyən heyvanları ovlamaqla öz həyati tələbatlarını ödəməyə nail olurlar. Yırtıcılar, sürü şəklində olan öz ovları üçün həm də sanitar rolunda çıxış edir, onları xəstəliklərin kütləvi qayada yayılmasından qoruyur.

Yer üzündə insan və digər canlıların yaşaması üçün hər cür ilkin şəraitlər vardır. Bunu etməklə təbiət, həqiqətən də, onlar üçün ana rolunu oynayır, çünki ana da öz körpəsini xeyli müddət bətnində gəzdirib, həyata gətirdikdən sonra onu öz döşünün südü ilə qidalandırır. Ana nəsli artırmaq üçün hər cür əziyyətlərə dözür, onlara sinə gərir. Tam oxşar xarakterli təbiət isə özünün yaratdığı və bir hissəsi olan insandan bəzən ziyan görür, onun ağılsız zərbəsinə məruz qalır. Canlıların yaşaması üçün, iki elementin vəhdətindən ibarət olan və olduqca sadə birləşməni əmələ gətirən su insanın yaşaması, bitki və heyvan aləminin mövcudluğu üçün mühüm şərt rolunu oynayır. İnsan əkinçilik istehsalına başladıqda suvarma texnologiyasını da mənimsəmiş, torpağı suvarmaqla daha bol məhsul əldə edə bilmişdir. Lakin suyun izafi israfı torpaqların şoranlaşmasına, onun məhsul vermək qabiliyyətinin yoxa çıxmasına səbəb olduğundan, tarixin ilkin qüdrətli imperiyalarından biri süqut etmiş, sıradan çıxmışdı. Təbiətə, onun nemətlərinə münasibətdə insanın ölçü hissini gözləməməsi, təkcə bunu ona bəxş edənə deyil, həm də öz yaşayış vasitələrinə ağır zərbə vurur. Suyun çirklənməsi, ondan istifadənin səmərəsini azaldır. Suya zəhərli maddələrin axıdılması isə canlı aləmin məhvinə səbəb olur.

Təbiət insanın doğma evi və son mənzilidir. Təbiətin ona göstərdiyi qayğıya o da nankorluqla deyil, minnətdarlıqla cavab verməlidir. Heç kəs öz evinin dağılmasına, yaşayış üçün yararsıza çevrilməsinə imkan verməməyə çalışır. Ailə belə münasibəti ilə yaşadığı evin qorunub saxlanmasını təmin edir. Buna böyük xərc çəkmək ehtiyacı da yaranmır, sadəcə, bu evin abad və rahat olmasına diqqət

vermək kifayətdir. Təbiət isə bəşəriyyətin ümumi evidir, Yer kürəsi hələlik insanın yaşadığı yeganə planet kimi tanınır. Onu qorumaq, ona zərbə dəyməsinə imkan verməmək, bu hazır binanın sahiblərinin çox mühüm borcudur. Övlad valideyninə xilaf çıxdıqda, onun lənəti ilə "mükafatlanır". Təbiətin ümumi övladı olan bəşəriyyət, onun hər bir hissəsi bu ümumi evin salamat qalmasına çalışmalı, bu yolda özünün zərərli ambisiyalarını da kənara qoymalıdır. Təbiətə vurulan hər bir ziyanYer kürəsinin ümumi landşaftını korlayır, əvvəlki vəziyyəti bərpa etmək isə olduqca çətin,olut, bəzən hətta sağalma heç cür mümkün olmur.

Təbiət ona nankorluqla yanaşana hökmən lənət timsallı münasibət bəsləyəcəkdir. Çünki haradasa təbiətin sarsılmaz sayılan arxitekturasının pozulması, ekologiyaya antropogen xüsusiyyətli ziyanın vurulması heç vaxt cavabsız qalmır, təbiət öz qisas mexanizmini işə salır. Hansısa bir ərazidə təbiətin nizamı pozulursa, Yer kürəsinin ən uzaq nöqtələrində də onun əks-sədası hiss olunur. Ona görə də torpaqla, təbiətlə onların başa düşdükləri qaydada davranmaq lazımdır. Güman edilir ki, torpağın ağlı vardır. Bizim isə onu anlamaq üçün ağlımız vardırmı?

Meşələr qırıldıqca, çayların su mənbəyi tükənməyə, bütövlükdə su ehtiyatı azalmağa başlayır, bu isə öz növbəsində quraqlığın baş verməsinə, böyük ölçüdə məhsul itkisinə səbəb olur. İnsanlar çəkdiyi zəhmət müqabilində məhsul şəklindəki mükafat imkanından məhrum olur. Amazonka selvasında ağacların qırılması, meşə sahəsinin azalması, dünyanın oksigen rezervuarının sıradan çıxmasına gətirib çıxara bilər. Atmosferdə istilik zərərli qaydada artdıqca, quraqlıq, arid zonaların sahəsi böyüyəcək, Afrikada isə səhralar daha geniş şəkildə yeni əraziləri zəbt edəcəkdir.Öz dövlətini daha varlı etmək vəzifəsinə xidmət edən siyasət isə bəzən hər cür şərdən xəbər verən macəraların meydana gəlməsinə səbəb oir.

Bütün bunlar sadəcə əylənmək xatirinə baş vermir. Var-dövlət hərisliyi öz məqsədinə çatmaqla yanaşı, həm də belə bədbəxtliklərlə nəticələnir. Dövlət başçıları çalışır ki, onun ölkəsi daha varlı olsun, bunun üçün hər işə əl atır, bu vaxt məqsəd vasitələrə haqq qazandırır. Digər pis cəhət bir də ondan ibarətdir ki, var-dövlətə sahib olmağa can atmaq insan təbiətindəki ən iyrənc xüsusiyyətləri də üzə çıxarır. Pis davranışın miqyasının artması isə Yer kürəsinin də məhvinə səbəb ola bilər.

Bütün belə fəaliyyət qlobal fəlakətə, ömür sürdüyümüz planetin real məhv olması təhlükəsinə gətirib çıxara bilər. Bu vaxt insan nəslini qoruyub saxlamaq üçün başqa planetdə yaşamaq imkanını axtarmaq variant meydana gəlir. Marsda suyun mövcudluğu təsdiq olunduqdan sonra, onun insanlar üçün sığınacaq yeri olması ideysı daha əlverişli şans kimi qəbul edilmişdir. Böyük amerikan tədqiqatçısı, öz kəşfləri və inqilabi lahiyələri ilə məşhurlaşan İlon Mask bu ideyanı

var gücü ilə müdafiə edir. O, başqalarından fərqli olaraq utopiya generatorluğu ilə məşğul olmur, sırf iş və yorulmaz fəaliyyət adamıdır.

Maskın raketləri “Shuttle” (“məkik”) prinsipi ilə uçmaqla, Yerdən Marsa uğurlu səfərlər edib, qayıdır. O, Marsda insanlar üçün sığınacaq yaradılmasında fəal iştirak etməyə də hazırdır. İnsan qrupu Qırmızı planetdəki lava mağaralarında yerləşəcəkdir. Bu mağaraların ərazisi də nisbətən genişdir. Lakin onlarda yaşamaq heç də asan olması ilə seçilmir. Mağarada gün ərzində temperatur 10 dərəcə istidən 40-50 dərəcə şaxtaya qədər dəyişir. Yəqin ki, insanlar soyuğa davamlı paltarla və digər vasitələrlə təmin ediləcəkdir ki, belə şəraitdə yaşaya bilsinlər.

Əlbəttə, Marsdakı sığınacaqda hətta qısa müddətə də yaşamaq, Yer üzündə olduğundan çox çətindir. Axı sığınacaq kimi istifadə edildiyindən, ondan rahat şərait ummaq da düzgün deyildir. Buradan belə bir şübhə edilməyən nəticə çıxır- bəşəriyyət öz rahat evi olan Yer kürəsini qorumalıdır, ona ziyan vurmağa son qoymalıdır. Belə münasibət təkcə doğma planetimizi deyil, bütövlükdə bəşəriyyətin özünün də müdafiəsini təmin edəcəkdir.

Vaxtilə böyük türk şairi Nazim Hikmətin başqa məqsədlə dediyi kimi:

*“Biz öz-özümüzlə yarışdayıq, gülüm,*
*Ya səadətə pənah aparacağıq,*
*ya da dünyamıza çökəcək ölüm.”*

Şair atom silahından istifadə təhlükəsinə görə belə kəskin proqnozla çıxış etmişdi , çünki ona 1945 –ci ilin avqustunda Hirosima və Naqasakinin atom bombası zərbəsindən görünməmiş dağıntıya məruz qalması və böyük sayda insan tələfatına səbəb olması məlum idi. Soyuq müharbənin daha da qızışması, iki fövqəl dövlət arasında silahlanmanın böyük ölçüdə artması da yeni təhlükələr meydana gətirirdi. Müəllif düzgün seçimin yenə insandan asılı olduğunu vurğulamışdı. Bundan hələ 60 il əvvəl, 1903-cü ildə Nobel mükafatı laureatı Pyer Küri arvadı Mariya Skladovskaya- Küri ilə birlikdə icad etdikləri uran atomunun parçalanmasının və atom enerjisindın istifadənin həm də bədbəxtlik gətirməsi mümkünlüyü barədə xəbərdarlıq etmişdi. Təəssüf ki onun öncəgörməsi təkcə düşməni məğlub edib, diz çökdürmək naminə amerikanların Yaponiyaya atom bombası atılması ilə deyil, həm də 1986- cı ildə SSRİ ərazisindəki Çernobıl atom elektrik stansiyasında baş verən dəhşətli qəza vaxtı öz təsdiqini tapmışdı.

Bu vaxt amerikan yazıçısı Cek Londonun “Həyat eşqi” hekayəsində təsvir etdiyi hadisə yada düşür. Uzun müddət ac qalan adam qarlı düzənlikdə taqətdən

düşdüyü bir vaxtda, özü kimi ac canavarla rastlaşır. Canavar onu yesə, aclığına son qoya bilər. İki zəif varlıq öz həyatlarını xilas etmək naminə savaşa girirlər. Canavar öz təbiətinə xas olan yırtıcılıq keyfiyyətlərini, qüvvəsini məhvedici aclıq hesabına itirdiyindən, həmin adam var gücünü toplayıb onu boğub öldürə bilir və özü də bu vaxt huşunu itirir. Təsadüfən bu bədbəxtə rast gələnlər onu xilas edib, gəmiyə gətirirlər. Aclıq onun psixikasına elə güclü təsir göstərmişdi ki, bol-bol yedizdirildiyinə baxmayaraq, qara günün qorxusundan özünə yığdığı çörək qırıqlarından ehtiyat yaratmışdı..

Bəşəriyyət isə indi o qədər də zəif deyildir və heç də başqa planetdən gələn hansısa bir yırtıcı tipli varlıqla hələlik rastlaşmamışdır. Dövlətlər timsalında o özü özüylə vuruşmağa girişmişdir, görünür bəzi dövlət rəhbərlərinin şüurunda da xoşagəlməz dəyişikliklər meydana gəlmişdir. Axı tarixən xalqın başladığı müharibə nümunəsi mövcud olmamışdır. Müharibələri adətən güc başlayır və onlara da yalnız güc son qoyur. Güc isə real hakimiyyətə malik olan dövlət rəhbərinin səlahiyyətindədir. Diplomatiya da gücə tabe olduğundan, yalnız müharibəyə son qoymaq barədə dövlət rəhbərinin iradəsini yerinə yetirmək üçün sənədlər hazırlamaqla məşğul olur. Hərb maşınını işə salan da, onun fəaliyyətini dayandıran da məhz dövlət rəhbəridir. Hazırda müharibə aparmaq kimi belə sərsəm fəaliyyət davam etsə, həddi aşan cəhdlər planeti məhv etmək kandarına yaxınlaşdıra bilər. Əgər belə intensiv dağıdıcı fəaliyyətə xidmət edən siyasət dayandırılmasa, faciəli sonluq nə vaxtsa özünü biruzə verməkdə heç də gecikməyəcəkdir.

Təəssüf ki, XXI əsrin başlanğıcında dünyanın müxtəlif guşələrində yanan müharibə tonqalı böyük təhlükədən xəbər verir.. Bu alov təkcə qonşu regionları deyil, bütün dünyanı qarsa bilər. Son vaxtlar müxtəlif bəhanələrlə ört-basdır edilən imperialist meyillər güclənmişdir. SSRİ-nin mövcudluğu dövründə həqiqi və ya saxta olmasının fərqinə varmadan, xalqlar dostluğunun süni nazik folqasına bürünmüş birgəyaşayış, bir andaca qatı millətçilik həmləsi ilə dağıldı, yeni yaranmış qurama yorğan tipli kiçik bir dövlət öz qonşsuna silahlı təcavüzü ilə onun geniş ərazini işğal etdi. Bu iyrənc haqsızlığa yalnız üç onillik sonra son qoymaq mümkün oldu və təcavüzkar ağır məğlubiyyətə düçar oldu. Əsr boyu özlərini qardaş adlandıran iki slavyan xalqı arasında qanlı müharibə başlandı və ona son qyulması cəhdi də ciddi xarakter daşımadığından, hələlik fayda vermir. Yaxın Şərqdə də bomba partlayışları musiqi alətlərinin yaratdığı zəif melodiyaların səsini batırmaqla, daha çox eşidilir. ABŞ-ın dövlət siyasətində də iqtisadi məcburiyyət vasitələrini tətbiq etməklə qonşu dövlətləri öz tərkibində ştat kimi əritmək niyyətləri acıqca elan edilir. Birləşmiş Ştatların tarixində belə hallar olmuşdur.

XIX əsrin ortalarında Meksikadan ayrılıb, özünü müstəqil dövlət elan edən Texas az sonra ABŞ-ın yeni ştatına çevrilmişdi.

Vaxtilə dünyanın Almaniya kayzeri II Vilhelmin iddialarına və yenə həmin ölkədə fürer titulunu daşıyan Adolf Hitler kimi yeni quduzun baş qaldırmasına məhəl qoylmaması ilə başlanan iki Dünya müharibəsi, insan həyatının ağır itkilərinə və nəhəng miqyasdakı dağıntılara səbəb oldu. Bəşəriyyət, onların ambitsiyalarının həyata keçirilməsi cəhdlərinə görə ağıla gəlməyən qurbanlar verməyə məcbur oldu. İndi də kiminsə hansısa aldadıcı ideyasına məhəl qoymamaq, daha böyük fəlakətlərə səbəb ola bilər. Ona görə də müharibə alovu daha iri regionlara yayılmamış, bu odu söndürmək zərurəti yaranır. Adətən yanğın çox sürətlə yayılır və daha böyük əraziləri məhv etməyə başlayır. Bu yaxınlarda Los Ancelesdə baş verən yanğın yaratdığı fəlakətə görə deyilənləri təsdiq edir. Ağılsız siyasət cəhdləri davam etsə,gündəliyə Üçüncü Dünya müharibəsinin də qoyulması baş verə bilər və bu dəhşətli variantın  reallaşması planetin bütünlüklə məhvinə aparıb çıxarardı. Vaxtilə gestapo tərəfindən tutulub həbs edilmiş və 1943-cü ildə dustaqxanada edam edilən görkəmli çex antifaşisti Yulius Fuçikin "Boynunda kəndir asılanın reportajı" əsərində yazdığı "İnsanlar, sayıq olun" çağırışı bu gün həmişə olduğundan, bəlkə də daha aktual səslənir.

Planetin taleyi səlahiyyət sahibləri olan xırda bir qrup insanın əlindədir. Dünya, arası kəsilməyən müharibələrə cəlb olunmaqla, həm də təbiətə izafi təzyiq göstərməklə öz məhvinə yaxınlaşa və ya onu sürətləndirə bilər. Bəşəriyyət, özünün daha xoşbəxt gələcəyi naminə təbiət adlanan öz evini hər cür təhlükələrdən qorumalıdır. Rahat yaşamağa öyrənmiş insan öz doğma evinə azacıq da olsa təhlükə törətmək kimi ağılsız fikirə düşsə, birinci növbədə üstündə oturduğu budağı kəsməklə, özünü daha ağır problemlərlə üzləşdirəcəkdir. Böyük inkişaf yolu keçmiş və homo sapience adlanan müdrik insan  buna yol verməməlidir, əks təqdirdə, bu, özünün məhvinə aparan intihar qaydasındakı sərsəm bir hökmü icra etmək xarakteri daşıyacaqdır.

**SON**

**11.01.2025-ci il.**